RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 202 (10222) 3 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Türk dünyasının birliyi və gücü artır

İlham Əliyevin bu prosesdə yeni ideyaları və siyasi təşəbbüsləri TDT-yə üzv dövlətlərin başçıları tərəfindən yüksək dəyərləndirilir

Bu gün Türk Dövlətləri Təşkilatının keçdiyi inkişaf yolu göstərir ki, platforma ilk gündən regional əməkdaşlığı mərhələli şəkildə dərinləşdirmək və beynəlxalq müstəvidə vahid mövqedən çıxış etmək məqsədi daşıyıb. Azərbaycanın bu müddətdə nümayiş etdirdiyi ardıcıl siyasi iradə və ikitərəfli müttəfiqlik münasibətləri qurumun təsir imkanlarını keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

2009-cu ildə imzalanan tarixi Naxçıvan Sazişi türk dünyasının birliyinin institusional qaydada təsdiqi oldu. Naxçıvan Sazişində təşkilatın yaradılmasında əsas məqsədlər kimi tərəflər arasında qarşılıqlı etimad, dostluq və münasibətlərin möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi nəzərdə tutulub. Həmçinin siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi və sair yer alıb.

6

Azərbaycan ilə Əlcəzair arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Abdelmacid Tebbuna

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

1 Noyabr - İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu tarixi gün Əlcəzair xalqının azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin, sarsılmaz iradəsinin, böyük qəhrəmanlığının və milli birliyinin əbədi rəmzidir.

Azərbaycan ilə Əlcəzair arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, qardaş xalqlarımızın maraqlarına uyğun olaraq əlaqələrimizin daha da genişləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da inkişaf etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.



Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 2026-cı il

Rəcəb Tayyib Ərdoğan Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı Azərbaycan səmasından təbrik etdi

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Koreya Respublikasına səfərə gedərkən təyyarəsi ölkəmizin hava məkanına daxil olduqdan sonra laynerin pilotu dispetçerlə əlaqə saxlayıb.

AZƏRTAC xəbər verir ki, o, dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına Zəfər Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanın təbrikini çatdırıb. Təbrikdə deyilir:

"Zati-aliləri, hörmətli qardaşım, Cənubi Koreyaya səfərim zamanı qardaş Azərbaycanın hava məkanından keçərkən öz adımdan və nümayəndə heyətim adından zati-alinizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və xoş arzularımı çatdırıram. Fürsətdən istifadə edərək ölkələrimiz arasındakı müttəfiqlik münasibətlərinin və əməkdaşlığın gələcəkdə də möhkəmlənərək inkişaf edəcəyinə güclü inamımı bir daha bildirmək istəyirəm. Qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, Azərbaycana davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

Rəcəb Tayyib ƏRDOĞAN,
Türkiyə Respublikasının Prezidenti".

Heydər Əliyev siyasətinə sadiqlik Azərbaycanı qalib və yenilməz dövlətə çevirdi

Prezident İlham Əliyevin uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsinə - ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinə nail olub. Hələ 23 il əvvəl ilk andiçmə mərasimində cənab İlham Əliyev demişdir: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir.

7

Azərbaycanın humanitar diplomatiyası

Heydər Əliyev Fondunun Mədəniyyət Nazirliyi ilə birlikdə təşkil etdiyi ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı ölkəmizin mədəni həyatında mühüm hadisələrdən sayılır. Festival Azərbaycan musiqisinin klassik irsinin yaşadılması, milli bəstəkarlıq məktəbinin tanıdılması və beynəlxalq musiqi əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Üzeyir Hacıbəyli irsi Azərbaycan mədəniyyətinin milli xüsusiyyətlərlə dünya musiqi ənənələri arasında əlaqəsini təcəssüm etdirir. Belə bir irsin beynəlxalq festivallar vasitəsilə təqdim olunması həm mədəni yaddaşın qorunmasına, həm də yeni nəsillərin klassik musiqiyə marağının gücləndirilməsinə xidmət göstərir. Bu baxımdan fondun mədəniyyət sahəsində fəaliyyəti təkcə tarixi irsin bərpasını deyil, onun müasir auditoriyalara çatdırılması və beynəlxalq mədəni mübadilədə yaşadılması imkanlarını da əhatə edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın son iki aydakı fəaliyyəti Azərbaycanın mədəni və humanitar diplomatiyasının necə geniş coğrafiyada davam etdiyini, müxtəlif beynəlxalq tərəfdaşlarla əlaqələrin gücləndirildiyini göstərir. Bunun dəyəri isə onların yaratdığı dialoqun konkret layihələrə, davamlı tərəfdaşlıqlara və insanların həyatında hiss olunan nəticələrə çevrilməsindədir.

8

Tarixi irsimiz, müasir inkişafımız və gələcək simamız

Azərbaycanın şəhərsalma sahəsində beynəlxalq əməkdaşlığı cari ildə də əhəmiyyətli dərəcədə yüksəlib. 2026-cı il mayın 17-22-də Bakıda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) və Azərbaycan Hökumətinin birgə təşkilatçılığı ilə Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi ölkəmizin qlobal şəhərsalma gündəliyində iştirakının mühüm göstəricisidir.

Forumun respublikamızın paytaxtında keçirilməsi Azərbaycanın şəhərsalma təcrübəsinin beynəlxalq səviyyədə təqdim olunması, müxtəlif ölkələrin təcrübələrinin öyrənilməsi və gələcək əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Tarixi şəhərlərin qorunması, müasir şəhərsalma yanaşmalarının tətbiqi və işğaldan azad edilmiş ərazilərdə bərpa prosesinin təcrübəsinin beynəlxalq müzakirələr üçün mühüm mövzular sırasında olması da bunu sübut edirdi.

7



Birinci vitse-prezident Mehriban Əliyeva "Zikra: xatirələr gecəsi" tamaşasını izləyib

Noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Bakı Beynəlxalq İncəsənət Festivalı (BIAF-2026) çərçivəsində "Zikra: xatirələr gecəsi" tamaşası nümayiş olunub.







AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri tamaşaya baxıblar.

Səudiyyə Ərəbistanının Əl-Ula şəhərində yerləşən və müasir incəsənətə həsr olunmuş beynəlxalq mədəniyyət məkanı "Wadi AlFann"ın sifarişi ilə hazırlanan "Zikra: xatirələr gecəsi" tamaşası çoxsaylı mükafatlara layiq görülmüş rejissor və xoreoqraf Əkrəm Xanın ən son yaradıcılıq işidir.

Müasir rəqs və klassik hind rəqsinin özünəməxsus hərəkət dilini bir araya gətirən Əkrəm Xan bu layihədə vizual rejissor Mənal Əl-Dovayan ilə əməkdaşlıq edib.

Tamaşada qadınlar birgəcəlik bir araya gələrək özlərindən əvvəl yaşamış insanların ruhlarını oyatmağa çalışırlar. Müqəddəs mərasim və ortaq xatirələrin yada salınması vasitəsilə onlar zamanın sərhədlərini aşaraq keçmişlə bu günü birləşdirir, mənəvi yenilənmə aktını gerçəkləşdirirlər.

Tamaşanın orijinal musiqisi hindəsilli amerikalı müğənni və bəstəkar Aditya Prakaş tərəfindən bəstələnib.

Tamaşanın vizual dünyası "Wadi AlFann"ın rəssamı Mənal Əl-Dovayan tərəfindən yaradılıb. O, 60-cı Venesiya Biennalesində Səudiyyə Ərəbistanı pavilyonunda nümayiş etdirilən irimiqyaslı multimedia instalyasiyası ilə tanınır.

"Zikra" layihəsində rəssam ənənəvi sənətkarlıq nümunələrini müasir formalarla birləşdirib. Təbii boyalar səhranın rəng çalarlarını əks etdirir, Əl-Ulanın irsindən qaynaqlanan həndəsi naxışlar isə hər bir obrazın rolunu və simvolik mənasını vurğulayır.

Qeyd edək ki, səhnə əsəri Əl-Ulanın qədim miflərindən və möhtəşəm təbiət mənzərələrindən ilhamlanaraq hazırlanıb. Tamaşanın məkan üçün xüsusi olaraq yaradılmış dünya premyerası 2025-ci ilin yanvarında nümayiş etdirilib.

"Qədim daş, müasir yaddaş" və "Məsuliyyət radiusu" layihələri təqdim olunub

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alyona Əliyeva tədbirdə iştirak ediblər







Daş Salnamə Muzeyində rəssam, heykəltaraş Orxan Nəbizadənin "Qədim daş, müasir yaddaş" və Elvin Nəbizadənin isə "Məsuliyyət radiusu" adlı layihələri təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alyona Əliyeva tədbirdə iştirak ediblər.

"Qədim daş, müasir yaddaş" layihəsi Qobustanın qədim qayaüstü təsvirlərindən ilhamlanaraq ərsəyə gətirilib. Heykəltaraşlıq nümunələrində Qafqaz bəbiri, ceyran, boz canavar, qonur ayı və şah qartalı təsvir olunub. "Məsuliyyət radiusu" adlı layihədə isə insanın vəhşi təbiətə münasibəti interaktiv formada təqdim edilib.

Heydər Əliyev Mərkəzində "Art Weekend"in rəsmi açılışı olub

Açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva və Alyona Əliyeva iştirak ediblər









Oktyabrın 30-da Heydər Əliyev Mərkəzində "Bakıya uçuş. İncəsənət həftəsonu. Gələcəyi İNDİ duy" (Fly to Baku. Art Weekend. Sense the Future NOW) festivalının rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, festivalın açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva və Alyona Əliyeva iştirak ediblər.

Heydər Əliyev Mərkəzində "Art Weekend"in açılışı çərçivəsində bir neçə sərgi təqdim olunub.

Açılışda çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva bu tədbirdə müxtəlif ölkələrdən olan tanınmış rəssamların iştirak etdiyini deyib: "Əlbəttə ki, bu, bir-birimizlə tanış olmaq, fikir mübadiləsi aparmaq baxımından gözəl fürsətdir. Qarşıdakı bir neçə gün ərzində siz təbiətin gözəlliyini, gücünü və əzəmətini əks etdirən çoxsaylı rəsm əsərləri, instalyasiyalar, heykəllər və performanslarla tanış olacaqsınız. 2012-ci ildə nəsli kəsilmək təhlükəsi ilə üzləşən heyvan növlərinin qorunması məqsədilə Qafqazın "Böyük beşliyi" təşəbbüsünü yaratmışıq".

Bu təşəbbüsə qonur ayı, boz canavar, Qafqaz bəbiri, imperator qartalı və ceyranın daxil olduğunu vurğulayan Leyla Əliyeva bildirib ki, həmin vaxtdan yerli qurumlar və beynəlxalq təşkilatlarla birlikdə bu heyvan növlərinin mühafizəsi, onların yenidən təbii yaşayış mühitinə qaytarılması və areallarının genişləndirilməsi istiqamətində fəaliyyət göstəririk. Bu sahədə kifayət qədər uğurlu nəticələr əldə etmişik.

Təbiəti anlamağın və sevməyin ən yaxşı yolunun onun qoynunda daha çox vaxt keçirmək olduğunu diqqətə çatdıran Heydər Əliyev Fondunun vitse-prezidenti qeyd edib: "Yalnız bu zaman onunla həqiqi bağlılıq hiss edə bilərik. Eyni zamanda hər kəs hətta kiçik addımlarla böyük dəyişikliklərə töhfə verə biləcəyini unutmamalıdır. "Gələcəyi İNDİ duy" festivalının əhəmiyyəti bizim üçün məhz budur".

Sonra Azərbaycan Dövlət Uşaq Filarmoniyasının təqdimatında milli rəqs nümunəsi nümayiş olunub.

"Bakıya uçuş. İncəsənət həftəsonu. Gələcəyi İNDİ duy" festivalında iştirak etmək üçün Azərbaycanın paytaxtına gələn beynəlxalq incəsənət nümayəndələri adından Leyla Əliyevaya təşəkkür edən incəsənət kuratoru Simon de Püri (Simon de Pury) deyib: "Hələ 2012-ci ildə Londonda Sizinlə görüşmək fürsətim olmuşdu. Həmin görüş zamanı Azərbaycan rəssamlarının beynəlxalq səviyyədə daha geniş tanıdılması, əsərlərinin dünya miqyasında nümayiş etdirilməsi, eyni zamanda ən tanınmış beynəlxalq rəssamların əsərlərinin Azərbaycana gətirilməsi arzunuzu bölüşmüşdünüz. Məhz bu söhbətin nəticəsi olaraq "Fly to Baku" sərgisi təşkil edildi. Londonda böyük uğur qazanan sərgi daha sonra Paris, Moskva və dünyanın bir sıra digər şəhərlərində nümayiş olundu. 2016-cı ildə isə Heydər Əliyev Mərkəzində amerikalı rəssam Corc Kondonun əsərlərinə həsr olunmuş retrospektiv sərgi təşkil etdik. Bu möhtəşəm binada incəsənət və mədəniyyət ətrafında bir araya gəlmək xüsusi zövq verir. Mənim fikrimcə, Zaha Hadidin bu memarlıq əsəri onun ən möhtəşəm layihəsidir".

Həmçinin açılış mərasimi çərçivəsində müəllifi və rejissoru Pərviz Məmmədrzayevin olduğu, vizual atmosferi isə Ləman Yusifli tərəfindən "Art Weekend" üçün yaradılan "Orionun sapı" immersiv teatr tamaşası təqdim edilib. Tamaşa xoreoqrafiya, musiqi və vizual hekayəçilik vasitəsilə insan və təbiət arasındakı kövrək münasibəti araşdıran poetik bir səyahəti təcəssüm etdirir. "Orionun sapı" yalnız bir teatr təcrübəsi deyil, həm də insanın təbiətlə münasibəti və onun qarşısındakı məsuliyyəti barədə düşünməyə sövq edən bir əsərdir.

Tədbirin davamında Azərbaycan Dövlət Rəqs Ansamblının təqdimatında qədim rəqs ənənələrimizi əks etdirən "Cəngi" və "Yallı" rəqsləri təqdim olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ikinci ildir keçirilən festivalın sərgi proqramı müxtəlif bədii yanaşmaları, nəsilləri və coğrafiyaları bir araya gətirərək tamaşaçılara yaddaş, mədəni irs, təbiət, biomüxtəliflik, kimlik və gələcək kimi mövzular ətrafında düşünmək imkanı yaradır.

Budəfəki "Art Weekend"in sərgi proqramının mühüm istiqamətlərindən biri "Qafqazın Böyük Beşliyi" (Big Five of the Caucasus) mövzusudur. Qafqazın təbiəti və biomüxtəlifliyinə həsr olunan layihələrdə heyvanlar yalnız təbiətin bir hissəsi kimi deyil, həm də mədəni yaddaşın, mifologiyanın və kollektiv kimliyin daşıyıcıları kimi təqdim edilir.

"Böyük Beşlik" və onun təbiətdən sənətə olan səyahətinin bədii interpretasiyalarından biri də "Əfsanəvi varlıqlar: Azərbaycanın heyvanlar aləmi" (Legendary Creatures: An Azerbaijani Bestiary) layihəsidir. Heydər Əliyev Mərkəzinin park ərazisində nümayiş olunan layihə Azərbaycan folklorundakı mifoloji varlıqları "Böyük Beşlik" ilə əlaqələndirir. Burada heyvanlar yerli bilik, folklor və incəsənət yaddaşının daşıyıcıları kimi təqdim olunur, onların gələcək nəsillər üçün qorunmasının vacibliyi vurğulanır.

Ekspozisiyada ümumilikdə 6 rəssamın 6 əsəri - xalça kompozisiyası, heykəltaraşlıq əsəri, fotoəsər, metal kompozisiya, qarışıq kompozisiya sərgilənir.

Ekspozisiyadakı əsərlər məhz "Art Weekend" çərçivəsində ilk dəfə ictimaiyyətə təqdim edilir.

Heydər Əliyev Mərkəzində nümayiş olunan "Təbiət danışanda. Varislər" (When nature speaks. Heirs) müasir incəsənət sərgisi də təbiət, irs və insan məsuliyyəti mövzularını araşdırır.

Qafqazın "Böyük Beşliyi" - Qafqaz bəbiri, qonur ayı, boz canavar, imperator qartalı və ceyran sərginin konseptual əsasını təşkil edərək, "biz özümüzdən sonra necə bir təbii dünya qoyub gedəcəyik?" sualına diqqəti çəkir.

Ekspozisiyada müxtəlif formalarda təqdim olunan bu heyvanlar sadəcə vəhşi təbiət təsvirləri kimi qəbul edilmir. "Böyük Beşlik" festivalın bədii proqramının əsas rəmzlərinə çevrilərək təbiət, mədəni yaddaş, mifologiya, kimlik və gələcək nəsillər haqqında düşünmək üçün yeni perspektiv yaradır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ideyası əsasında hazırlanan sərgi insanlarla təbiət arasındakı əlaqəni, bir-biri ilə sıx bağlı olan irs, məsuliyyət, yaddaş və seçim kimi anlayışları tədqiq edir.

Sərgi instalyasiya, heykəltaraşlıq, keramika, tekstil və müxtəlif materialların birləşdirildiyi qarışıq texnikalarda çalışan rəssam və sənətçiləri bir araya gətirir.

Sərgidəki əsərlər məhz Bakıdakı incəsənət həftəsonu çərçivəsində ilk dəfə geniş ictimaiyyətə təqdim olunub.

Daha sonra çinli rəssam Canq Cinin (Zhang Ji) "Həqiqət dərisi" (The skin of truth) sərgisinə baxış olub. Ekspozisiya müxtəlif mədəniyyətlərin memarlıq ənənələrini müasir rəngkarlıqla birləşdirir. Sərgidə rəssamın "Həqiqət dərisi" və "Ultima" silsilələrindən əsərləri yer alıb. Məscid, sinaqoq, katolik kilsə, hindu və buddist məbədlərinin naxışlarından ilhamlanan Canq Cin onları müasir rəngkarlıq dili ilə yenidən şərh edir.

Bakı ekspozisiyasında nümayiş olunan əsərlər İspaniyadakı Kordova Böyük Məscidi, Əlhambra sarayı kimi məşhur memarlıq abidələrinin təsiri ilə yaradılıb.

Canq Cinin rəsm texnikası da fərqlidir. O, boyanı kətana fırça əvəzinə şprislə çəkir. Bu üsulla yaranan qabarıq səthlər əsərlərə barelyefi xatırladan görünüş verir.

Canq Cinin əsərləri indiyədək ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Fransa, İspaniya, İsveçrə, Səudiyyə Ərəbistanı, Türkiyədə və digər ölkələrdə nümayiş olunub və beynəlxalq kolleksiyalara daxil edilib.

Həmçinin Heydər Əliyev Mərkəzində tanınmış amerikalı rəssam Cudi Çikaqonun (Judy Chicago) "Qadınlar dünyanı idarə etsəydilər…" (What If Women Ruled the World?) adlı art-layihəsi və italiyalı sənətçi Mikelancelo Pistolettonun (Michelangelo Pistoletto) "Əbədiyyət güzgüsü" (Mirror of Eternity) əsəri təqdim olunub.

"Qadınlar dünyanı idarə etsəydilər…" art-layihəsi xatirələri bölüşmək, hekayələr danışmaq və kollektiv özünüifadə üçün imkan yaradır. Layihə 2022-ci ildən etibarən ABŞ, Almaniya, Argentina, Böyük Britaniya, Fransa, Hindistan, Meksika, Niderland və Türkiyəni əhatə edən qlobal bir arxiv formalaşdırıb. Bakıda ziyarətçilər interaktiv səsyazma kabinəsində sualları cavablandıraraq əsərin növbəti mərhələsinin bir hissəsinə çevrilə bilər.

Mikelancelo Pistolettonun (Michelangelo Pistoletto) "Əbədiyyət güzgüsü" (Mirror of Eternity) əsəri isə rəssamın güzgü motivi üzərində uzun illər apardığı yaradıcılıq araşdırmalarının davamıdır. Pistoletto yaradıcılığı boyunca tamaşaçını sənət əsərinin bir hissəsinə çevirmək üçün güzgüdən istifadə edib. "Əbədiyyət güzgüsü" rəqəmsal dövrün imkanları əsasında süni intellekt vasitəsilə insan portretlərini birləşdirərək əvvəllər mövcud olmayan yeni simalar yaradır. İştirakçı öz portretini sistemə yükləyir, sistem isə onu başqa bir insanın portreti ilə birləşdirərək yeni obraz formalaşdırır. Beləliklə, bu süni yaradılışda nəsildən-nəslə davam edən daimi yenilənmə əks olunur. Layihə insan, yaddaş, texnologiya və daim yenilənən həyat anlayışları arasındakı əlaqəni araşdırır.

"Bakıya uçuş. İncəsənət həftəsonu. Gələcəyi İNDİ duy" festivalı noyabrın 1-dək davam edib.

“Azərbaycan Respublikası Prezidentinin “Elektron hökumət” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə” 2013-cü il 5 fevral tarixli 813 nömrəli, “Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” 2018-ci il 14 mart tarixli 1885 nömrəli, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, “Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi”nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli fərmanlarında və “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında” 2014-cü il 13 fevral tarixli 268 nömrəli, “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2022-ci il 4 aprel tarixli 3199 nömrəli, “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 474 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 361 **Bakı şəhəri, 27 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli 813 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli fərmanlarında və "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli 268 nömrəli, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 4 aprel tarixli 3199 nömrəli, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 474 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067, № 12 (II kitab), maddələr 1439, 1463; 2025, № 1, maddə 86, № 2, maddələr 181, 187, № 12 (II kitab), maddə 1216; 2026, № 1, maddə 84) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.12-ci bəndinin ikinci abzasında "EHİS vasitəsilə müraciət edən şəxsin elektron kabinetində yerləşdirilməsi üçün "MyGov" Elektron Hökumət Portalına ötürülür" sözləri "elektron kabinetdə yerləşdirilməsi üçün EHİS-ə ötürülür" sözləri ilə əvəz edilsin.

2. "Rabitə müəssisələri (operatorlar), həmçinin onların diler və distribüterləri tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyul tarixli 131 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 665 (Cild I) 2.1-ci bəndində "Elektron Hökumət Portalına qoşulmuş informasiya sistemləri vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilmiş dövlət informasiya sistemləri və ehtiyatları vasitəsilə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 571 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Elektron sağlamlıq kartı" sisteminin tətbiqi Qaydaları"nın 5.1-3-cü bəndində "Elektron hökumət" portalı vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1257 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nın 4.4.1-ci yarımbəndində "Elektron hökumət" portalına daxil olaraq müvafiq avtorizasiya prosesini keçməklə," sözləri "Elektron Hökumət İnformasiya Sistemində identikləşdirildikdən sonra" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 iyun tarixli 142 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 640 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında və 1-ci hissədə "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları" üzrə:

5.2.1. adında "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

5.2.2. 1.2-ci bənddə "Elektron hökumət" portalında (bundan sonra - portal)" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" (bundan sonra - EHİS)" sözləri ilə əvəz edilsin;

5.2.3. 1.3-1.6-cı bəndlərdə, 2-ci hissənin adında, 2.1-ci, 2.2-ci bəndlərdə, 2.3-cü bəndin birinci və ikinci cümlələrində, 2.4-cü bənddə (ikinci halda), 2.5-ci bəndin birinci və ikinci cümlələrində, 3-cü hissənin adında, 3.1-ci bənddə, 3.1.2-ci yarımbənddə, 3.2-ci bənddə (ikinci halda), 3.2.3-cü, 3.2.4-cü yarımbəndlərdə, 4.2-4.5-ci, 4.6-cı (ikinci halda) bəndlərdə ismin müvafiq hallarında "portal" sözü ismin müvafiq hallarında "EHİS" akronimi ilə əvəz edilsin;

5.2.4. 2.4-cü, 3.2-ci və 4.6-cı bəndlərdə (birinci hallarda) "Portalın" sözü "EHİS-in" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 816 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nın 2.10-cu bəndində "elektron hökumət portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382 (Cild I); 2024, № 2, maddə 1049; 2026, № 6, maddə 563) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nin "İnformasiya sisteminin adı" sütununun 7-ci hissəsində "Elektron hökumət" portalı" sözləri "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 596 (Cild I) ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nın 2.2.1-ci yarımbəndində "elektron hökumət" portalına" sözləri "Elektron Hökumət İnformasiya Sisteminə" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə olunması Qaydası"nın 1.7-ci bəndində "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"na" sözləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına, "Elektron Hökumət İnformasiya Sisteminin fəaliyyətinin təmin edilməsi və mərkəzi, yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanına və digər normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1891 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 3.2-ci bənddə "Elektron hökumət" portalına daxil olaraq müvafiq autentifikasiya prosesini keçməklə," sözləri "Elektron Hökumət İnformasiya Sistemi"ndə identikləşdirildikdən sonra" sözləri ilə əvəz edilsin;

10.2. 3.7-ci bəndin ikinci cümləsində "Elektron Hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

10.3. 4.1-ci, 4.2-ci və 5.2-ci bəndlərdə "Elektron hökumət" portalı vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

11. "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in, "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in və "İnformasiya sistemlərinin "Lisenziyalar və icazələr" portalına inteqrasiyası üçün texniki tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I); 2025, № 2, maddə 196, № 9, maddə 877; 2026, № 1, maddə 93, № 6, maddə 563) aşağıdakı dəyişikliklər edilsin:

11.1. adında ", "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in və "İnformasiya sistemlərinin "Lisenziyalar və icazələr" portalına inteqrasiyası üçün texniki tələblər"in" sözləri "və "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in" sözləri ilə əvəz edilsin;

11.2. 3-cü hissə ləğv edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 249 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 982 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 611; 2025, № 3, maddə 282; 2026, № 6, maddə 586) ilə təsdiq edilmiş "Beynəlxalq sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər üçün iş və istirahət rejimi, nəqliyyat vasitələrinin taxoqraflarla təchiz edilməsi, onlardan istifadə, onlara xidmət və fəaliyyətinə nəzarət Qaydası"nın 13.2-ci bəndində "Elektron hökumət" portalına daxil olaraq müvafiq autentifikasiya" sözləri "Elektron Hökumət İnformasiya Sistemində müvafiq identikləşdirilmə" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1535 (Cild I) ilə təsdiq edilmiş "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1.5-ci bənddə "Elektron hökumət" portalı vasitəsilə göstərilir" sözləri "Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə həyata keçirilir" sözləri ilə əvəz edilsin;

13.2. 3.3-cü bənddə "Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS)" sözləri "EHİS" akronimi ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 453 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1873 (Cild I); 2025, № 2, maddə 196) ilə təsdiq edilmiş "İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası"nın 2.2-ci bəndində "Vahid Giriş Sistemi"ndən ("ASAN login") istifadə edilməklə" sözləri "EHİS-in "Vahid Giriş" altsistem vasitəsilə" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 yanvar tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 73 (Cild I); 2024, № 4, maddə 439, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Turizm Reyestrinin aparılma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 5.3-cü bənddə "Vahid Giriş Sistemi ("ASAN login") vasitəsilə" sözləri "EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

15.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. İstifadəçi EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə Reyestrdə identikləşdirildikdən sonra avtomatik qaydada elektron kabineti yaradılır.";

15.3. 7.1-ci bənddə "ASAN login" vasitəsilə" sözləri "EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 212 (Cild I) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın 2.1.6-2.1.10-cu yarımbəndlərində və 8.1-ci bəndində "kommunal xidmətlərin vahid informasiya sisteminə" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Kommunal Xidmətlər" altsisteminə" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1236 (Cild I); 2024, № 2, maddə 209, № 3, maddə 341, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"nın 7.10-cu bəndində "Elektron hökumət" portalı vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1289 (Cild I) ilə təsdiq edilmiş "Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

18.1. adında və 3.2-ci bənddə "Sığortaolunanın fərdi şəxsi hesabı" sözləri "Sığortaolunanın elektron kabineti" sözləri ilə əvəz edilsin;

18.2. 3.1-ci bənddə "Agentlik sığortaolunanın fərdi şəxsi hesabını yaradır və Vahid Giriş Sistemi ("Asan Login") vasitəsilə şəxsi hesaba giriş imkanlarını təmin edir" sözləri "sığortaolunanın elektron kabineti yaradılır və həmin kabinetə EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirilməklə giriş təmin edilir" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1583 (Cild I) ilə təsdiq edilmiş "Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı"nın 1.3-cü və 2.2-ci bəndləri ləğv edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 104 (Cild I); 2024, № 11, maddə 1247) ilə təsdiq edilmiş "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları"nın 3.2-ci bəndində "ASAN login" sistemi vasitəsilə giriş etdikdən sonra" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirdikdən sonra" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1177 (Cild I) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin 2.12-ci bəndində "Vahid Giriş Sistemi ("ASAN" Login) vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 436 (Cild I) ilə təsdiq edilmiş "Yerləşmə vasitələrində yerləşmə xidmətindən istifadə edən şəxslərin elektron qeydiyyatının aparılması Qaydası"nın 2.3-cü bəndində "Vahid Giriş Sistemi vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 493 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1828 (Cild I); 2026, № 6, maddə 586) ilə təsdiq edilmiş "Elektron satınalmanın keçirilməsi Qaydaları"nın 2.1.1-ci və 2.2.1-ci yarımbəndlərində "Vahid giriş sistemi pəncərəsindən" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi üzərindən" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 iyun tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 725; 2025, № 12 (II kitab), maddə 1257) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.2.13-cü yarımbənddə "Kommunal Xidmətlərin Vahid İnformasiya Sistemi" sözləri "Sistem qismində Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Kommunal Xidmətlər" altsistemi" sözləri ilə əvəz edilsin;

24.2. həmin Qaydanın 1 və 2 nömrəli əlavələrində "Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə" sözləri "Sistem qismində Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Kommunal Xidmətlər" altsisteminə" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 734; 2025, № 10, maddə 993, № 12 (II kitab), maddə 1257; 2026, № 6, maddə 575) ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"da aşağıdakı dəyişiklər edilsin:

25.1. 1.2.29-cu yarımbənddə "Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi" sözləri "sistem qismində Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Kommunal Xidmətlər" altsistemi" sözləri ilə əvəz edilsin;

25.2. 166.5-ci bənddə "Portalda" sözü "İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin;

25.3. 168.2-ci bənddə "Vahid Giriş Sistemi (VGS) vasitəsilə" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi vasitəsilə" sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 7, maddə 705) ilə təsdiq edilmiş "Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları"nın 3.2-ci bəndinin birinci cümləsində "Elektron hökumət" portalında" sözləri "Elektron Hökumət İnformasiya Sistemində" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

“Dövlət büdcəsindən dövlət investisiya proqramları çərçivəsində dövlət müəssisələrinə ayrılan vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərə görə vergitutma məqsədləri üçün amortizasiya hesablanmasına yol verilən investisiya layihələrinə dair meyarlar”ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 358 **Bakı şəhəri, 26 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət büdcəsindən dövlət investisiya proqramları çərçivəsində dövlət müəssisələrinə ayrılan vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərə görə vergitutma məqsədləri üçün amortizasiya hesablanmasına yol verilən investisiya layihələrinə dair meyarlar" təsdiq edilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə
www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Nərimanov Rayon Təşkilatının birgə təşkil etdiyi 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.





Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün biz Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılmış bir tarixi, milli qürurumuzu, qəhrəmanlıq salnaməmizi və gələcək nəsillərə ötürəcəyimiz müqəddəs bir əmanəti yad etmək üçün bir araya gəlmişik: "Azərbaycanın Zəfər tarixi bir xalqın öz taleyinə sahib çıxmasının, milli iradəsinin, birliyinin və sarsılmaz dövlətçilik əzminin tarixidir. Bu tarix illərlə qəlbimizdə yaşatdığımız bir arzunun, Vətən torpaqlarına qayıdışın, ədalətin bərpasının və milli qürurumuzun təntənəsidir. Bu möhtəşəm Zəfər millətimizin yaddaşına yalnız hərbi Qələbə kimi deyil, həm də tarixi ədalətin və milli ləyaqətin bərpası, dövlətimizin qüdrətinin, əsrlər boyu öz milli kimliyini qoruyub saxlayan xalqımızın sarsılmaz iradəsinin təcəssümü və yenilməz ruhunun təntənəsi kimi əbədi həkk olunmuşdur. Lakin biz bu gün Zəfərdən danışarkən onun ən ağır bədəlini də unutmamalıyıq. Hər bir Zəfərin arxasında bir qəhrəmanlıq, hər bir qəhrəmanlığın arxasında isə bir insan taleyi dayanır. Şəhidlərimizin qəhrəmanlığı yalnız döyüş meydanında göstərdikləri igidliklə ölçülmür. Onların hər biri gələcək nəsillərə Vətənə sədaqət, torpağa bağlılıq və milli ləyaqət nümunəsidir".

YAP Sədrinin müavini vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda şəhidlərimizin qanı və qazilərimizin fədakarlığı hesabına ucalan üçrəngli bayrağımız milli istiqlaliyyət rəmzi kimi əzəmətlə dalğalanır, Azərbaycan dövləti və xalqı ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına döyüşmüş mübariz Vətən övladlarının əziz xatirəsini daim uca tutur: "Şəhid ailələrinə və qazilərə göstərilən diqqət dövlətimizin sosial siyasətinin mühüm istiqamətlərindəndir. Bu sahədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər müstəsna əhəmiyyət daşıyır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, qazilərə, müharibədən zərər çəkmiş insanlara və onların övladlarına humanizmə, mərhəmətə və insan amilinə əsaslanan diqqət və qayğısı cəmiyyətimizdə mənəvi həmrəyliyin güclənməsinə xidmət edir. Bu qayğı yalnız maddi dəstəklə məhdudlaşmır: o, insanın dərdinə şərik olmaq, ailənin yanında dayanmaq, gələcəyə ümid vermək deməkdir. Müzəffər Ali Baş Komandanımızın 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna ali ehtiram nümunəsidir. Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik".

Tahir Budaqov bildirib ki, möhtəşəm Zəfərimizin hər bir ildönümü bizi şanlı tariximizə yenidən nəzər salmağa və gələcək nəsillər qarşısında məsuliyyətimizi aydın müəyyənləşdirməyə sövq edir: "Bu Zəfər bir gündə qazanılmadı. Onun təməlində illərlə aparılan dövlət quruculuğu, güclənən iqtisadiyyat, formalaşan müasir ordu, xalqımızın birliyi və ən əsası, Vətən sevgisi dayanırdı. Bu tarixi yolun möhkəm təməli Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti, uzaqgörənliyi və dövlətçilik irsi ilə bağlıdır. Ulu Öndər güclü Azərbaycan dövlətinin qurulmasına, milli ordumuzun formalaşmasına və xalqımızın özünəinamının möhkəmlənməsinə böyük töhfələr verdi. Onun müəyyən etdiyi dövlətçilik strategiyası müasir Azərbaycanın inkişaf yolunda mühüm istiqamət oldu. Dahi şəxsiyyətin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi və böyük Zəfər yolunun əsasını qoydu. 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərmişdir ki, bu da Ümummilli Liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsidir. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı davamlı tərəqqi yoluna çıxarmışdır. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirmişdir. Cənab İlham Əliyevin ata vəsiyyətinə əsaslanan qətiyyətli siyasəti nəticəsində iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran və beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmizin ərazi bütövlüyünün və mütləq suverenliyinin təmin olunması isə xalqımızın milli qürurunun bariz təcəssümü və dövlətçilik tariximizin şanlı səhifəsi olmaqla, vaxtilə "Bütün işğal olunmuş torpaqlar Azərbaycan xalqının iradəsi, qəhrəman oğulların şücaəti ilə azad olunacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsidir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, müasir dövlətçilik tariximizin taleyüklü mərhələsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə yaranmış Yeni Azərbaycan Partiyası ölkəmizin tərəqqisinə və dövlətçiliyimizin möhkəmlənməsinə müstəsna töhfələr vermişdir: "Şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası təşkilati və ideoloji potensialını daha da gücləndirərək ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqeyini daha da möhkəmləndirmiş və Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilmişdir. Bu gün qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürərək siyasi plüralizmi təşviq edən partiyamız avanqard siyasi qüvvə kimi milli maraqların müdafiəsi, xalq-iqtidar birliyinin və ictimai-siyasi sabitliyin qorunması, dövlətçilik ənənələrinin yaşadılması istiqamətində fəaliyyətini müvəffəqiyyətlə davam etdirir".

"YAP-ın VIII Qurultayında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev partiyamızın fəaliyyətinə yüksək qiymət verməklə qarşımızda duran başlıca vəzifələri və gələcəyə yönəlik strateji hədəfləri də dəqiq müəyyən etmişdir. Zəfər bizə yalnız torpaqlarımızın azadlığını deyil, həm də böyük məsuliyyət bəxş edib. İndi qarşımızda işğaldan azad edilmiş ərazilərin bərpası, doğma yurdlarına qayıdan insanların həyatının yenidən qurulması, şəhər və kəndlərimizin dirçəldilməsi, gələcək nəsillər üçün təhlükəsiz və firavan Azərbaycanın yaradılması kimi mühüm vəzifələr dayanır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işləri, Böyük qayıdış prosesi Zəfərimizin yeni mərhələsidir. Torpaqlarımıza qayıdış yalnız evlərə qayıdış deyil; bu, yaddaşımıza, köklərimizə, tarixi irsimizə və gələcəyimizə qayıdışdır. Azərbaycan xalqının gücü onun birliyindədir. Biz çətin günlərdə bir yumruq kimi birləşdik, Vətənimizin taleyi qarşısında məsuliyyətimizi dərk etdik və tarix yazdıq. Bu birlik bundan sonra da dövlətimizin inkişafının, sülhün, sabitliyin və gələcək uğurlarımızın əsas dayağı olmalıdır. Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpası nəticəsində yaranmış yeni reallıqlar fonunda başlıca məqsədimiz bu günədək qazandığımız tarixi nailiyyətləri qorumaqla dövlət müstəqilliyini daha da möhkəmləndirmək və ölkəmizin davamlı inkişafını təmin etməkdir. Bu mühüm vəzifələrin həyata keçirilməsində ümumxalq etimadını doğruldan Yeni Azərbaycan Partiyasının üzərinə böyük məsuliyyət düşür", - deyə Tahir Budaqov əlavə edib.

Müasir dövrdə dövlətin gücünün yalnız iqtisadi göstəricilər, hərbi imkanlar və beynəlxalq nüfuzla ölçülmədiyini söyləyən YAP Sədrinin müavini qeyd edib ki, milli gücün mühüm dayaqlarından biri də xalqın mənəvi dəyərlərə bağlılığı, dövlətçilik təfəkkürü, tarixi yaddaşı və gələcəyə baxışıdır: "Çünki tarixini tanıyan xalq öz kimliyini daha yaxşı dərk edir, keçmişindən güc alır və gələcəyini daha inamla qurur. Biz istəyirik ki, böyüyən nəsil Zəfər tarixini yalnız dərsliklərdəki tarixlər kimi deyil, öz ailəsinin, öz xalqının və öz dövlətinin taleyi kimi qəbul etsin. Bilsin ki, bu gün dalğalanan üçrəngli bayrağımızın arxasında şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, əsgərlərimizin igidliyi, xalqımızın birliyi və dövlətimizin qətiyyəti dayanır. Bu gün qlobal informasiya məkanında sürətli dəyişikliklərin baş verməsi, rəqəmsal texnologiyaların, o cümlədən süni intellektin həyatın müxtəlif sahələrinə təsirinin genişlənməsi, sosial şəbəkələrin ictimai rəyin formalaşmasında rolunun artması dövlət siyasətinin mühüm prioritetlərindən biri olan ideoloji işin yeni reallıqlara və müasir çağırışlara uyğun təkmilləşdirilməsini zəruri edir. Belə bir şəraitdə qabaqcıl kommunikasiya texnologiyalarından istifadə edərək dövlət siyasətinin mahiyyəti və nəticələri barədə ictimaiyyətə dolğun məlumat çatdırmaq, cəmiyyəti maraqlandıran məsələlərə aydınlıq gətirmək, Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya düzgün təqdim etmək və dezinformasiya kampaniyalarına qarşı ardıcıl mübarizə aparmaq olduqca önəmlidir. Bu istiqamətdə sistemli fəaliyyətin mühüm tərkib hissəsi olaraq bütün uğurlarımızın və möhtəşəm Zəfərimizin əsaslarını təşkil edən Heydər Əliyev ideyalarının və azərbaycançılıq ideologiyasının təşviqi, Prezident İlham Əliyevin müasir dövlətçilik strategiyasının təbliği, tarixi yaddaşın qorunması, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və digər istiqamətlərdə işlər fasiləsiz davam etdirilməlidir. Bu xüsusda dövlət qurumları, geniş ictimaiyyət və Yeni Azərbaycan Partiyasının yerli təşkilatları arasında əməkdaşlığın daha da gücləndirilməsi vacibdir. Hər bir partiya fəalı ictimai etimadın gücləndirilməsi və milli birliyin möhkəmləndirilməsi məqsədilə sağlam dialoqa üstünlük verərək və yüksək siyasi mədəniyyət nümayiş etdirərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir".

"Qalib Azərbaycanın sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə hər birinizi təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə!", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Tahir Rzayev, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Vətən müharibəsi iştirakçısı, qazi İlham Əliyev, şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı, 34 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Nəcibə Axundova çıxış edərək bu şanlı Zəfərin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyindən, Azərbaycan Ordusunun gücü və xalqımızın sarsılmaz birliyindən, eləcə də Zəfər Gününün tarixi əhəmiyyətindən, gənc nəslə çatdırılmasının məsuliyyətli və şərəfli iş olduğundan danışıblar.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.

"Azərbaycan"

Milli Məclisdə şəhid övladları olan tələbələrlə görüş

Noyabrın 2-də Milli Məclisin Gənclər və idman komitəsi şəhid övladları olan tələbələrlə görüş keçirib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tələbələri salamlayan komitə sədri Şahin İsmayılov ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin ailələrinə, eləcə də müharibə iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərildiyini vurğulayıb. Bildirilib ki, bu siyasətə uyğun olaraq Milli Məclis də şəhid ailələrinin və qazilərin qayğıları ilə yaxından maraqlanır, onların problemlərinin həllinə dəstək göstərilməsinə xüsusi önəm verir. Şanlı Zəfərin Azərbaycanın dövlətçilik tarixində və milli yaddaşında müstəsna yerindən söz açan Şahin İsmayılov bu tarixi qələbənin qazanılmasında şəhidlərin misilsiz qəhrəmanlığını və fədakarlığını xüsusi qeyd edib.

Görüşdə komitə sədrinin müavini Könül Nurullayeva, komitə üzvləri Vüqar İskəndərov, Asif Əsgərov, Eyvaz Qurbanov, Anar Məmmədov və Ülvi Quliyev çıxış ediblər. Çıxışlarda torpaqlarımızın işğaldan azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda canından keçmiş şəhidlərimizin, eləcə də döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin qəhrəmanlığının və fədakarlığının heç zaman unudulmayacağı vurğulanıb. Bildirilib ki, onların Vətənə sədaqəti, cəsarəti və mübarizə əzmi gənc nəsil üçün əsl örnəkdir.

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova və şəhid övladları olan tələbələr Aybəniz Əzizova, Zəhra Ağazadə, Zəhra Xəlilzadə, Nuray Mahirzadə, Gülay Qasımova, Ramaldan Ramaldanov, Fuad Tağızadə, Nihad Sadıqov və Sevinc Əhmədova çıxış edərək səmimi görüşün təşkilinə görə təşəkkürlərini bildiriblər. Tələbələr şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya, onların övladlarının təhsil və inkişaf imkanlarının dəstəklənməsinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar şəhid olmuş ataları ilə bağlı xatirələrini bölüşüblər, atalarının Vətən uğrunda göstərdikləri fədakarlıqların həyatlarında daşıdığı mənadan söz açıblar. Tələbələr şəhid övladları kimi öz məsuliyyətlərini dərindən dərk etdiklərini, təhsil alaraq və gələcəkdə uğurlu fəaliyyət göstərərək atalarının xatirəsinə layiq olmağa çalışdıqlarını ifadə ediblər.

Söhbətdə deputatlar şəhid övladlarının təhsili, tələbəlik qayğıları ilə maraqlanıblar, gələcək planları ilə bağlı təvsiyələrini bildiriblər, onlara təhsildə qazandıqları nailiyyətlərə görə sertifikatlar təqdim ediblər.

Deputatlar Müşfiq Cəfərovun, Səbinə Xasayevanın, Mircəlil Qasımlının, Göydəniz Qəhrəmanovun və Mahir Süleymanlının iştirak etdiyi tədbir çərçivəsində şəhid övladı olan tələbələr parlamentin inzibati binası ilə tanış olublar.

Heydər Əliyev abidəsi və Xatirə zalını ziyarət zamanı qonaqlara Ümummilli Lider Heydər Əliyevin gələcək nəsillər üçün örnək olan həyat yolu, siyasi və dövlətçilik fəaliyyəti haqqında məlumat verilib. Milli Məclisin foyesində spiker Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış Zəfər guşəsi ilə tanış olan tələbələrə bildirilib ki, guşədə Vətən müharibəsində canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub. Parlamentin plenar iclas zalında tələbələrə Milli Məclisin fəaliyyəti, plenar iclasların təşkili və keçirilməsi, deputatların qanunvericilik fəaliyyəti üçün yaradılmış iş şəraiti barədə məlumat verilib.

Görüşdə tələbələrlə xatirə şəkli çəkilib.

"Azərbaycan"

Yaponiyanın ölkəmizə yeni təyin olunmuş səfiri etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim edib

Noyabrın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yaponiyanın ölkəmizə yeni təyin olunmuş səfiri Furuya Tokuro ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, diplomatik fəaliyyətində uğurlar arzulayıb. Azərbaycan və Yaponiya arasında mövcud əlaqələrin inkişaf etdirilməsi baxımından səfirin fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Tərəflər Azərbaycan-Yaponiya münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivlərini, siyasi dialoqun genişləndirilməsi, iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, yüksək texnologiyalar, idman, humanitar və təhsil sahələrində əməkdaşlığın gücləndirilməsi imkanlarını müzakirə ediblər.

İqtisadi əməkdaşlığın genişləndirilməsi çərçivəsində Yaponiya şirkətlərinin Azərbaycanda mövcud investisiya imkanlarından, o cümlədən Ələt Azad İqtisadi Zonasının təqdim etdiyi əlverişli biznes və logistika potensialından yararlanmasının əhəmiyyəti vurğulanıb.

Azərbaycanın regionlararası nəqliyyat-logistika bağlantılarının gücləndirilməsində artan rolu, ölkəmizin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına verdiyi töhfələr diqqətə çatdırılıb.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, müasir infrastrukturun qurulması, həmin ərazilərin iqtisadi potensialının reallaşdırılması və dayanıqlı inkişafı istiqamətində görülən işlər barədə məlumat verilib. Ərazilərin minalarla geniş şəkildə çirkləndirilməsinin bərpa prosesinə, mülki əhalinin təhlükəsizliyinə və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışına yaratdığı ciddi maneələr diqqətə çatdırılıb.

Görüşdə həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Konstitusiya Məhkəməsinin Plenumunda Azərbaycan Prokurorluğunun sorğusu əsasında qərar qəbul edilib

Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Cinayət-Prosessual Məcəllənin 100.2.1-ci, 100.3-cü və 469.4-cü maddələrinin həmin Məcəllənin 65.7-ci, 142.2-ci maddələri və Mülki Prosessual Məcəlləsinin 33-cü fəslinin bəzi normaları ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Məmmədovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor F.Abbasovanın və həmin kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru L.Məmmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Cinayət-Prosessual Məcəllənin 92.4.8 və 100-cü maddələrinin tələbləri, eləcə də Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla, həmin Məcəllənin 100.2.1-ci maddəsində göstərilən "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxs" müddəası Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş əsaslarla, mülki prosessual qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qəbul edilmiş və qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi əsasında fəaliyyət qabiliyyətinin olmaması təsdiq edilmiş şəxsi nəzərdə tutur və belə qətnamə (şəxsin məhkəmə qaydasında təkrar fəaliyyət qabiliyyətli hesab edildiyi hal istisna olmaqla) cinayət prosesini həyata keçirən orqan tərəfindən zərərçəkmiş şəxsə, mülki iddiaçıya, şübhəli və təqsirləndirilən şəxsə, habelə mülki cavabdehə qanuni nümayəndənin təyin edilməsi üçün əsasdır.

Azərbaycan Respublikası Konstitusiyasının 26, 60 və 68-ci maddələrinin, hüquqi müəyyənlik və qanunçuluq prinsiplərinin tələbləri və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla:

- Cinayət-Prosessual Məcəllənin 100.3-cü maddəsində nəzərdə tutulan zərərçəkmiş şəxsin, mülki iddiaçının, şübhəli və ya təqsirləndirilən şəxsin və mülki cavabdehin məhkəmə qaydasında cinayət-prosessual fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilməsinin və cinayət-prosessual fəaliyyət qabiliyyətinin bərpasının prosessual qaydalarının qanunvericiliklə müəyyənləşdirilməsi;

- fəaliyyət qabiliyyəti olmayan hesab edilməsinə əsas verməyən sağlamlıq vəziyyətilə bağlı pozuntulara görə cinayət-prosessual hüquqlarını və vəzifələrini müstəqil həyata keçirə bilməyən zərərçəkmiş şəxslərin cinayət prosesində səmərəli iştirakını təmin edən müvafiq dəstək mexanizmlərinin cinayət-prosessual qanunvericiliyində müəyyənləşdirilməsi Milli Məclisə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Ümummilli Liderin zəngin irsini əks etdirən çoxcildliyin növbəti kitabı işıq üzü görüb

Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsini, dövlətçilik fəaliyyətini və tarixi çıxışlarını əks etdirən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 14-cü kitabı yenidən nəşr olunub.



AZƏRTAC xəbər verir ki, nəşrdə Ümummilli Liderin 1996-cı il iyulun 13-dən oktyabrın 3-dək müxtəlif ölkələrə səfərləri, keçirdiyi görüşlər, çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və digər mühüm materiallar toplanıb. Kitabda Heydər Əliyevin Azərbaycana rəsmi səfər etmiş Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşləri, Rusiya Federasiyasına səfəri zamanı bu ölkənin müdafiə və xarici işlər nazirləri ilə danışıqları, eləcə də böyük Azərbaycan şairləri Məhəmməd Füzulinin və Əliağa Vahidin yubiley tədbirlərindəki çıxışları yer alıb. Nəşrdə xüsusi diqqətçəkən materiallardan biri 1996-cı il iyulun 13-də Avropa Şurasının yüksəksəviyyəli nümayəndə heyəti ilə görüşdən sonra keçirilən mətbuat konfransında Heydər Əliyevin çıxışıdır. Ümummilli Lider Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olmaq niyyətini ifadə edərək, bu istiqamətdə əməli addımların atılacağını vurğulayıb.

Çoxcildliyin bu nəşrində, həmçinin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, bazar iqtisadiyyatına keçid dövrünün çətinliklərinin aradan qaldırılması, kənd təsərrüfatının inkişafı, ölkənin daxili və xarici siyasətinin əsas istiqamətləri, eləcə də Ermənistanın təcavüzünün ağır nəticələri ilə bağlı materiallar əksini tapıb.

Qeyd edək ki, çoxcildlik Heydər Əliyevin siyasi fəaliyyətini, müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi istiqamətində gördüyü işləri əks etdirən mühüm tarixi mənbələrdən biridir. Nəşrdə yer alan tarixi sənədlər həmin dövrdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi, dövlət müstəqilliyinin qorunması və ölkənin qarşılaşdığı siyasi, iqtisadi və hərbi çağırışların aradan qaldırılması istiqamətində həyata keçirilən siyasətə aydınlıq gətirir. Kitab oxuculara Ümummilli Liderin dövlətçilik strategiyası, diplomatik fəaliyyəti və müstəqil Azərbaycanın gələcək inkişafına dair baxışları ilə tanış olmaq imkanı yaradır.

Bütün bu dəyərli fikirlərlə çoxcildliyin 14-cü kitabında tanış olmaq mümkündür. Kitabda yer alan materiallar həmin dövrün hadisələri haqqında geniş təsəvvür yaradır.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Ələvsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

Əməkdaşlıq perspektivləri müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov "CSCEC International" şirkətinin İdarə Heyətinin sədri Qao Bo ilə görüşüb.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanda infrastruktur, şəhərsalma, energetika, sənaye və digər sahələrdə əməkdaşlıq perspektivləri müzakirə edilib. Azərbaycan-Çin Sənaye Parkının yaradılması və bu istiqamətdə şirkətlə potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Tərəflər birgə investisiyaların cəlbi, irimiqyaslı infrastruktur və sənaye layihələrinin həyata keçirilməsində "CSCEC International" şirkətinin təcrübəsindən yararlanmaq barədə fikir mübadiləsi aparıblar.

"CSCEC International" bina və infrastruktur layihələrini həyata keçirən beynəlxalq şirkətdir. Şirkət daşınmaz əmlak, investisiya, layihələndirmə və mühəndislik sahələrində fəaliyyət göstərir.

2027-ci il dövlət büdcəsinin layihəsinə Hesablama Palatasının rəyi müzakirə edilib

Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə növbəti kollegiya iclası keçirilib.



Palatadan AZƏRTAC-a bildirilib ki, iclasda ilk olaraq Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsinin layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi müzakirə edilib.

Müzakirə zamanı qeyd olunub ki, rəy dövlət büdcəsi haqqında qanun layihəsinin və onunla birlikdə təqdim edilmiş aidiyyəti sənədlərin qüvvədə olan qanunvericilik aktlarına uyğunluğunun, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərclərinin, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyünün və tamlığının qiymətləndirilməsini əhatə edir. Kollegiya iclasında rəydə təqdim olunan əsas nəticələr və tövsiyələr ətraflı müzakirə edilib, müvafiq məsələlər üzrə fikir mübadiləsi aparılıb. Yekunda rəyin təsdiq olunaraq Azərbaycan Respublikası Milli Məclisinə təqdim edilməsi barədə qərar qəbul edilib.

Daha sonra iclasda Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il üçün büdcə layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi müzakirə olunub.

Həmin rəy üzrə aparılmış təhlillərin nəticələri və irəli sürülmüş tövsiyələr kollegiya üzvlərinin müzakirəsinə çıxarılıb. Yekunda rəyin təsdiq edilməsi və Milli Məclisə göndərilməsi ilə bağlı qərar verilib.

Azərbaycan Prokurorluğunun veteranları təltif ediliblər

2 noyabr 2026-cı il tarixdə uzun illər prokurorluq orqanlarında qulluq etmiş veteran əməkdaşlar - Məmmədov Çingiz Yavər oğlunun 75, Seyidov Əziz Cəfər oğlunun isə 70 illik yubileylərinin tamam olması münasibətilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun inzibati binasında tədbir keçirilib.



Baş prokuror çıxışında veteranları əlamətdar yubileyləri münasibətilə təbrik edərək onların uzunillik və səmərəli xidmətlərinin prokurorluq orqanlarının formalaşması və inkişafında, qanunçuluğun möhkəmləndirilməsində, dövlət və cəmiyyət qarşısında duran vəzifələrin layiqincə yerinə yetirilməsində mühüm rol oynadığını vurğulayıb. O, prokurorluq əməkdaşlarının peşəkarlıq, prinsipiallıq və yüksək məsuliyyət nümayiş etdirərək üzərlərinə düşən vəzifələri vicdanla yerinə yetirmələrinin gənc əməkdaşlar üçün də mühüm örnək olduğunu iştirakçıların diqqətinə çatdırıb.

Sonra baş prokuror tərəfindən yubilyarlara "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalları təqdim edilib.

Veteran prokurorluq işçiləri çıxışlarında uzun illər ərzində prokurorluq orqanlarında fəaliyyət göstərməyin onlar üçün böyük şərəf və qürur mənbəyi olduğunu bildiriblər. Onlar prokurorluq sistemində son dövrlərdə həyata keçirilən genişmiqyaslı islahatları, istintaq fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan addımları, ağır və mürəkkəb cinayət işlərinin araşdırılmasında əldə olunan müsbət nəticələri, habelə Azərbaycan Prokurorluğunun beynəlxalq nüfuzunun yüksəldilməsi və beynəlxalq əməkdaşlığın inkişafı sahəsində görülən işləri məmnunluqla qeyd ediblər. Veteranlar həmçinin qurumun rəhbərliyi tərəfindən keçmiş əməkdaşlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, yubiley medalları ilə təltif olunmalarına görə dərin minnətdarlıqlarını ifadə ediblər.

Görüş zamanı iştirakçılar prokurorluq orqanlarında xidmət dövrünə dair xatirələrini bölüşüb, fikir mübadiləsi aparıb və sonda xatirə şəkli çəkdiriblər.

"Azərbaycan"

Dövlət Komitəsinin sədri Şərurda vətəndaşların müraciətlərini dinləyib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov noyabrın 2-də Şərur rayonunda vətəndaşların müraciətlərini dinləyib.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Görüşdə Naxçıvan Muxtar Respublikasının Şərur, Babək, Sədərək və Kəngərli rayonlarından vətəndaşlar məscid təmiri, maarifləndirmə işinin genişləndirilməsi, dini təhsil, eləcə də digər məsələlərlə bağlı müraciət ediblər. Vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

MMU ilə ABŞ-nin hərbi təhsil müəssisələri arasında əməkdaşlıq genişləndirilir



Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülovun rəhbərlik etdiyi nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfər edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində nümayəndə heyəti ABŞ Milli Müdafiə Universitetində və Yaxın Şərq - Cənubi Asiya Strateji Araşdırmalar Mərkəzində olub.

Keçirilən görüşlərdə hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, peşəkar hərbi təhsilin müasir çağırışlara uyğunlaşdırılması, strateji liderlik və müdafiə sahəsində insan kapitalının inkişafı məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

General-mayor G.Əbdülov MMU-da həyata keçirilən islahatlar, o cümlədən səriştəəsaslı təhsil modelinin tətbiqi, müasir zabit hazırlığı sisteminin təkmilləşdirilməsi, xidmətboyu təhsil konsepsiyası və hərbi təhsilin beynəlxalq təcrübə əsasında inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Görüşlər zamanı tərəflər birgə akademik təşəbbüsləri, o cümlədən professor-müəllim heyətinin peşəkar inkişafı və mübadiləsi məsələlərini nəzərdən keçiriblər.

Həmçinin akademik kursların kurikulumlarının təhlili və peşəkar çavuş sisteminin inkişaf etdirilməsi diqqət mərkəzində olub.

Görüşdə süni intellekt vasitəsilə hərb oyunlarının hazırlanması və digər maraq doğuran məsələlər üzrə qarşılıqlı əməkdaşlıq imkanları geniş müzakirə edilib.

Yekunda nəzərdə tutulan fəaliyyətlərin icrası barədə razılıq əldə olunub.

Qeyd edək ki, bu cür görüşlər peşəkar hərbi təhsil sahəsində beynəlxalq tərəfdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübələrin öyrənilməsi baxımından yüksək əhəmiyyət daşıyır.

Norveçdə Zəfər Günü və NAYO-nun 20 illik yubileyinə həsr olunmuş tədbirlər təşkil edilib

Norveçin Stavanger və Oslo şəhərlərində 8 Noyabr - Zəfər Gününə və Norveç Azərbaycanlıları Gənclər Təşkilatının (NAYO) yaranmasının 20 illik yubileyinə həsr olunmuş təntənəli konsert proqramları təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən tədbirlərdə müxtəlif siyasi partiyaların nümayəndələri, türk və çeçen icmalarının üzvləri, eləcə də Fransa, İsveçrə və Latviyadan gələn Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Tədbirlərdə Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri Samir Bayramov çıxış edib. O, Zəfər Gününün Azərbaycan xalqının tarixində xüsusi yer tutduğunu və bu əlamətdar günün xaricdə qeyd edilməsinin milli yaddaşın qorunmasına xidmət etdiyini bildirib. S.Bayramov, həmçinin NAYO-nun ötən 20 il ərzində Norveçdə Azərbaycan diasporunun formalaşması və inkişafı istiqamətində gördüyü işlərin əhəmiyyətini vurğulayıb.

"Bu cür tədbirlər xaricdə yaşayan soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, Azərbaycan mədəniyyətinin təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda yetişməsi baxımından mühüm rol oynayır", - deyə S.Bayramov qeyd edib.

Daha sonra Oslo Azərbaycan Evinin sədri Ramil Əliyev çıxış edərək Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib və Qələbəni xalqımıza bəxş edən şəhidlərin xatirəsini ehtiramla anıb.

"Zəfər Günü Azərbaycan xalqının birliyinin, qəhrəmanlığının və tarixi ədalətin təntənəsidir. Bu əlamətdar günün xarici ölkələrdə qeyd edilməsi Vətənə bağlılığın, milli yaddaşın və həmrəyliyin qorunması baxımından mühüm əhəmiyyət daşıyır", - deyə R.Əliyev bildirib.

NAYO-nun 20 illik yubileyindən söz açan R.Əliyev qeyd edib ki, ötən 20 il ərzində təşkilat azərbaycanlı gənclərin bir araya gəlməsi, ana dilinin, milli-mənəvi dəyərlərin və mədəni irsin qorunması, eləcə də Azərbaycanın Norveçdə tanıdılması istiqamətində mühüm fəaliyyət göstərib.

Oslo şəhərinin meri Anne Lindboe tədbir iştirakçılarına videomüraciət ünvanlayaraq NAYO-nun 20 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Konsert proqramlarında Azərbaycanın "Avroviziya 2024" mahnı müsabiqəsindəki təmsilçisi İlkin Dövlətov, V "Muğam" televiziya müsabiqəsinin qalibi, xanəndə Nisbat Sədrayeva, Əməkdar mədəniyyət işçisi, tarzən Elçin Abbasov, Əməkdar artist, kamança ifaçısı Xəyyam Məmmədov, nağara ifaçısı Cəfər Həsənov, etnocaz ifaçısı Tural Raphael və "Ritm" rəqs qrupu çıxış ediblər.

İfaçıların təqdim etdikləri muğam, xalq və müasir musiqi nümunələri, milli musiqi alətlərimizin özünəməxsus səslənişi və rəqs nömrələri tədbirlərə xüsusi bayram ovqatı bəxş edib.

Daşkənddə 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib

Özbəkistanın paytaxtı Daşkənd şəhərində 8 Noyabr - Zəfər Günü münasibətilə rəsmi qəbul təşkil olunub.



Bu barədə AZƏRTAC-a Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən məlumat verilib.

Bildirilib ki, Azərbaycanın Özbəkistandakı səfirliyinin və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, diplomatik korpusun üzvləri, beynəlxalq təşkilatların təmsilçiləri, elm, mədəniyyət və incəsənət xadimləri, diaspor üzvləri, eləcə də yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Özbəkistandakı səfiri Rəşad Məmmədov 8 Noyabr - Zəfər Gününün Azərbaycan xalqının tarixindəki müstəsna əhəmiyyətindən bəhs edib. Səfir bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının birlik, əzm və qətiyyətinin təntənəsinə çevrilib. Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq, şücaət və fədakarlıq nəticəsində uzun illər işğal altında qalmış torpaqlarımız azad edilib, 2020-ci il noyabrın 8-də Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı, qədim Şuşa şəhərinin azad olunması ilə tarixi Zəfər qazanılıb.

Diplomat vurğulayıb ki, 8 Noyabr Zəfəri Azərbaycan xalqının milli yaddaşına əbədi həkk olunub, ölkəmizin müasir dövlətçilik tarixində yeni mərhələnin əsasını qoyub. Tədbir konsert proqramı ilə davam edib.

Pakistanlı influenserlər Azərbaycanın turizm imkanları ilə tanış olublar

Azərbaycanın mədəni irsini, tarixini və turizm imkanlarını tanıtmaq məqsədilə Pakistanın 10 influenserinin iştirakı ilə ölkəmizə infotur təşkil olunub.



Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, Bakı, Gəncə, Şuşa və Xankəndini əhatə edən səfər çərçivəsində iştirakçılara Azərbaycanın müxtəlif turizm istiqamətləri və onların xüsusiyyətləri barədə məlumat verilib.

Proqram çərçivəsində influenserlər Bakının müasir şəhər mühiti, eləcə də Gəncənin tarixi və mədəni irsi ilə tanış olublar. İştirakçılara şəhərlərin memarlıq nümunələri, milli-mədəni dəyərləri və turizm imkanları barədə məlumat təqdim edilib.

"Böyük Qayıdışa dair Dövlət Proqramı" çərçivəsində təşkil olunan səfər zamanı iştirakçılar Qarabağ və Şərqi Zəngəzurun tarixi və mədəni əhəmiyyəti, eləcə də ərazidə aparılan bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıblar. Həmçinin bölgədə formalaşan turizm infrastrukturu və ziyarətçilər üçün yaradılan imkanlar diqqətə çatdırılıb.

İnfoturun məqsədi Pakistan auditoriyasında Azərbaycanın turizm imkanları barədə məlumatlılığı artırmaq, paytaxtla yanaşı, digər şəhər və bölgələrə marağı təşviq etməkdir. Səfər iştirakçılarının təəssüratlarını öz rəqəmsal platformalarında paylaşması vasitəsilə ölkəmizin turizm istiqamətlərinin daha geniş auditoriyaya tanıdılması nəzərdə tutulur.



Türk dünyasının birliyi və gücü artır

İlham Əliyevin bu prosesdə yeni ideyaları və siyasi təşəbbüsləri TDT-yə üzv dövlətlərin başçıları tərəfindən yüksək dəyərləndirilir

Bu gün Mərkəzi Asiyadan Qafqaza, oradan Avropaya qədər uzanan nəhəng coğrafiyada tarixi dönüş yaşanır. Uzun illər ideoloji arzu kimi baxılan türk birliyi Türk Dövlətləri Təşkilatının (TDT) timsalında artıq qlobal proseslərin gedişatına təsir edən real güc mərkəzinə çevrilib.

Azərbaycan bu prosesdə həm yeni ideyalar və siyasi təşəbbüslərlə çıxış edir, həm də ortaq layihələrin praktiki olaraq həyata keçirilməsində fəal rol oynayır. Rəsmi Bakının yürütdüyü məqsədyönlü siyasət təşkilata üzv ölkələr arasında əməkdaşlığın konkret iqtisadi, siyasi və təhlükəsizlik addımları ilə möhkəmlənməsini təmin edir.

Azərbaycanın TDT çərçivəsindəki təşəbbüskarlığı və birgə layihələrin həyata keçirilməsindəki fəallığı təşkilata üzv ölkələrin dövlət başçıları tərəfindən də yüksək dəyərləndirilir.

Münasibətlərin inkişafına töhfə

Liderlərin çıxışlarında rəsmi Bakının yalnız öz milli maraqlarını deyil, ümumilikdə türk dünyasının strateji həmrəyliyini ön plana çəkdiyi xüsusi vurğulanır.

Ankarada keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 13-cü Zirvə Görüşündə səslənən fikirlər bu əməkdaşlığın real miqyasını və qarşılıqlı etimadın səviyyəsini aydın göstərir. Sözügedən Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev TDT çərçivəsində münasibətlərin inkişafına verdiyi töhfəyə və türk xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycanın TDT sədrliyi dövrünü yüksək qiymətləndirib. Bildirib ki, rəsmi Bakının sədrliyi dövründə təşkilat daxilində əməkdaşlığın inkişafına və birgə təşəbbüslərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verilib.

Nümunə gətirdiyimiz bu yanaşmalar bir daha təsdiq edir ki, Azərbaycanın TDT daxilindəki fəaliyyəti təşkilatın institusional güclənməsinə və üzv dövlətlər arasında inteqrasiya proseslərinin sürətlənməsinə xidmət edir.

Bu gün Türk Dövlətləri Təşkilatının keçdiyi inkişaf yolu göstərir ki, platforma ilk gündən regional əməkdaşlığı mərhələli şəkildə dərinləşdirmək və beynəlxalq müstəvidə vahid mövqedən çıxış etmək məqsədi daşıyıb. Azərbaycanın bu müddətdə nümayiş etdirdiyi ardıcıl siyasi iradə və ikitərəfli müttəfiqlik münasibətləri qurumun təsir imkanlarını keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

2009-cu ildə imzalanan tarixi Naxçıvan Sazişi türk dünyasının birliyinin institusional qaydada təsdiqi oldu. Naxçıvan Sazişində təşkilatın yaradılmasında əsas məqsədlər kimi tərəflər arasında qarşılıqlı etimad, dostluq və münasibətlərin möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi nəzərdə tutulub. Həmçinin siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi və sair yer alıb.

Prezident İlham Əliyevin müəllifliyi və təşəbbüsü ilə keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) təsis edildi.

Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın təsisçiliyi ilə başlayan bu təşkilatlanma prosesi qısa müddətdə böyük miqyas aldı. 2019-cu ildə keçirilən Bakı Zirvəsində Özbəkistanın təşkilata tamhüquqlu üzv kimi qoşulması platformanın Mərkəzi Asiyadakı geo-iqtisadi çəkisini ciddi şəkildə artırdı.

Eyni zamanda Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) müşahidəçi statusu qazanması qurumun əhatə dairəsini Avropadan Asiyaya qədər genişləndirdi. 2021-ci il İstanbul Zirvəsində isə qurumun Türk Dövlətləri Təşkilatı (TDT) adlandırılması onun beynəlxalq təşkilat kimi mövqeyini təsbit etdi.

Etnosiyasi coğrafiyanın bərpası

2020-ci ildə Azərbaycanın qazandığı tarixi qələbə regionun geosiyasi mənzərəsini köklü şəkildə dəyişdi. Bu Zəfər təkcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də türk dünyası ölkələri arasında coğrafi və etnosiyasi bağların yenidən möhkəmlənməsinə şərait yaratdı. Xüsusilə Zəngəzur dəhlizi (TRIPP) kimi strateji nəqliyyat və logistika layihələri türk dünyasının iqtisadi tərəqqisi mənasında mühüm əhəmiyyətə malik oldu.

2024-cü il iyulun 6-da Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsi TDT-nin siyasi inteqrasiya səviyyəsini göstərən mühüm sənəd oldu. Bəyannamə ilə üzv dövlətlər "Qarabağ Azərbaycandır!" həqiqətini beynəlxalq ictimaiyyətə bir daha bəyan etməklə yanaşı, regional sülh, təhlükəsizlik və ortaq iqtisadi maraqlar ətrafında vahid mövqedən çıxış etdiklərini hüquqi və siyasi müstəvidə təsbit etdilər.

"Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir", - deyə TDT-nin dövlət başçılarının Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı Prezident İlham Əliyev vurğulamışdı. Dövlətimizin rəhbəri qeyd etmişdi ki, Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərib.

Azərbaycanın Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanla imzaladığı müttəfiqlik bəyannamələri, o cümlədən Qazaxıstan, Özbəkistan və Qırğızıstanla yaradılan birgə investisiya fondları həm də TDT çərçivəsində iqtisadi inteqrasiyanı daha da dərinləşdirir.

Naxçıvandan başlayan tarixi yol göstərir ki, Türk Dövlətləri Təşkilatı artıq regional çərçivələri aşaraq Avrasiyanın geosiyasi və geoiqtisadi mənzərəsini müəyyənləşdirən əsas güc mərkəzlərindən birinə çevrilib. Region liderlərinin də açıq şəkildə bildirdiyi kimi, rəsmi Bakının nümayiş etdirdiyi ardıcıl siyasi iradə və təşəbbüskarlıq bu birliyin institusional bünövrəsini daha da möhkəmləndirir.

Göründüyü kimi, Azərbaycanın strateji liderliyi, uzaqgörən diplomatiyası və qardaşlıq münasibətlərinə verdiyi müstəsna töhfələr türk dünyası birliyinin həm regional sülhün və sabitliyin təminatçısı olmasında, həm də dünya siyasətində mühüm yer tutmasında vacib rol oynayır.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Makron vətəndaşların sosial tələblərinə qarşı xüsusi təyinatlıları çıxarır

Fransada etirazlar artıq neçənci həftədir ki, səngimir. Oktyabrın 31-də Paris ardıcıl üçüncü kütləvi etiraz şənbəsini yaşadı. Fransa Daxili İşlər Nazirliyinin məlumatına görə, təkcə həmin gün 565 nəfər saxlanılıb. Küçələrə on minlərlə polis və jandarm çıxarılıb, onların arasında terrorla mübarizə üçün yaradılmış xüsusi bölmələr də var. Bu aksiya sentyabrda təmirsiz məktəb binaları və müəllim çatışmazlığına qarşı etirazlarla başlamışdı. Bu fakt özü çox şey deyir.



Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA qəzetimizə açıqlamasında dedi ki, məktəblilərin qaldırdığı sosial tələblərə dövlətin cavabı xüsusi təyinatlılar, gözyaşardıcı qaz və kütləvi həbslər olursa, deməli, siyasi imkanlar tükənib. "Əlbəttə, heç bir dövlət talançılığa və zorakılığa göz yuma bilməz. Amma etirazçıların böyük əksəriyyəti dinc insanlardır, tələbələr, müəllimlər, həmkarlar ittifaqlarının üzvlərindən ibarətdir. Onların sualı sadədir: dövlət niyə daha çox tələb edir, amma getdikcə daha az verir? Təhsil dövlət idarəçiliyinin ən dəqiq göstəricisidir. İqtisadi problemləri illərlə gizlətmək, borcları gələcək nəsillərin üzərinə yükləmək, hər şeyi xarici səbəblərlə izah etmək olar, amma sinifdə damı axan tavanı və lövhənin qarşısında olmayan müəllimi gizlətmək mümkün deyil. Fransa uzun illər məktəbi "sosial lift" kimi təqdim edib, kasıb məhəllədən olan uşaqlara da yuxarı qalxmaq imkanı vəd edib. Bu gün həmin lift dayanıb. Dayanan isə təkcə təhsil siyasəti deyil, dövlətlə cəmiyyət arasında olan, amma yerinə yetirilməyən vəddir. Fransa hakimiyyətinin bu suala cavabı yoxdur. Bunun əvəzinə üç məlum bəhanə var. Birincisi, günahkar axtarışıdır: məsuliyyət müxalifətdəki ifrat solçu "Boyun əyməyən Fransa" partiyasının üzərinə qoyulur. Amma heç bir müxalifət partiyası insanların real razılığı olmadan həftələrlə yüz minlərlə adamı küçəyə çıxara bilməz. İkincisi, xarici səbəblərdir. Prezident Makron etirazları İran ətrafındakı müharibə və yanacaq qiymətlərinin artması ilə izah edir. Lakin fransız məktəblərində illərdir müəllim çatışmırsa, bunda Hörmüz boğazının nə günahı var? Üçüncüsü isə güc və məhduddiyyətlərdir: yürüşlər şəhər mərkəzlərindən uzaqlaşdırılır, fransız hüquqşünaslarının özlərinin toplaşmaq azadlığına təhlükə saydığı yeni qanun layihəsi müzakirə olunur", - deyə o əlavə etdi.

Deputat hesab edir ki, bu, təsadüfi böhran deyil, sistemli idarəçilik problemidir. Makronun prezidentliyi dövründə Fransa bir-birinin ardınca sosial partlayışlar yaşayıb. 2018-ci ildə "sarı jiletlilər", 2023-cü ildə parlamentdə səsvermə olmadan keçirilən pensiya islahatına qarşı etirazlar, 2025-ci ilin payızında "Hər şeyi blokadaya alaq" hərəkatı. Hər dəfə də ssenari eynidir: hakimiyyət əvvəlcə eşitmir, sonra güc tətbiq edir, sonra kiçik güzəştlərə gedir. Bir-iki ildən sonra isə hər şey yenidən, daha kəskin formada başlayır. 2024-cü ildə parlamentin vaxtından əvvəl buraxılması da ölkəyə sabitlik gətirmədi: sabit çoxluq yoxdur, hökumətlər bir-birini əvəz edir, uzunmüddətli islahatlar isə təxirə salınır.

Sevinc Fətəliyeva qeyd etdi ki, bu fonda Fransanın beynəlxalq arenada demokratiya və insan hüquqları müəllimi rolunda çıxış etməsi xüsusilə təəccüblü görünür: "Paris illərdir başqa ölkələrə, o cümlədən Cənubi Qafqaza dair məsələlərdə "nəsihətlər" verir, Avropa parlament platformalarında faktlara deyil, siyasi konyunkturaya əsaslanan qətnamələrin təşəbbüskarı olur. Halbuki öz küçələrində məktəblilərin etirazına antiterror bölmələri ilə cavab verir. Elə isə dinc toplaşmaq hüququnu yeni qanunlarla məhdudlaşdırmağa çalışan bir dövlətin başqalarına dərs deməyə mənəvi haqqı varmı? Əlbəttə ki, yox. Biz fransız xalqına sabitlik və rifah arzulayırıq. Amma beynəlxalq münasibətlərdə ədalət eyni standartların hamıya tətbiq olunmasını tələb edir. İkili standartlar təkcə Fransanın xarici siyasətdəki nüfuzuna zərbə vurmur, ölkə daxilində də inamı sarsıdır".


"Fransa vətəndaşları görürlər ki, hökumətləri başqa ölkələrdə problem axtarmağa daha çox enerji sərf edir, nəinki öz məktəblərini təmir etməyə" deyən deputat diqqətə çatdırıb ki, noyabrın 5-də Fransanın ən böyük həmkarlar ittifaqları ümummilli tətil keçirəcək və etiraz küçələrdən iş yerlərinə keçəcək. Bu, Yelisey sarayı üçün ciddi sınaq olacaq. Fransa hakimiyyəti, nəhayət, anlamalıdır ki, demokratiya başqalarına ixrac edilən bir şüar deyil. Demokratiya ilk növbədə öz vətəndaşını, xüsusilə də gəncləri eşitmək və onların tələblərini konkret qərarlara çevirmək bacarığıdır. Uzun müddət səsi eşidilməyən cəmiyyət bir müddətdən sonra daha ucadan danışmağa başlayır. Bu gün Fransa küçələrində eşidilən məhz həmin səsdir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Bakı İrəvandan əməli addımlar və konkret nəticələr gözləyir

Yekun sülh sazişinin imzalanması Ermənistan konstitusiyasında dəyişiklikdən və Azərbaycana qarşı ərazi iddialarının tam ləğvindən asılıdır

Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və dayanıqlı sülh sazişinin imzalanması istiqamətində bir sıra addımlar atılır, təşəbbüslər göstərilir. Ancaq hər iki prosesə baxışı anlamaq baxımından Bakı və İrəvandan səslənən bəyanatlara, verilən açıqlamalara diqqət yetirmək labüddür.



Bir neçə gün əvvəl sülhü "uzaqlarda" axtaran baş nazir Nikol Paşinyan Azərbaycanla sülhün alternativinin olmadığını və onun institusional səviyyədə möhkəmlənməsinin vacibliyini bildirib. O, hökumət başçısı kimi əsas prioritetinin dönməz və uzunmüddətli sülhün təmin edilməsi olduğunu deyərək, Azərbaycanla sülh sazişinin imzalanmasının və ratifikasiya olunmasının zərurətindən danışıb.

Dünyada baş verən mürəkkəb proseslər fonunda uzunmüddətli sülhün təmin olunmasının əhəmiyyətini diqqətə çatdıran baş nazir bu dövrdə barışa nail ola bildiklərini söyləyib: "Lakin vəzifəmiz ikiillik sülhü 20 ilə, bir ili 200 ilə, 200 ili isə 400 ilə və daha uzun müddətə çevirməkdir". Əlbəttə, bəyan edilən uzunmüddətli sülh hədəflərinin nə dərəcədə inandırıcı olması yalnız ritorikadan deyil, Ermənistanın praktiki müstəvidə atacağı addımlardan asılıdır. Bəyanatların real addımlarla möhkəmləndirilməsi əsas şərt olaraq qalır. Azərbaycan tərəfi hər zaman olduğu kimi, konstruktiv mövqe nümayiş etdirərək sülh prosesinə hazır olduğunu bəyan etməklə yanaşı, qarşı tərəfdən real nəticələrin və praktiki addımların atılmasını gözləyir.

Paşinyan etiraf edib ki, həm Ermənistan daxilində, həm də ölkədən kənarda sülh gündəliyindən uzaqlaşmağa və hər gün başqa istiqamətə yönəlməyə səbəb ola biləcək onlarca amil mövcuddur. Məhz bu səbəbdən o, bütün çətinliklərə baxmayaraq, yekun sülh sazişi imzalanana qədər prosesin davam etdirilməli olduğunu dilə gətirib: "Amma biz buna baxmadan yekun sülh sazişi imzalanana qədər davam etməliyik". Paşinyan prosesi yayındıra biləcək ciddi maneələrin mövcudluğunu etiraf etsə də, yekun saziş imzalanana qədər danışıqlar xəttini davam etdirməyə məcbur olduğunu vurğulayır. Əslində, bu bəyanat sülhün əldə olunmasının təkcə siyasi bəyanatlardan deyil, xarici və daxili risklərin nə dərəcədə neytrallaşdırılmasından asılı olacağını da nümayiş etdirir.

İrəvanın səsləndirdiyi bəyanatların praktik müstəvidə reallaşması yolunda ciddi daxili maneələr və ziddiyyətlər qalmaqdadır. Xüsusilə Ermənistanda konstitusiya dəyişikliyi məsələsi və ölkə daxilində revanşist qüvvələrin fəaliyyəti sülh prosesini ləngidən əsas amillərdəndir. Baş nazir Nikol Paşinyan əvvəlcədən konstitusiya dəyişikliyinin növbədənkənar seçkilərə qədər gedib çıxmayacağını desə də, yeni konstitusiyanın qəbul edilməsinin onların seçki proqramında yer aldığını və təxminən 700 min vətəndaşın bu proqramın lehinə səs verdiyini vurğulayıb. Xatırladaq ki, Paşinyan əvvəlki açıqlamalarında parlamentdə konstitusion çoxluğu təmin etmək və yeni konstitusiyanın qəbuluna nail olmaq məqsədilə erkən parlament seçkilərinin keçirilməsini istisna etməmişdi.

Rəsmi Bakı isə İrəvandan gələn bəyanatları yaxından izləyir və sülh sazişinin imzalanması üçün beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan açıq mövqeyini dəyişməz saxlayır. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da məsələ ilə bağlı açıqlamasında bildirib ki, Bakının mövqeyi çox açıq və sadədir: "Azərbaycan dövləti öz xoş niyyətini göstərib. Vaşinqton sammiti zamanı paraflanmış sülh sazişinin mətni açıq sənəddir. Saziş beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır". Nazir qeyd edib ki, Azərbaycan son bir il ərzində sülh prosesinin real nəticələrini və üstünlüklərini göstərmək üçün bir sıra birtərəfli addımlar atıb və Ermənistan daxilində gedən siyasi prosesləri, o cümlədən yeni konstitusiyanın qəbulu məsələsini diqqətlə izləyir. XİN başçısı vurğulayıb ki, müvafiq nəticə əldə olunacağı təqdirdə Azərbaycan tərəfi prosesi yekunlaşdırmağa tam hazırdır.

Ermənistan rəhbərliyinin ara-sıra müsbət ritorika ilə çıxış etməsi, bəzən də ziddiyyətli bəyanatlar səsləndirməsi heç nəyi dəyişmir. Sülhün yalnız kağız üzərində deyil, real hüquqi və siyasi addımlarla təsdiqlənməsi vacibdir. Bakının haqlı gözləntisi odur ki, İrəvan quru bəyanatları və daxili siyasi bəhanələri kənara qoyaraq, Azərbaycana qarşı ərazi iddialarından tam imtina etməli, konstitusiya və qanunvericilik səviyyəsində lazımi dəyişiklikləri yubanmadan həyata keçirməlidir. Yalnız bundan sonra tərəflər yekun sülhə imza atacaq və Cənubi Qafqazda əsl sabitlik və etibarlı sülh mühitinin bərqərar olması mümkünləşəcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Heydər Əliyev siyasətinə sadiqlik Azərbaycanı qalib və yenilməz dövlətə çevirdi

23 il əvvəl İlham Əliyevin Prezident seçilməsi müasir Azərbaycan tarixinin ən əlamətdar, mühüm hadisələrindən biri oldu. Bu seçimlə Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunun davamına səs verdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha təsdiqlədi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. 31 oktyabr 2003-cü ildə ilk andiçmə mərasimində çıxış edən Prezident İlham Əliyev də Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini qətiyyətlə davam etdirəcəyini bəyan etdi.



Milli Məclisin deputatı Pərvin KƏRİMZADƏ qəzetimizə açıqlamasında dedi ki, mövcud tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir: "Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Lider həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhvali-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Məhz bu keyfiyyətlərin sayəsində ölkəmizdə siyasi sabitlik təmin olunub və gələcək inkişaf üçün zəmin yaradılıb. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi".

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində bütün sahələr inkişaf edib, əhalinin rifah halı daha da yaxşılaşıb və xalqa verilən vədlər bütünlüklə yerinə yetirilib. İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi məqsədilə Prezidentin imzaladığı fərman və sərəncamlar, dövlət proqramları əsasında həyata keçirilən sosial layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir. Azərbaycanda sürətli inkişaf dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sahəyə ciddi sirayət edib və bir çox sosial proqram, habelə layihədə real əksini tapıb. Prezident İlham Əliyev andiçmə mərasimində bəyan edi: "Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir". Bununla yanaşı, dövlət başçısı qarşıdakı dövrdə görüləcək işləri də açıqlamışdı. Bütövlükdə, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan bütün sahələr üzrə sıçrayışlı inkişafa nail olub, o cümlədən beynəlxalq müstəvidə nüfuzlu dövlətlər sırasına yüksəlib.

Prezident İlham Əliyevin uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsinə - ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinə nail olub. Hələ 23 il əvvəl ilk andiçmə mərasimində cənab İlham Əliyev demişdir: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". Məhz belə də oldu. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində zəfərlə sona çatdı. Əgər altı il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində işğala son qoymuşduqsa, 2023-cü ildə Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizi tam bərpa etdik. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı birləşmələrinin, qeyri-qanuni silahlı dəstələrin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, eyni zamanda bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti qələbəsinin təntənəsi oldu. "Beləliklə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan ərazi bütövlüyünə və suverenliyinə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Eyni zamanda şəhidlərimizin qanı yerdə qalmadı, onların qisası alındı", - deyə deputat əlavə etdi.

P.Kərimzadə qeyd etdi ki, hazırda işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində möhtəşəm işlər həyata keçirilir. Azərbaycanın əsas prioritetlərindən biri azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır. Böyük qələbənin nəticəsində yaradılmış yeni reallıqlar Qarabağın və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasını uğurla gerçəkləşdirir. Bu strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş əraziləri regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Belə ki, layihələndirmə işlərində tətbiq olunan yeniliklərin bir çox dövlət üçün nümunəvi model kimi qəbul olunması və məsələ ilə bağlı səslənən beynəlxalq etiraflar Böyük qayıdış strategiyasının effektivliyi və perspektivliyi haqqında xəbər verir. Bir sözlə, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan yeni hədəflərə doğru inamla irəliləyir.

Deputat vurğuladı ki, Prezident İlham Əliyev ilk andiçmə mərasimində qarşıda duran tarixi vəzifələri həyata keçirmək, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün Heydər Əliyev siyasətinin davam etdirilməsini ən başlıca amil hesab etmişdi: "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm" deyən cənab Prezident bu siyasətə sadiq qalmaqla Azərbaycanı qalib və yenilməz dövlətə çevirdi".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Həqiqi tərəfdaşlıq beynəlxalq hüququn hamı üçün eyni meyarlarla tətbiqinə əsaslanmalıdır



Prezident İlham Əliyevin Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışındakı nitqi beynəlxalq münasibətlər sisteminin üzləşdiyi fundamental problemlərin, xüsusilə beynəlxalq hüququn selektiv tətbiqinin, ikili standartların və dövlətlərin suveren hüquqlarına münasibətdə nümayiş etdirilən fərqli yanaşmaların mahiyyətini bir daha gündəmə gətirir. Dövlət başçısının səsləndirdiyi fikirlər Azərbaycanın 30 il davam etmiş işğal təcrübəsinin siyasi-hüquqi qiymətləndirilməsi ilə yanaşı, həm də müasir beynəlxalq təhlükəsizlik sisteminin gələcəyi ilə əlaqədar prinsipial suallara cavab axtarışıdır.

Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ qəzetimizə açıqlamasında dedi ki, Prezidentin çıxışında yer alan qlobal əhəmiyyətli məsələlərdən biri beynəlxalq hüququn mövcudluğu ilə onun icrası arasındakı ziddiyyətlərin olmasıdır. Beynəlxalq münasibətlər sistemində hüquqi normaların qəbul edilməsi, qətnamələrin və bəyanatların verilməsi özlüyündə ədalətin təmin olunması anlamına gəlmir. Əksinə, bəzən "ədalətli münasibət" görüntüsü yaratmaq diqqətin real məzmundan yayındırılmasına xidmət edir. Mahiyyət etibarilə, əgər qəbul edilmiş qərarların icrasını təmin edən təsirli mexanizmlər mövcud deyilsə və hüquqi öhdəliklərin yerinə yetirilməsi siyasi maraqlardan asılı vəziyyətə düşürsə, beynəlxalq hüququn tənzimləyici funksiyası zəifləyir. Belə şəraitdə dövlətlərin hüquq qarşısında bərabərliyi prinsipi formal xarakter almaq, beynəlxalq institutların nüfuzu isə ciddi sınaqlarla üzləşmək təhlükəsi ilə qarşılaşır.

Deputat qeyd etdi ki, Azərbaycanın təcrübəsi bu problemin real nəticələrini göstərən nümunələrdəndir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələr Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın təcavüzkar qüvvələrinin çıxarılması tələbini irəli sürsə də, uzun illər ərzində icra olunmadı. Nəticədə beynəlxalq hüququn müdafiəsi üçün yaradılmış institusional mexanizmlərin imkanları ilə onların praktik nəticələri arasında kəskin fərq və ziddiyyət yarandı. Məsələnin prinsipial tərəfi ondan ibarətdir ki, Təhlükəsizlik Şurasının qərarları beynəlxalq sülh və təhlükəsizliyin qorunması sistemində xüsusi hüquqi əhəmiyyətə malikdir. BMT Nizamnaməsinin 25-ci maddəsi üzv dövlətlərin Təhlükəsizlik Şurasının qərarlarını qəbul etməsini və yerinə yetirməsini nəzərdə tutur. Nizamnamənin 39-cu maddəsi şuraya sülhə təhdid, sülhün pozulması və ya təcavüz aktının mövcudluğunu müəyyənləşdirmək, 41-ci maddəsi isə silahlı qüvvədən istifadəni nəzərdə tutmayan tədbirlər barədə qərar qəbul etmək səlahiyyəti verir. Deməli, beynəlxalq təhlükəsizlik sisteminin əsas problemlərindən biri yalnız hüquqi qərarların qəbul edilməsi deyil, onların həyata keçirilməsi üçün siyasi iradənin və institusional imkanların təmin olunmasıdır. Uzunmüddətli işğal şəraitində qəbul edilmiş qətnamələrin icrasını təmin etmək üçün təsirli beynəlxalq tədbirlərin görülməməsi beynəlxalq ictimaiyyətin ardıcıllığı və kollektiv təhlükəsizlik mexanizmlərinin səmərəliliyini şübhə altına alır".

Deputat bildirdi ki, Prezident İlham Əliyevin ikili standartlarla bağlı mövqeyinin nə dərəcədə mühüm əhəmiyyətə malik olması da məhz bu kontekstdə üzə çıxır. Beynəlxalq hüququn prinsipləri bütün dövlətlərə münasibətdə ümumi xarakter daşımalıdır. Dövlətlərin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyi onların iqtisadi imkanlarından, hərbi gücündən, konkret zaman kəsiyində beynəlxalq siyasi münasibətlər sistemində tutduğu mövqedən, əhalisinin sayından, ərazisinin böyüklüyündən asılı olmamalıdır. İkili standartlar problemi yalnız müəyyən münaqişələrə münasibətdə fərqli mövqelərin nümayiş etdirilməsi ilə məhdudlaşmır. Onun daha geniş təzahürü dövlətlərin suveren hüquqlarına və müstəqil seçimlərinə münasibətdə müşahidə olunur. "Hər bir dövlət beynəlxalq hüququn çərçivəsində öz siyasi, iqtisadi və sosial inkişaf modelini müəyyənləşdirmək, xarici siyasət prioritetlərini formalaşdırmaq və beynəlxalq əməkdaşlıq istiqamətlərini seçmək hüququna malikdir. Bu hüquqların siyasi maraqlar naminə məhdudlaşdırılmasına cəhd göstərilməsi, bir dövlətin seçimlərinə hörmətlə yanaşıldığı halda digər dövlətin analoji seçimlərinin təzyiq vasitəsinə çevrilməsi selektiv yanaşma problemini daha da dərinləşdirir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində təsbit edilmiş suveren bərabərlik prinsipi, eləcə də Baş Assambleyanın 1970-ci ildə qəbul etdiyi 2625 saylı qətnamədə əksini tapmış dövlətlərin sərbəst seçimlərinə hörmət prinsipləri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dövlətlərin daxili işlərinə müdaxilə etməmək prinsipi onların konstitusiya quruluşunu, siyasi sistemini və milli inkişaf prioritetlərini müstəqil müəyyənləşdirmək hüququnun qorunmasına xidmət edir", - deyə o əlavə etdi.

E.Mirzəbəyli dedi ki, beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət yalnız diplomatik etiket məsələsi deyil, dövlətlərin bərabərhüquqlu tərəfdaşlar kimi qəbul edilməsinin əsas şərtidir. Hansısa bir dövlətin öz siyasi modelini, yaxud hansısa dövlətin rəsmisinin öz ideoloji baxışlarını universal ölçü kimi təqdim edərək digər xalqların seçimlərini ikinci dərəcəli hesab etməsi beynəlxalq əməkdaşlığın ruhuna uyğun gəlmir. Əgər dövlətlərdən qarşılıqlı hörmət və əməkdaşlıq gözlənilirsə, bu münasibətlərin əsasında suveren bərabərlik və hüquqi öhdəliklərə sadiqlik dayanmalıdır.

Deputat vurğuladı ki, Azərbaycanın təcrübəsi çox mühüm nəticəni ortaya qoyur və tamamilə obyektiv əsaslarla müəyyən edir ki, beynəlxalq hüququn səmərəliliyi yalnız onun normalarının mövcudluğu ilə deyil, həmin normaların həyata keçirilməsi üçün real mexanizmlərin işləməsi ilə ölçülür: "Əgər beynəlxalq təşkilatların qərarları uzun müddət kağız üzərində qalırsa, münaqişə tərəfləri hüquqi tələblərinin icrasız qalmasının ciddi nəticələr doğurmayacağı qənaətinə gələ bilərlər. Bu isə gələcəkdə oxşar pozuntuların qarşısının alınmasını çətinləşdirir və beynəlxalq təhlükəsizlik sisteminin çəkindirici imkanlarını zəiflədir. Bu gün dünyada mövcud olan münaqişələrin də səbəbləri ikili standartların və selektiv yanaşmaların uzun illər ərzində doğurduğu nəticələrdir. Prezident İlham Əliyevin çıxışında yer alan digər mühüm məqam Azərbaycanın müstəqillik dövründə əldə etdiyi nailiyyətlərin, istisnasız olaraq milli iradə və xalqın zəhməti ilə bağlı olmasıdır. İşğal, dağıntılar və ağır sosial-iqtisadi çətinliklərlə üzləşmiş ölkənin inkişaf, iqtisadi tərəqqi və beynəlxalq əməkdaşlıq istiqamətində irəliləməsi dövlətin müstəqil qərarvermə qabiliyyətinin əhəmiyyətini göstərir. Azərbaycanın təcrübəsi milli inkişafın əsas şərtlərindən biri kimi siyasi müstəqilliyi, institusional imkanları və uzunmüddətli strateji məqsədlərə sadiqliyi ön plana çıxarır".

Deputat bildirdi ki, Prezident İlham Əliyevin forumun açılışındakı nitqi beynəlxalq münasibətlərdə hüquqi bərabərlik, qarşılıqlı hörmət və məsuliyyət məsələlərini bir daha gündəmə gətirdi. Bu çıxışın əsas mesajı ondan ibarətdir ki, beynəlxalq hüquq siyasi maraqlara uyğun seçilən vasitə deyil, bütün dövlətlərin əməl etməli olduğu ümumi davranış çərçivəsidir. Onun nüfuzu yalnız qəbul edilmiş sənədlərin sayı ilə deyil, həmin sənədlərin icrasının təmin olunması, hüquqi prinsiplərin ardıcıllığı ilə və dövlətlərin suveren hüquqlarına hörmətlə müəyyənləşir. Beynəlxalq ictimaiyyət yalnız bu prinsiplər əsasında ortaq mövqe formalaşdıra bildiyi halda münaqişələrin qarşısının alınması, beynəlxalq institutlara etimadın bərpası və dövlətlərarası əməkdaşlığın genişləndirilməsi üçün daha əlverişli şərait yarana bilər. "Prezident İlham Əliyevin fikirləri dövlətlərin suveren bərabərliyi prinsipinin müdafiəsi və beynəlxalq münasibətlərdə siyasi diktəçilik cəhdlərinin yolverilməzliyinə dair prinsipial mövqenin ifadəsidir. Heç bir dövlət özünü digərindən üstün tutaraq müstəqil ölkələrin daxili və xarici siyasətinə müdaxilə etmək, onların inkişaf modelini müəyyənləşdirmək və milli maraqlarına uyğun qərarlarına istiqamət vermək üçün müstəsna mənəvi və siyasi hüquqa malik deyil. Beynəlxalq münasibətlərdə həqiqi tərəfdaşlıq qarşılıqlı hörmətə, bərabərhüquqluluğa və beynəlxalq hüququn hamı üçün eyni meyarlarla tətbiqinə əsaslanmalıdır. Azərbaycanın mövqeyi də məhz bu prinsiplərdən qaynaqlanır. Ölkəmiz öz suverenliyini və milli maraqlarını heç bir xarici diktənin predmeti hesab etmir, digər dövlətlərin də müstəqil seçimlərinə hörmətlə yanaşır. Suverenlik başqalarının iradəsinə tabe olmaq deyil, öz taleyini müstəqil müəyyənləşdirmək hüququdur. Bu hüquqa hörmət tələb etmək isə hər bir müstəqil dövlətin legitim mövqeyi və beynəlxalq hüququn fundamental prinsiplərindən irəli gələn haqqıdır", - deyə E.Mirzəbəyli əlavə etdi.

Ə.QARDAŞXANOVA,
"Azərbaycan"

"Şəhərsalma və Memarlıq İli - 2026"

Tarixi irsimiz, müasir inkişafımız və gələcək simamız

Şəhərlər yaranmağa başladığı vaxtlardan bu günümüzədək yalnız insanların yaşadığı məkanlar deyil, həm də iqtisadiyyatın, innovasiyaların, mədəniyyətin, təhsilin və sosial inkişafın əsas mərkəzləridir. Onlar xalqların tarixi yaddaşını, milli-mədəni kimliyini və əsrlər boyu keçdikləri inkişaf yolunu özündə yaşadır. Odur ki, şəhərsalma və memarlıq eyni zamanda milli irsin qorunması, sosial rifahın yüksəldilməsi və əlverişli yaşayış mühitinin yaradılması ilə bağlı mühüm fəaliyyət istiqaməti hesab olunur.



Bu gün dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayır və o üzdən şəhərləşmə prosesi davam edir. Əhalinin şəhərlərə axını iqtisadi imkanları genişləndirməklə yanaşı, mənzil təminatı, ekoloji tarazlığın qorunması, su və enerji resurslarından səmərəli istifadə, tullantıların idarə olunması və nəqliyyat sıxlığı kimi məsələləri də aktuallaşdırır.

Texnologiyaların sürətli inkişafı şəhərlərin idarə olunmasına da yeni yanaşmalar gətirib. "Ağıllı şəhər" konsepsiyası rəqəmsal texnologiyalardan istifadə etməklə kommunal xidmətlərin, nəqliyyatın, enerji təchizatının və ictimai təhlükəsizliyin daha səmərəli idarə edilməsini nəzərdə tutur.

Hər il oktyabrın 31-i Dünya Şəhərlər Gününün qeyd olunmasında əsas məqsəd urbanizasiya məsələlərinə beynəlxalq diqqəti artırmaq, ölkələr arasında şəhərsalma sahəsində əməkdaşlığı gücləndirmək, şəhərlərin üzləşdiyi problemlərin həllində birgə səyləri artırmaq və bu sahədə davamlı inkişafa nail olmaqdır.

Xatırladaq ki, Dünya Şəhərlər Günü Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 27 dekabr 2013-cü il tarixli qətnaməsi ilə elan edilib. Bu tarix ilk dəfə 2014-cü il oktyabrın 31-də qeyd olunub. Hər il fərqli mövzu altında qeyd edilən bu gün çərçivəsində dünyanın müxtəlif şəhərlərində beynəlxalq konfranslar, forumlar, müzakirələr, sərgilər və maarifləndirici tədbirlər təşkil olunur. Qlobal səviyyədə əsas tədbir hər il fərqli şəhərlərdə keçirilir.

Təqdirəlayiqdir ki, Azərbaycanın şəhərsalma sahəsində beynəlxalq əməkdaşlığı cari ildə də əhəmiyyətli dərəcədə yüksəlib. 2026-cı il mayın 17-22-də Bakıda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) və Azərbaycan Hökumətinin birgə təşkilatçılığı ilə Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi ölkəmizin qlobal şəhərsalma gündəliyində iştirakının mühüm göstəricisidir.

Forumun respublikamızın paytaxtında keçirilməsi Azərbaycanın şəhərsalma təcrübəsinin beynəlxalq səviyyədə təqdim olunması, müxtəlif ölkələrin təcrübələrinin öyrənilməsi və gələcək əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Tarixi şəhərlərin qorunması, müasir şəhərsalma yanaşmalarının tətbiqi və işğaldan azad edilmiş ərazilərdə bərpa prosesinin təcrübəsinin beynəlxalq müzakirələr üçün mühüm mövzular sırasında olması da bunu sübut edirdi.

Qeyd edək ki, Dünya Şəhərlər Gününün qeyd olunması ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qədim şəhərsalma və memarlıq ənənələrinə malik ölkələrdəndir. Əlverişli coğrafi mövqeyi, tarixi ticarət yolları üzərində yerləşməsi və zəngin mədəni mühiti şəhərlərimizin inkişafına mühüm təsir göstərib. Bakı, Şuşa, Gəncə, Şəki, Şamaxı, Naxçıvan, Ordubad, Qəbələ və digər şəhərlərimiz müxtəlif tarixi dövrlərin memarlıq xüsusiyyətlərini, milli-mədəni dəyərlərini və zəngin şəhərsalma təcrübəsini özündə yaşadır. Məminə xatun türbəsi, Xudafərin körpüləri, İçərişəhər, Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Şəki Xan Sarayı və digər qədim tikililər milli memarlıq irsimizin dəyərli nümunələrindəndir. Bu abidələr həm də Azərbaycanın dünya mədəniyyətinə töhfələridir. Həmin tarixi tikililərin bərpası, mühafizəsi, qədim şəhərlərin özünəməxsusluğunun saxlanılması milli yaddaşın gələcək nəsillərə ötürülməsinə şərait yaradır.

Müasir şəhərsalmanın başlıca vəzifələrindən biri də tarixi irslə yeni inkişaf arasında ahəng yaratmaqdır. Odur ki, dövrümüzdə şəhərsalma binaların inşası və küçələrin abadlaşdırılması ilə məhdudlaşmır. Bu sahə ərazilərin kompleks planlaşdırılmasını, nəqliyyat infrastrukturunun inkişafını, yaşıllıq sahələrinin qorunmasını, mənzil təminatını, sosial xidmətlərin əlçatanlığını və ekoloji tarazlığın saxlanılmasını əhatə edir. Ölkəmizdə də şəhərsalma və memarlıq sahəsi bu istiqamətdə inkişaf edir.

Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin ölkəmizin çoxəsrlik memarlıq ənənələrinin yaşadılması, müasir şəhərsalma yanaşmalarının inkişaf etdirilməsi və bu sahədə yeni hədəflərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyəti var.

Bakı əsrlər boyu Şərqlə Qərbin qovuşduğu mühüm mədəni və iqtisadi mərkəzlərdən biri olub. Bu gün şəhərdə həyata keçirilən infrastruktur layihələri, ictimai məkanların yenilənməsi, nəqliyyat sisteminin inkişafı və müasir memarlıq nümunələri paytaxtın simasına əlavə çalar qatır. Bununla yanaşı, tarixi irsin qorunması, yaşıllıq sahələrinin artırılması diqqət mərkəzindədir.

Son illər ölkəmizin müasir şəhərsalma tarixi digər bölgələrimizdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri ilə də zənginləşir. Vətən müharibəsində qazanılmış Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq prosesinə başlanılıb. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və digər yaşayış məntəqələrində həyata keçirilən layihələr bölgənin sosial-iqtisadi həyatının yenidən canlanmasına yönəlib.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda quruculuq işləri inşa edilən binalar və çəkilən yollarla məhdudlaşmır. Əsas meyar insanların təhlükəsiz yaşayışı, məşğulluq imkanları, təhsil və səhiyyə xidmətləri, sosial həyatın bərpası və bölgənin davamlı inkişafıdır. Regionda şəhərsalma insanların doğma torpaqlarına qayıdışından tutmuş, onların təhlükəsiz və firavan həyatının təmin edilməsinədək geniş sahələri əhatə edir. Bu zaman əsas məqsəd hər bir şəhərin özünəməxsus simasını qorumaqla onu sakinlər üçün rahat və müasir məkana çevirməkdir.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"







Azərbaycanın humanitar diplomatiyası

Leyla xanım Əliyevanın fəaliyyəti bu diplomatiyanın getdikcə daha geniş coğrafiyada həyata keçirildiyini göstərir

Mədəniyyətə münasibət, humanitar təşəbbüslər, ətraf mühitin qorunmasına verilən töhfələr, fərqli dinlər və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın təşviqi müasir dünyamızda dövlətlərin beynəlxalq imicinin formalaşmasında mühüm yer tutur. Mədəniyyət diplomatiyası xalqlar arasında etimadın möhkəmləndirilməsi, ortaq dəyərlərin müəyyənləşdirilməsi və uzunmüddətli tərəfdaşlıqların qurulması üçün əhəmiyyətli vasitə rolunu oynamaqdadır.

Azərbaycanın bu istiqamətdəki fəaliyyətində Heydər Əliyev Fondunun təşəbbüslərinin xüsusi əhəmiyyəti var. Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyevanın təkcə bu ilin sentyabr-oktyabr aylarında Azərbaycanda və dünyanın müxtəlif ölkələrində iştirak etdiyi tədbirlər, keçirdiyi görüşlər, dəstəklədiyi təşəbbüslər bu fəaliyyətin neçə geniş istiqamətdə inkişaf etdiyini göstərir və bir-birini tamamlayan əsas xətti diqqətə çatdırır. Bu xətt milli-mədəni irsimizin beynəlxalq təqdimatı, ümumbəşəri humanitar dəyərlərin təşviqi, ekoloji problemlərə diqqətin artırılması, sosial həssas qrupların dəstəklənməsidir.

Vatikan səfəri yeni imkanlara yol açdı

Sentyabrın 29-da Leyla xanım Əliyevanın Vatikanda keçirdiyi görüşlər və iştirak etdiyi mədəni tədbirlər Azərbaycanla Müqəddəs Taxt-Tac arasında formalaşmış humanitar əməkdaşlığın davamlılığını nümayiş etdirirdi. Həmin gün "Səmavi dinlər" layihəsi çərçivəsində iudaizm, xristianlıq və islam dinlərinə həsr edilmiş Azərbaycan xalçalarının sərgisi açılmışdı. Sərginin ideyası özlüyündə mühüm məna daşıyırdı: fərqli dini ənənələr Azərbaycan xalçaçılıq sənətinin dili ilə təqdim olunurdu. Burada xalça dekorativ-tətbiqi sənət nümunəsi olmaqla yanaşı, eyni zamanda fərqli inanclar arasında dialoqun, mədəni yaddaşın və ortaq insani dəyərlərin bədii ifadəsi rolunu oynayırdı. Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti Raffaella Petrini də açılış mərasimində sərginin müxtəlif dinlər, xalqlar və mədəniyyətlər arasında dialoq imkanları yaratdığını vurğulamışdı.

Belə tədbirlərin Azərbaycan üçün əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. Əvvəla, milli sənət nümunələrinin beynəlxalq dini və mədəni məkanda nümayişi Azərbaycan mədəniyyətinin tanıdılmasına şərait yaradır. Digər tərəfdən, müsəlman əhalinin çoxluq təşkil etdiyi Azərbaycanın üç səmavi dinin ortaq dəyərlərini bir mədəni layihədə birləşdirməsi ölkəmizin dinlərarası dialoq sahəsində təqdim etdiyi yanaşmanı əyani şəkildə ifadə edir.

Leyla Əliyevanın Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad ilə görüşü də bu baxımdan diqqətəlayiq idi. Görüşdə mədəniyyət, din və insani dəyərlər ətrafında əməkdaşlığın genişləndirilməsi, gələcək birgə proqramlar müzakirə olundu. Kardinal Azərbaycandakı dinlərarası həmrəylik təcrübəsini yüksək qiymətləndirdi.

Vatikan səfərinin digər mühüm istiqaməti mədəni irsin qorunması ilə bağlı idi. Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyanın katibi Raffaella Culiani ilə görüşdə katakombaların bərpası, gələcək restavrasiya layihələri və bu işlərə tələbə və mütəxəssislərin cəlb olunması imkanları müzakirə edildi. Raffaella Petrini ilə görüşdə isə Müqəddəs Pavel Bazilikasının və oradakı abidələrin bərpası, eləcə də "Bambino Gesu" xəstəxanası ilə pediatriya sahəsində əməkdaşlıq məsələlərinə diqqət yönəldi. Bu yanaşma mədəni irsin yalnız ayrı-ayrı xalqlara və dinlərə yox, bütövlükdə bəşəriyyətə məxsus dəyər kimi qəbul edilməsi prinsipinə əsaslanır.

Beynəlxalq baxımdan bunun əhəmiyyəti ondadır ki, mədəniyyətlərarası dialoq mücərrəd çağırışlarla məhdudlaşmır, tarixi abidələrin mühafizəsi, peşəkar təcrübə mübadiləsi və humanitar əməkdaşlıq kimi konkret fəaliyyət sahələrində davam edir.

Ana təbiətin dili ilə dünyaya ünvanlanan mesaj

Leyla Əliyevanın fəaliyyətində ekologiya mövzusu ayrıca və davamlı istiqamətdir. IDEA İctimai Birliyinin təsisçisi kimi onun təşəbbüslərində təbiətin mühafizəsi ekoloji problemdən daha çox cəmiyyətin mədəniyyətinə, həyat tərzinə və gələcək nəsillər qarşısındakı məsuliyyətinə aid məsələ kimi təqdim olunur. Bunun bariz nümunələrindən biri də MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisidir.

Sentyabrın 9-da Madriddəki Pons Fondunda açılan sərgi müxtəlif ölkələrdən olan rəssamları bir araya gətirərək insanla təbiət arasındakı münasibətlərə diqqət yönəltdi. Yada salaq ki, Leyla xanım Əliyevanın ideya müəllifi olduğu bu layihə ilk dəfə 2024-cü ildə Bakıda COP29 çərçivəsində təqdim edilmişdi. Onun sonrakı illərdə müxtəlif ölkələrdə nümayiş etdirilməsi ekoloji mövzunun beynəlxalq mədəni platforma vasitəsilə gündəmdə saxlanmasına xidmət göstərir.

Sərginin oktyabrın 20-də Türkmənistanın paytaxtı Aşqabadda açılması isə layihənin coğrafiyasını daha da genişləndirdi. Bu tədbir Azərbaycan, Türkmənistan və Özbəkistan nümayəndələrinin iştirakı ilə mədəniyyət və ekologiya mövzularında fikir mübadiləsi üçün platforma yaratdı.

MAMA layihəsinin fərqləndirici cəhəti ekoloji problemləri elmi hesabatlar, statistik göstəricilər və siyasi sənədlər çərçivəsindən çıxararaq, sənətin emosional dili vasitəsilə təqdim etməsidir. İqlim dəyişikliyi və biomüxtəlifliyin azalması kimi mürəkkəb problemlər incəsənət vasitəsilə daha geniş auditoriyaya çatır, bu isə xüsusilə gənclərin ekoloji maarifləndirilməsi baxımından əhəmiyyətlidir. Çünki ekoloji məsuliyyətin formalaşması insanların təbiətə şəxsi münasibətinin dəyişməsindən çox asılıdır.

Leyla xanım Əliyevanın oktyabrın 19-da Arkadağ şəhərində Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondunun vitse-prezidenti Oğulcahan Atabayeva ilə görüşündə Xəzər dənizinin səviyyəsinin enməsi problemini gündəmə gətirməsi xüsusi diqqət cəlb edir. Görüşdə su ehtiyatlarının qorunmasına yönələn "Bir damcı" layihəsi də xatırladıldı.

Xəzərin səviyyəsinin dəyişməsi yalnız Azərbaycanın və ya Türkmənistanın problemi sayılmamalıdır. Bu məsələ sahilyanı ölkələrin ekosistemlərinə, iqtisadi fəaliyyətinə, infrastrukturuna və yerli icmalarına təsir göstərə biləcək regional çağırışdır. Belə bir mövzunun mədəni-humanitar platformalarda gündəmə gətirilməsi elmi və hökumətlərarası əməkdaşlığı əvəz etməsə də, müvafiq mövzulara ictimai diqqəti artırmaq, regional müzakirələrə təkan vermək və vətəndaşların ekoloji məsuliyyətini gücləndirmək baxımından əlavə imkan yaradır. Nəticədə Azərbaycanda formalaşan bir mədəni təşəbbüs həm ölkənin yaradıcı potensialını nümayiş etdirir, həm də qlobal ekoloji gündəliyə ictimai dəstək verməyin mümkün yollarından birini təqdim edir.

Leyla xanım Əliyevanın Türkmənistan və Özbəkistana səfərləri humanitar əməkdaşlığın yeni istiqamətlərini gündəmə gətirdi. Arkadağ şəhərində O.Atabayeva ilə keçirilən görüşdə Azərbaycan və Türkmənistan arasında xeyriyyə fondları səviyyəsində əməkdaşlıq, sosial-humanitar təşəbbüslər və ortaq ekoloji məsələlər də müzakirə olundu. Leyla xanım Əliyeva həmin gün Qurbanqulu Berdiməhəmmədov adına Uşaq Sağlamlığı və Reabilitasiya Mərkəzinin fəaliyyəti ilə də tanış oldu, xüsusi qayğıya ehtiyac duyan uşaqların sağlamlığına və sosial inteqrasiyasına diqqət yönəltdi. Bu cür səfərlər müxtəlif ölkələrdə tətbiq olunan qayğı və reabilitasiya modellərinin öyrənilməsi, uğurlu təcrübələrin paylaşılması, gələcək birgə layihələrin formalaşdırılması üçün imkanlar yaradır.

Aşqabadda Leyla Əliyevanın, Oğulcahan Atabayevanın və Özbəkistan Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyevanın üçtərəfli görüşü bu əməkdaşlığın daha geniş regional müstəviyə keçməsi baxımından əlamətdar hadisə idi. Görüşdə fəaliyyət xəttinin davamı idi. Bu səfər uşaqların sağlamlığı, inklüziv təhsil və sosial xidmətlər sahəsində beynəlxalq təcrübə mübadiləsinin əhəmiyyətini ön plana çıxardı.

Qlobal humanitar məsuliyyət

Oktyabrın 28-də Bakıda Leyla Əliyevanın iki nüfuzlu beynəlxalq təşkilatın rəhbər nümayəndələri ilə görüşləri Heydər Əliyev Fondunun fəaliyyətinin coğrafi və tematik baxımdan geniş imkanlara malik olduğunu göstərdi. ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Malik ilə görüşdə Heydər Əliyev Fondu ilə təşkilat arasında elm, təhsil, mədəniyyət və yeni texnologiyalar sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu. Bu əməkdaşlığın xüsusilə diqqətəlayiq tərəfi humanitar yardımın yalnız Azərbaycanla və ya yaxın regionla məhdudlaşmamasıdır. Görüşdə 2025-ci ildə Burkina-Faso və Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivliyinin dəstəklənməsi istiqamətində imzalanmış saziş də yada salındı. Eyni zamanda Heydər Əliyev Fondunun təhsil və sosial dəstək layihələrinə görə 2025-ci ildə "Həmdan-ICESCO" mükafatına layiq görüldüyü qeyd olundu.

Afrikada münaqişələrdən əziyyət çəkmiş qadınların dəstəklənməsinə yönələn bu əməkdaşlıq mühüm sosial məna daşıyır. Çünki münaqişələrin nəticələri yalnız təhlükəsizlik və iqtisadiyyatla bağlı olmur. Təhsil imkanlarının itirilməsi, məşğulluğun azalması və sosial təcrid xüsusilə qadınların və uşaqların həyatına uzunmüddətli təsir göstərir. Qadınların sosial-iqtisadi imkanlarının genişləndirilməsinə yönəlmiş proqramlar bu problemlərin azaldılmasına töhfə verir. Burada Azərbaycanın beynəlxalq humanitar əməkdaşlığa qatılması həm təcrübə mübadiləsi, həm də müxtəlif regionlardakı sosial problemlərin həllində tərəfdaşlıq imkanları baxımından əhəmiyyətlidir.

Leyla xanım Əliyevanın eyni gündə UNESCO-nun baş direktorunun müavini Asa Regner ilə görüşündə isə mədəni irsin qorunması, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirildi. UNESCO və ICESCO ilə münasibətlər Azərbaycanın mədəni və humanitar təşəbbüslərinin beynəlxalq institutlarla əlaqələndirilməsi baxımından fərqli, amma bir-birini tamamlayan imkanlar yaradır.

Bir tərəfdən UNESCO ilə əməkdaşlıq mədəni irsin qorunması, təhsil və elmi əməkdaşlıq məsələlərini qlobal gündəmlə əlaqələndirir, digər tərəfdən ICESCO ilə tərəfdaşlıq islam dünyasında və ondan kənarda humanitar layihələrin həyata keçirilməsi üçün əlavə platformalar təqdim edir. Bu kontekstdə oktyabrın 28-də VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ICESCO-nun Azərbaycana həsr edilmiş "Sülh kitabı"nın üçüncü nəşrinin təqdimatı da diqqətəlayiq hadisə idi. "Harmoniya çalarları: gənclərin gözü ilə Azərbaycanda sülh və multikulturalizm" adlı nəşr gənclərin baxışları vasitəsilə sülh və birgəyaşayış mövzularını gündəmə gətirdi. Bu təşəbbüslərin ortaq xüsusiyyəti dialoq anlayışına təhsil, mədəniyyət, inklüzivlik və humanitar əməkdaşlıqla əlaqəli bir proses kimi yanaşılmasındadır.

Leyla Əliyevanın son aylara dair fəaliyyətində Alyona xanım Əliyeva ilə birgə Şamaxıda Xınıslı körpələr evi-uşaq bağçasının, eləcə də Göylər kəndində yeni məktəbəqədər təhsil müəssisəsinin açılışında iştirakı da xüsusi yer tutur. Regionlarımızda məktəbəqədər təhsil müəssisələrinin yaradılması uzunmüddətli sosial inkişaf baxımından əhəmiyyətlidir. Erkən yaşlarda keyfiyyətli təhsil uşaqların idrak, ünsiyyət və sosial bacarıqlarının formalaşmasına dəstək verir, gələcək təhsil həyatına hazırlıq imkanlarını genişləndirir. Bölgələrimizdə məktəbəqədər təhsilə əlçatanlığın artırılması valideynlərin, o cümlədən anaların məşğulluq imkanlarına da müsbət təsir göstərir.

Azərbaycan mədəniyyətinin himayədarlıq missiyası

Heydər Əliyev Fondunun Mədəniyyət Nazirliyi ilə birlikdə təşkil etdiyi ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı ölkəmizin mədəni həyatında mühüm hadisələrdən sayılır. Festival Azərbaycan musiqisinin klassik irsinin yaşadılması, milli bəstəkarlıq məktəbinin tanıdılması və beynəlxalq musiqi əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Üzeyir Hacıbəyli irsi Azərbaycan mədəniyyətinin milli xüsusiyyətlərlə dünya musiqi ənənələri arasında əlaqəsini təcəssüm etdirir. Belə bir irsin beynəlxalq festivallar vasitəsilə təqdim olunması həm mədəni yaddaşın qorunmasına, həm də yeni nəsillərin klassik musiqiyə marağının gücləndirilməsinə xidmət göstərir. Bu baxımdan fondun mədəniyyət sahəsində fəaliyyəti təkcə tarixi irsin bərpasını deyil, onun müasir auditoriyalara çatdırılması və beynəlxalq mədəni mübadilədə yaşadılması imkanlarını da əhatə edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın son iki aydakı fəaliyyəti Azərbaycanın mədəni və humanitar diplomatiyasının necə geniş coğrafiyada davam etdiyini, müxtəlif beynəlxalq tərəfdaşlarla əlaqələrin gücləndirildiyini göstərir. Bunun dəyəri isə onların yaratdığı dialoqun konkret layihələrə, davamlı tərəfdaşlıqlara və insanların həyatında hiss olunan nəticələrə çevrilməsindədir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Milli kimliyimizin və mənəvi bütövlüyümüzün təcəssümü

Azərbaycan xalqı zəngin və qədim tarixə, özünəməxsus mədəniyyətə, yüksək mənəvi dəyərlərə malik olan xalqlardandır. Tarixin müxtəlif dövrlərində üzləşdiyimiz çətinliklərə, sınaqlara və mürəkkəb ictimai-siyasi proseslərə baxmayaraq, xalqımız öz milli varlığını, dilini, mədəniyyətini və adət-ənənələrini qoruyub saxlamağı bacarıb. Bu davamlılığın əsasını təşkil edən amillərdən biri də milli birlik və azərbaycançılıq ideologiyasıdır.



Azərbaycançılıq xalqımızın əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərini, tarixi yaddaşını, dilini, mədəniyyətini, adət-ənənələrini və dövlətçilik düşüncəsini özündə birləşdirən mühüm ideoloji məfkurədir. Bu ideologiya Azərbaycan xalqının milli kimliyinin qorunmasında, cəmiyyətin həmrəyliyinin möhkəmləndirilməsində və müstəqil dövlətçilik ənənələrinin yaşadılmasında müstəsna əhəmiyyət daşıyır. Azərbaycançılıq yalnız milli mənsubiyyət anlayışı deyil, eyni zamanda Vətənə bağlılığın, dövlətə sədaqətin, xalqın tarixinə və gələcəyinə məsuliyyətin ifadəsidir.

Bu ideologiyanın ən mühüm xüsusiyyətlərindən biri tolerantlıq və multikulturalizm dəyərlərinə əsaslanmasıdır. Azərbaycan tarixən müxtəlif xalqların və dini konfessiyaların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində birgə yaşadığı məkan olub. Ölkəmizdə mövcud olan etnik və dini müxtəliflik milli birliyimizi, cəmiyyətimizin zənginliyini və mənəvi gücünü nümayiş etdirən mühüm amilə çevrilib. Azərbaycançılıq hər bir vətəndaşın hüquq və azadlıqlarına hörmətlə yanaşmağı, fərqli mədəniyyətləri ümumi milli dəyərlər çərçivəsində birləşdirməyi sövq edir.

Dövlətimizin başçısı İlham Əliyev oktyabrın 27-də VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxışı zamanı diqqətə çatdırıb ki, biz Avropa ilə Asiya arasında yerləşirik. Əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub: "Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir". Prezident İlham Əliyev vurğulayıb ki, birlik müstəqillik tariximizin ən ağır vaxtlarında özünü göstərib. Ermənistanın hərbi təcavüzü və işğalı, həmçinin İkinci Qarabağ müharibəsi zamanı bütün etnik və dini qrupların nümayəndələri özünəməxsusluğumuzu qorumaq, ədaləti müdafiə etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün qələbəmizin rəmzi olan "Dəmir yumruq" kimi vuruşdular.

Bu gün Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Azərbaycan bütün dünyada sülhpərvər, hər zaman ədaləti dəstəkləyən, tərəqqiyə səy göstərən və bu yolda qətiyyətlə irəliləyən müstəqil dövlət kimi tanınır.

Belə bir dövrdə azərbaycançılıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlətimizin suverenliyinin möhkəmləndirilməsi, milli maraqların qətiyyətlə müdafiəsi, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsi və tarixi ədalətin bərpası bu siyasətin mühüm istiqamətlərindəndir. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması xalqımızın milli iradəsinin, dövlətçilik əzminin və həmrəyliyinin təntənəsi kimi tarixə yazılıb.

Azərbaycançılıq ideologiyasının yaşadılmasında gənc nəslin üzərinə də böyük məsuliyyət düşür. Gənclər milli tariximizi dərindən öyrənməli, ana dilimizi qorumalı, mədəni irsimizə sahib çıxmalı və müasir biliklərə yiyələnərək ölkəmizin inkişafına töhfə verməlidirlər. Vətənpərvərlik yalnız sözlə ifadə olunan hiss deyil, fəaliyyətimizdə, əməyimizdə, davranışımızda və dövlətimiz qarşısında məsuliyyətimizdə öz əksini tapır.

Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi də azərbaycançılıq ideologiyasının əsas istiqamətlərindən biridir. Ana dilimiz milli varlığımızın, mənəvi yaddaşımızın və tarixi kimliyimizin ən mühüm daşıyıcısıdır. Dilə hörmət xalqın tarixinə, mədəniyyətinə və gələcəyinə hörmət deməkdir. Bu baxımdan hər bir azərbaycanlının üzərinə düşən vəzifələrdən biri də Azərbaycan dilinin saflığının qorunmasına, zənginləşdirilməsinə və gələcək nəsillərə ötürülməsinə çalışmaqdır.

Azərbaycançılıq eyni zamanda ölkəmizin hüdudlarından kənarda yaşayan milyonlarla soydaşımızı birləşdirən mənəvi körpüdür. Dünya azərbaycanlılarının həmrəyliyi, milli maraqlarımızın beynəlxalq miqyasda müdafiəsi, tarixi və mədəni irsimizin tanıdılması bu ideologiyanın qlobal əhəmiyyətini daha da artırır. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının öz xalqının tarixini, milli dəyərlərini və vətənlə mənəvi bağlılığını yaşatmağa çalışması milli birliyimizin mühüm göstəricisidir.

Azərbaycançılıq keçmişimizdən gələn dəyərli tarixi miras, bu günümüzün mənəvi dayağı və gələcəyimizin ideoloji istiqamətidir. Azərbaycançılıq bizi birləşdirən, milli kimliyimizi qoruyan, dövlətçiliyimizi möhkəmləndirən və gələcəyə inamla addımlamağımıza imkan yaradan mənəvi sərvətimizdir. Bu ideyaya sadiqlik hər bir vətəndaşın vətən qarşısında mənəvi borcu, milli məsuliyyəti və vətəndaşlıq mövqeyidir. Azərbaycançılıq vətəni sonsuz məhəbbətlə sevmək, dövlətçiliyi qorumaq, milli dəyərlərə sahib çıxmaq və gələcək nəsillərə daha güclü, daha qüdrətli Azərbaycan miras qoymaqdır.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



Kükrəyən qəlblər, susan məzarlar

Bura hərbi Memorial məzarlığıdır. Vətən müharibəsində, 2023-cü ilin antiterror əməliyyatında canından keçən oğullarımızın uyuduğu müqəddəs məkan...



Burada qəribə bir sükut hökm sürür. Bu sükutun içində nə qədər məna, nə qədər həsrət, nə qədər yarımçıq qalmış ömür, nə qədər deyilməmiş söz var.

Ölkənin müxtəlif bölgələrindən hər gün bura insanlar gəlir. Əllərində güllər, ürəklərində sözə çevrilməyən dərdlər... Burada üzbəüz durduğu məzardaşı ilə dərdləşən də var, ağı deyən də, ürəyindəki dərdi sözə çevirə bilməyib göz yaşı axıdan da.

Hər gün məzarların üstündəki güllər təzələnir. Amma elə həsrətlər var ki, illər keçsə də, acısını heç nə ilə ovutmaq olmur.

Burada nişanlısının məzarı üstünə gül qoyub nakam sevgisini ağlayanlar da var, qardaşının yoxluğuna alışa bilməyən bacılar da. Ömür-gün yoldaşını itirmiş gənc xanımlar da var, oğlunun yoxluğuna bir ömür inana bilməyən valideynlər də.

Hər məzarın arxasında nakam bir tale, yarımçıq bir həyat, bir ailənin ümidi, bir vaxtlar xəyallarda qurulan xoşbəxt gələcək var.

Bəlkə də müharibənin əsl mahiyyəti məhz burada, bu məzarların qarşısında daha aydın görünür. Müharibə təkcə itirilən torpaq, dağılan ev, atəş açan silah deyil. Müharibə həm də yaşanmamış gənclik, gerçəkləşməmiş arzu, nakam sevgi, övladının səsini bir daha eşidə bilməyən anaların qəlbində bitməyən ağrıdır...

Diqqət yetirin... Başdaşlarındakı fotoların gözləri sanki bir nöqtəyə dikilib, hamısı da ziyarətçilərə baxır.

Elə bil ki, səssizcə deyirlər ki, biz sizə Vətənimizi əmanət etdik. Onu qoruyun! Uğrunda can verdiyimiz torpağın qədrini bilin! Arxamızda qoyduğumuz doğmalarımıza sahib çıxın! Ürəyi yaralı valideynlərimizi unutmayın!

Bu məzarlar bizə həm qəhrəmanlığın qiymətini, həm də sülhün dəyərini xatırladır. Bu gün ən böyük arzumuz odur ki, bir daha analar oğul dağı görməsin, sevgilər yarımçıq qalmasın, heç bir ailənin qapısı qara xəbərlə döyülməsin. Göylərimizdə ölüm saçan raketlər deyil, sülhün rəmzi olan göyərçinlər uçsun.

Dövlətimizin başçısının davamlı sülhə yönəlmiş səylərinin arxasında da bir həqiqət dayanır: xalqların rifahı, gələcək nəsillərin təhlükəsizliyi, yeni faciələrin qarşısının alınması.

Çünki sülh zəiflik deyil, insan həyatına verilən dəyər, gələcəyə uzadılan əldir.

Bu məzarlıqlarda ömürlər susub. Onların bizə əmanət etdiyi amal isə yaşayır.

Qoy o amal yaşasın! Vətən yaşasın, insanlar yaşasın!

Bir daha heç bir ana övladını, bacı qardaşını, gənc xanım nakam sevgisini, gözüyaşlı körpə, yeniyetmə gənc atasını məzarlıqlarda axtarmasın!

Elşən QƏNİYEV,
"Azərbaycan"

Şəhid İbrahim Lələyevin xatirəsi anılıb

Masallının Hişkədərə kəndində vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş İbrahim Həzrətqulu oğlu Lələyevin şəhadətinin 6-cı ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.



Mərasimdə şəhidin məzarı ziyarət olunub, önünə gül dəstələri qoyulub. Sonra çıxışlar olub. Bildirilib ki, Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsi daim əziz tutulur, şəhid ailələri, müharibə əlilləri və iştirakçıları dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar.

Şəhidin ailə üzvləri göstərilən diqqətə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Məlumat üçün qeyd edək ki, əsgər İbrahim Lələyev 1996-cı il avqustun 25-də dünyaya gəlib. 2015-2017-ci illərdə müddətli həqiqi hərbi xidmət çəkib. Aprel döyüşlərində Lələtəpəyə qələbə bayrağımızı sancan qəhrəman oğulların sırasında olub. 44 günlük haqq savaşımızda Füzulu və Cəbrayılın azadlığı uğrunda döyüşlərdə vuruşub. İbrahim Lələyev göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın, Qubadlının azadlığına görə medalları ilə təltif edilib.

Zəfər ORUCOĞLU

Azərbaycan: ZƏFƏR gündəliyi

3 noyabr 2020-ci il

3 noyabr

Noyabrın 3-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutublar.



Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilib və sıradan çıxarılıb.

Düşmənin taktiki pilotsuz uçuş aparatı məhv edilib

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenidən atəşə tutublar.

Saat 00:25-dən 04:45-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalıb.

Saat 09:50-də cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

İlham Əliyev Vladimir Putinlə telefonla danışıb



Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilib.

Ağdam və Ağcabədidə mülki infrastruktur artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Düşmənin hücum cəhdinin qarşısı qətiyyətlə alınıb



Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı məhv edilib

Bölmələrimizin gördüyü tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən daha iki sursat anbarı məhv edilib.

Düşmənin tank bölmələri döyüş meydanından qaçmağa məcbur olub

Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutublar.

Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənin tank bölmələrini döyüş meydanından qaçmağa məcbur ediblər.

Bölmələrimizin dəqiq atəş zərbələri ilə düşmənin bir neçə tankı döyüş heyəti ilə birlikdə məhv edilib.

Müdafiə Nazirliyi düşmən tanklarının məhv edilməsi anlarını əks etdirən videosüjet yayıb.

Günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin üç ədəd topu məhv edilib.

Motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan məhv edilib

Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyət məhv edilib.

Azərbaycan Ordusunun bu istiqamətdə həyata keçirdiyi tədbirlər nəticəsində motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan da məhv edilib.

"Azərbaycan"

Bəşəriyyətin qənimi - müharibələr

Bu gün də kimyəvi silahlar ekologiyanın qəniminə çevrilib. Ağır bombardmançı bir təyyarədən atılan bomba ətrafa 3 min dərəcəlik isti yayır, bununla da florafauna ilə yanaşı, torpağın qalın qatları da yanır. Müharibə zamanı, təbii ki, su mənbələri də çirklənir. Dünyada içməli su ehtiyatları çox az hissəni təşkil edir ki, əgər bu hal davam etsə, içməli su qıtlığı yarana bilər.

Alim həyəcan təbili çalır



Şirin su çatışmazlığının tədricən dərinləşməsi bütün bəşəriyyəti düşündürməkdədir. Hazırda dünya əhalisinin 40 faizindən çoxu içməli su problemi ilə üzləşir. Araşdırmalar göstərir ki, bu problemin yaranmasında son zamanlar daha aydın müşahidə edilən iqlim dəyişmələri, insan fəaliyyəti ilə şirin su ekosistemlərinin çirklənməsi, əhali artımına müvafiq olaraq urbanizasiyanın və əkin sahələrinin sürətlə genişlənməsi və ən əsası da ardı-arası kəsilməyən müharibələrdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bir önəmli məsələ də azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi ilə bağlıdır. Azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimiz mövcuddur və su mənbələrimiz orada formalaşır. Biz uzun illər ərzində, 30 ilə yaxın müddətdə bu imkanlardan məhrum idik. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini, o cümlədən bu sahədə də aparırdı və bizə qarşı ekoloji terror təşkil edilmişdir. Meşələrin qırılması, qoruqların məhv edilməsi - 54 min hektar meşə sahəsi ermənilər tərəfindən kəsilib, dağıdılıb, talanıb, oğurlanıb və bu, böyük cinayətdir".

Bir nüvə sınağı ilə okeanların dərin qatlarındakı milyardlarla canlını məhv edir insan. Bir dəfə atılan kimyəvi silah insanla yanaşı milyonlarla canlının həyatına son qoyur. Həm canlıları məhv edir, həm ozon qatını. Havada yaranan radiasiya bu günümüzlə yanşı gələcəyimizi də təhdid edir. Böyük güclərin torpaq uğrunda gedən savaşları o torpaqlarda heç bir canlının yaşamasına imkan vermyəcək qədər amansızdır. ABŞ, İsrail və İran arasında gərginliyin hərbi qarşıdurmaya çevrilməsi təkcə siyasi və humanitar nəticələr doğurmur, ekosistemləri dağıdır, təbii ehtiyatları tükəndirir və uzunmüddətli ekoloji problemlər yaradır. Yaxın Şərq coğrafiyası ekoloji baxımdan həssas region hesab olunur. Fars körfəzi və Hörmüz boğazı isə qlobal enerji ticarətinin əsas xəttindən biridir. Bu xətdə baş verən hər hansı hərbi münaqişə qlobal miqyasda dəniz çirklənməsi təhlükəsi yaradır.

Qeyd etdiyimiz kimi, müharibənin dağıdıcı təsiri yalnız insan tələfatı və dağıdılmış şəhərlərlə məhdudlaşmır. Meşələrin yanması, çayların və dənizlərin çirklənməsi, torpağın münbitliyini itirməsi, havaya zəhərli maddələrin yayılması və heyvanların yaşayış yerlərinin məhv olması bütöv ekosistemləri təhlükə altına salır. Təbiətin məhv olması həm də insanların gələcəyinin təhlükə altına düşməsi deməkdir. Çünki təmiz hava, içməli su, münbit torpaq, sağlam meşələr və zəngin heyvanlar aləmi həyatın əsas şərtləridir. Bu zərərlərin bir hissəsi müharibə başa çatdıqdan sonra da onilliklərlə, bəzi hallarda isə daha uzun müddət davam edə bilir. Təbiətin məhv olması gələcək nəsillərin sağlamlığına, ərzaq təhlükəsizliyinə və yaşamaq imkanlarına da təsir göstərir. Müharibənin ekoloji fəsadlarını azaltmaq üçün sülhün qorunması, təbiətin mühafizəsi və zədələnmiş ərazilərin elmi əsaslarla bərpası vacibdir. Müharibələrin qlobal iqlimə ümumi təsirini isə dəqiq hesablamaq çətindir, çünki hərbi əməliyyatlar, yanğınlar, infrastrukturun dağıdılması və sonrakı bərpa işləri ayrıca qiymətləndirilməlidir.

Məsələn, ABŞ-İsrail-İran müharibəsinə aid konkret statistik məlumatlar mövcuddur. Xüsusilə ABŞ-nin strateji tədqiqat mərkəzi CSIS 2026-cı il kampaniyasında sərf edilən sursatın sayı və onun ehtiyatlara təsiri barədə ayrıca hesabatlar dərc edib. 2026-cı ilin fevralında başlayan kampaniyanı 2025-ci ilin iyununda baş vermiş 12 günlük İsrail-İran müharibəsi ilə qarışdırmamaq vacibdir. Bunlar ayrı hərbi əməliyyatlardır. 2026-cı il kampaniyası üzrə rəqəmlər: ABŞ-nin yer hədəflərinə qarşı istifadə etdiyi zərbə sursatı 13.629 ədəd, Tomahawk qanadlı raketləri 1.000-dən çox olmuşdur. ABŞ-nin müharibədə istifadə etdiyi sursatın təxmini əvəzetmə dəyəri 26,1 milyard dollar təşkil etmişdir. 13.629 rəqəmi bütün müharibədə istifadə olunan ABŞ zərbə sursatına aiddir, təkcə raketlərə yox. Buraya müxtəlif növ zərbə silahları daxildir. Hava hücumundan müdafiə üçün atılan raketlər isə ayrıca kateqoriyadır. 26,1 milyard dollar da müharibənin ümumi qiyməti deyil, ABŞ-nin sərf etdiyi sursatın əvəzlənməsi üçün hesablanmış təxmini məbləğdir. CSIS ABŞ üçün ümumi əlavə müharibə xərclərini 34-42 milyard dollar, mərkəzi qiymətləndirməni isə təxminən 40 milyard dollar hesablayıb.

Qeyd edim ki, bu rəqəmlərə dağıdılmış şəhərlərin və infrastrukturun bərpası, insan itkilərinin iqtisadi dəyəri və gələcəkdə yaranacaq bütün zərərlər daxil deyil. Ukraynanın Ekologiya və İqtisadiyyat Nazirliyinin 16 mart 2026-cı il məlumatına görə, təbiətə vurulmuş zərər 6,4 trilyon qrivnaya çatıb. Bu, təxminən 150-160 milyard dollar miqyasındadır. Bərpa işlərinə əsasən aşağıdakılar daxildir: minaların və partlamamış sursatların təmizlənməsi, neft, yanacaq, ağır metallar və digər zəhərli maddələrlə çirklənmiş torpaqların təmizlənməsi, çayların, göllərin və yeraltı suların bərpası, yandırılmış meşələrin, bataqlıqların və təbii yaşayış mühitlərinin bərpası, dağıdılmış sutəmizləmə sistemlərinin və ekoloji monitorinq şəbəkələrinin yenidən qurulması.

Burada çox vacib bir məqam var: müharibənin ekologiyaya vurduğu zərər yalnız çirkli torpağı və suyu təmizləməkdən ibarət deyil. Müharibə zamanı atmosferə buraxılan istixana qazları da iqlimə uzunmüddətli zərər vurur.

ABŞ-İsrail-İran müharibəsi üzrə ekoloji bərpa üçün təsdiqlənmiş, bütün tərəfləri əhatə edən ümumi büdcə hələ yoxdur. Buna görə dəqiq məbləğ söyləmək düzgün olmaz.

Prezident İlham Əliyevin dediyi kimi: "Bizim ətrafımızda məkanlar alovlanıb, qaynayır. Müharibələr bitmir, əksinə, yeni müharibə, münaqişə ocaqları yaranır - həm Şimalda, həm Cənubda, həm də Yaxın Şərqdə. Yəni perimetr üzrə bizim ətrafımızda müharibələr, toqquşmalar davam edir və bu müharibələrin dayandırılması üçün heç bir beynəlxalq mexanizm yoxdur və yəqin ki, olmayacaq. Çünki beynəlxalq hüquq tamamilə sıradan çıxıb. Ona əhəmiyyət verənlərin sayı kəskin azalır. Ona görə biz hər gün hazır olmalıyıq ki, istənilən hərbi təxribata cavab verək. Elə güc əldə etməliyik və bunu əldə edirik ki, heç kimin ağlına belə gəlməsin Azərbaycana qarşı hansısa təxribat törətmək. Ona görə bu, birinci vəzifədir və təsadüfi deyil ki, bizim bu gün müzakirə olunan dövlət büdcəmizdə, gələn ilin büdcəsində hərbi və təhlükəsizlik məsələləri yenə də ön plandadır və təqribən 9 milyard manata yaxın vəsait bu məqsədlər üçün nəzərdə tutulur".

Müharibələrin dünya ekologiyasına vurduğu zərbəni hazırda dəqiqliklə qiymətləndirmək mümkün deyil, çünki müharibələr davam edir və hər gün havaya, torpağa, suya, meşələrə, əkin sahələrinə böyük miqdarda zərər vurulur. Bu da o deməkdir ki, müharibənin əsl dəhşəti, vurduğu zərbə müharibələr başa çatdıqdan sonra gözlər önündə sərgiləniəcək. Və ən acı tərəfi budur ki, pul xərcləməklə belə məhv olmuş bəzi ekosistemləri, nəsli kəsilmiş canlıları və itirilmiş təbii sərvətləri əvvəlki vəziyyətinə qaytarmaq mümkün deyil. Aradan qaldırması üçün isə, mühüm addımların atılması vacibdir.

Hələ 2300 il öncə filosof Epikur insanlara üz tutaraq deyirdi: "İnsanlar, siz təbiətin naz-nemətindən qənaətlə istifadə etməklə, ona qarşı qəddarlığınızı ram etmək borcunuzu bir an belə unutmayın". Odur ki, hər birimizin ekoloji düşüncəsi, ekoloji mədəniyyəti, ekoloji bilik-savadı, ekoloji məsuliyyəti, ekoloji münasibəti, ekoloji sevgi-istəyi bəşəriyyət üçün çox gərəkdir.

Valeh CƏFƏROV,
AMEA-nın müxbir üzvü,
kimya elmləri doktoru, professor

(əvvəli qəzetin 22 və 29 oktyabr tarixli nömrələrində)



Orta dəhliz beynəlxalq logistikanın xilas yoludur

Davam edən müharibələr üzündən üç ən önəmli ticarət marşrutu iflic vəziyyətinə düşüb. Bu müharibələrin nə vaxt bitəcəyi isə məlum deyil. Rusiya-Ukrayna savaşı tezliklə sülhlə həll olunacağı deyilsə də, 5-ci ildir davam edir. Hörmüz və Bab-əl-Məndəd boğazlarında başlanan savaşın isə qarşıdakı dövrdə daha da şiddətlənəcəyi barədə məlumatlar yayılır.



Belə bir vəziyyətdə Orta dəhliz dünyanın yeganə ümid yerinə çevrilib. Çünki indiki halda Orta dəhliz Asiya ilə Avropa arasında olan ticarətin davam etməsi üçün ən yaxşı etibarlı ticarət marşrutudur.

Bu dəhlizin səmərəli fəaliyyət göstərməsində açar ölkə kimi Azərbaycan vacib rol oynayır. Azərbaycan həmçinin "Şimal-Cənub" marşrutunda yüklərin fasiləsiz daşınmasını təmin edə biləcək əsas ölkədir. Vaxtında apardığımız uğurlu logistika siyasəti region ölkələri tərəfindən də dəstəklənir. Çox sadə bir səbəbdən: təşəbbüslərimiz bütün tərəflərə fayda gətirir. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VIII Qurultayında bu barədə demişdir: "Yəni bu, uzunmüddətli strategiyadır, ölkəmizin önəmi getdikcə daha da artacaq. Buraya əgər biz nəqliyyat sektorunu əlavə etsək, - bu barədə də çox danışmaq istəmirəm, - sadəcə olaraq deyə bilərəm ki, bu il Azərbaycan ərazisindən keçən gözlənilən tranzit yüklərin həcmi 16 milyon tona çatacaq. Yəni bu, böyük bir artımdır. Vaxtilə biz 3-4 milyon tonu arzulayırdıq. İnfrastruktur yaratdıq, təmaslar qurduq, o cümlədən lazımi inzibati tədbirləri gördük və bu dəhlizləri - Orta dəhlizi və "Şimal-Cənub" dəhlizini çox cəlbedici etdik. Ancaq biz yarı yoldayıq. Mən qarşıya hədəf qoymuşam ki, Azərbaycan ərazisindən keçən tranzit yüklər orta müddətdə 30 milyon tona çatacaq. Gör nə qədər bizə əlavə vəsait gələcək, minlərlə iş yerləri yaradılacaq və ölkəmizin önəmi daha da artacaq".

Azərbaycan Orta dəhliz üzərindən daha çox yüklərin daşınması üçün Zəngəzur dəhlizinin (TRIPP) açılmasını zəruri hesab edir. 42 kilometrlik xəttin açılması ildə əlavə 15 milyon ton yükün daşınmasına imkan verəcək. Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında imzalanan sənəd isə Orta dəhlizin açılmasını qaçılmaz edir.

Amma Orta dəhliz üzərindən ildə 30 milyon ton yük daşınması üçün xeyli iş görmək lazımdır. Bu isə təkcə Azərbaycandan asılı məsələ deyil, region ölkələri də bu işdə fəallıq göstərməlidir. Azərbaycan Ekspeditorlar Assosiasiyası sədrinin müavini Elmir Poladov Bakıda keçirilən Avropa İttifaqı - Azərbaycan Biznes-Forumunda demişdir: "Orta dəhlizdə 3 əsas zəif halqa görürəm. Birincisi, Xəzər dənizində gəmi təminatı ilə bağlıdır. Dəniz keçidi hələ də ən böyük qeyri-müəyyənlik olaraq qalır. Hava şəraiti, bərə və Ro-Ro gəmilərinin tutumunun məhdud olması daşımaları çətinləşdirir. Bir çox gəmi hələ də sabit cədvəl üzrə deyil, yük tam dolduqdan sonra yola düşür. Əlverişsiz hava şəraiti isə hərəkəti günlərlə dayandıra bilər. Məsələn, ötən ilin dekabr və yanvar aylarında Aktau limanı 60 gün ərzində cəmi 10 gün, bəzi hallarda isə maksimum 15 gün fəaliyyət göstərib".

E.Poladova görə, ikinci zəif halqa keçid məntəqələrində sıxlıqla bağlıdır: "Gəmi, dəmir yolu və yük maşını arasında hər bir təhvil-təslim prosesi, həmçinin hər bir sərhəd keçidi yüklərin dayanmasına səbəb ola bilər. Tələbatın pik dövrlərində məhdud dayanacaq, park və vaqon tutumu əlavə çətinliklər yaradır. Bundan başqa, Türkiyəyə gedən marşrutda 1 520 və 1 435 millimetrlik dəmir yolu sistemləri arasında ölçü fərqi mövcuddur. Digər problem yük axınlarının balanssızlığıdır. Dolu konteynerlər şərqdən qərbə daşınır, lakin boş konteynerlərin kimin hesabına yenidən şərqə qaytarılması açıq qalır. Bu, artıq ciddi problemə çevrilib. Məhz buna görə də Uzaq Şərqdən Azərbaycana və Avropaya gətirilən konteynerlərin əksəriyyəti birtərəfli daşımalar üçün istifadə olunur. Ekspeditorlar və ya daşıyıcılar bu konteynerləri vəsaitləri hesabına əldə edir, daha sonra isə onların kimə satılacağını və necə istifadə ediləcəyini müəyyənləşdirməyə çalışırlar. Çünki konteynerlər son təyinat məntəqəsinə çatdıqdan sonra artıq növbəti daşımalar üçün istifadə oluna bilmir".

Üçüncü məsələyə gəldikdə bu, ölkələr arasında inteqrasiya ilə əlaqədardır: "Burada təkcə infrastruktura deyil, eyni zamanda informasiyaya da diqqət yetirmək lazımdır. Hər ölkənin öz dəmir yolu operatoru, sənədləşmə prosedurları və tarifləri var. Nəticədə çox vaxt eyni xüsusiyyətlərə malik iki yük təyinat məntəqəsinə bir neçə gün fərqlə çatır və bunun səbəbi dəmir yolu daşımaları ilə bağlı deyil, sənədləşmə proseslərindən qaynaqlanır. Belə halda müştərilərimiz də yüklərinin başlanğıc nöqtəsindən son təyinat məntəqəsinədək harada olduğunu izləyə bilmirlər. Məsələn, konteyner Çində və ya Qazaxıstanda olduqda onu asanlıqla izləyə bilirik. Lakin onun Aktaudan nə vaxt yola düşəcəyini, Ələtə nə vaxt çatacağını, Ələtdən nə vaxt göndəriləcəyini, həmçinin Gürcüstana və ya Türkiyəyə nə vaxt çatacağını dəqiq proqnozlaşdıra və müştəriyə məlumat verə bilmirik".

E.Poladov onu da vurğulayıb ki, bu problemlər üzrə irəliləyiş var: "Məsələn, Xəzər dənizində Ro-Ro gəmiləri və bərələrlə yanaşı, artıq kiçik konteyner daşıyıcıları da fəaliyyət göstərir. Yeni, daha böyük gəmilər tikilir və onların gələn il istismara verilməsi gözlənilir. Quru marşrutunda isə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyəti 5 milyon tona çatdırılıb. Ələt limanı genişləndirilir, Azərbaycan isə milli "Bir pəncərə" sistemi qurur. İndi əsas vəzifəmiz bu təkmilləşdirmələri əlaqələndirməkdir ki, müştəri beş ayrı sistemlə deyil, vahid və inteqrasiya olunmuş dəhlizlə işləsin".

Rüstəm KAMAL,
"Azərbaycan"

Rifah, təhlükəsizlik və investisiya

Bunlar gələn ilin də büdcə xərclərində əsas sahələr olacaq

Dövlət büdcəsi ölkənin iqtisadi və sosial prioritetlərini müəyyən edən əsas maliyyə sənədidir. Bu kontekstdə Azərbaycanın 2027-ci il dövlət büdcəsi layihəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsi, müdafiə və milli təhlükəsizliyin təmin olunması, eləcə də iqtisadi inkişafı dəstəkləyən investisiya layihələrinin maliyyələşdirilməsi diqqətçəkən istiqamətlərdəndir.



Həmin sahələrə ayrılması nəzərdə tutulan vəsaitin həcmi dövlətin sosial öhdəliklərinin yerinə yetirilməsi, təhlükəsizlik potensialının möhkəmləndirilməsi və infrastrukturun inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Bəs gələn ilin büdcəsində bu istiqamətlər üzrə nə qədər vəsait nəzərdə tutulur və xərclərin bölgüsü hansı prioritetləri ortaya qoyur?

Bəri başdan qeyd edək ki, "2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi artıq Milli Məclisə daxil olub. Layihənin noyabrın əvvəlində parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəyə çıxarılması nəzərdə tutulur. Büdcə zərfinin yalnız profil komitədə deyil, digər komitələrlə birgə iclaslarda da müzakirəsi planlaşdırılır.

2027-ci il üçün dövlət büdcəsinin gəlirlərinin 39 milyard 234 milyon, xərclərinin isə 42 milyard 400 milyon manat olması planlaşdırılır. Layihədə sosialyönümlü xərclərin ümumi xərclərin 44 faizini təşkil etməsi proqnozlaşdırılır ki, bu da sosial sahənin dövlətin maliyyə siyasətində əhəmiyyətli yer tutduğunu göstərir. Dövlət büdcəsinin sosial mahiyyəti ilk növbədə insanların həyatına təsiri ilə ölçülür. Pensiya və müavinətlər, təhsil və səhiyyə xidmətləri, aztəminatlı ailələrə dəstək və həssas qrupların sosial müdafiəsi milyonlarla insanın gündəlik həyatında mühüm rol oynayır. Ona görə də sosial xərclərə yalnız maliyyə göstəricisi kimi baxmaq doğru olmaz. O, dövlətin vətəndaşı qarşısında sosial öhdəliklərinin ifadəsidir.

Müdafiə və milli təhlükəsizliyə gəlincə, 2027-ci ilin dövlət büdcəsi layihəsində bu sahələrə ümumilikdə 8 milyard 816,4 milyon manat ayrılması nəzərdə tutulur. Həmin məbləğin 3,37 milyard manatı müdafiə qüvvələrinə, 479,2 milyon manatı milli təhlükəsizliyə, təxminən 554 milyon manatı isə sərhəd xidmətinə yönəldilməsi proqnozlaşdırılır. Bununla yanaşı, digər müdafiə tədbirləri və xüsusi təyinatlı layihələrin maliyyələşdirilməsi üçün də vəsaitin ayrılacağı gözlənilir.

Bu xərclər Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində qarşıya qoyduğu vəzifələrin maliyyə təminatı baxımından çox əhəmiyyətlidir.

Ayrılan vəsaitin konkret istiqamətlər üzrə bölgüsü isə ölkənin müdafiə potensialının möhkəmləndirilməsi və təhlükəsizlik sisteminin davamlılığının təmin olunmasından dolayı diqqət çəkir.

Büdcənin digər mühüm istiqamətlərindən biri investisiya layihələrinin və iqtisadi inkişaf tədbirlərinin maliyyələşdirilməsidir. Bu sahədə xərclərin qiymətləndirilməsi zamanı dövlət əsaslı vəsait qoyuluşunu iqtisadi fəaliyyət üzrə ümumi xərclərdən fərqləndirmək vacibdir. Çünki iqtisadi fəaliyyət bölməsi daha geniş sahələri əhatə edir və onun bütün məbləği birbaşa investisiya xərcləri hesab edilə bilməz. Gələn ilin dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu, yəni investisiya xərcləri üçün 5,3 milyard manat ayrılması nəzərdə tutulur. İqtisadi fəaliyyət üzrə ümumi xərclər isə 8,9 milyard manata yaxındır. Bu vəsaitlər infrastrukturun inkişafı, tikinti və şəhərsalma, nəqliyyat və digər iqtisadi istiqamətlər üzrə tədbirlərin maliyyələşdirilməsi baxımından əhəmiyyət kəsb edir.

İnvestisiya siyasətinin mühüm istiqamətlərindən biri də Qarabağ və Şərqi Zəngəzurda bərpaquruculuq işlərinin davam etdirilməsidir. 2027-ci ildə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və məskunlaşma tədbirləri üçün 3,4 milyard manat vəsait nəzərdə tutulur. Həmin vəsaitin əhəmiyyəti yalnız yeni yolların, yaşayış məntəqələrinin və infrastruktur obyektlərinin yaradılması ilə ölçülmür. Əsas məqsəd insanların doğma yurdlarına qayıdışı, ərazilərdə dayanıqlı yaşayışın təmin edilməsi və iqtisadi həyatın canlandırılması üçün zəruri şəraitin formalaşdırılmasıdır.

Beləliklə, 2027-ci ilin büdcə layihəsi sosial öhdəliklərin maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin gücləndirilməsi və iqtisadi inkişafın dəstəklənməsi üçün müxtəlif istiqamətlər üzrə vəsait bölgüsünü nəzərdə tutur. Bu bölgünün real nəticələri isə ayrılan vəsaitlərin hansı proqramlara yönəldilməsindən, layihələrin icra səviyyəsindən və vəsaitin səmərəli istifadəsindən asılı olacaq.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Ölkəmizin özəl sektorunun təmsilçiləri İstanbulda COMCEC çərçivəsində sammitdə iştirak edirlər

Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 42-ci toplantısı keçirilir. Tədbir çərçivəsində üzv dövlətlərin biznes icmalarını, investorlarını və siyasətçilərini bir araya gətirən "B57+ Biznes Liderləri Sammiti 2026" təşkil edilib.

AZƏRTAC xəbər verir ki, "Böyük dönüşüm: Qlobal Cənubun dözümlülüyü üçün İƏT kapitalının hərəkətə keçirilməsi" mövzusunda baş tutan sammit İƏT və daha geniş coğrafiyada iqtisadi əməkdaşlığın gələcəyini formalaşdıran liderlərin, siyasətçilərin, investorların və təşkilatların görüş nöqtəsinin ortaq platforması olmağı hədəfləyir.

Tədbirdə çıxış edən Türkiyənin ticarət naziri Ömer Bolat və digərləri qlobal ticarətin mövcud vəziyyəti, iqtisadi narazılıqlar və bunun fonunda əməkdaşlıqlarda yaranan qeyri-müəyyənliklər barədə danışıb, bu məqsədlə ortaq platformun fəaliyyətinin zəruriliyini qeyd edilib.

Vurğulanıb ki, İƏT üzvü olan 57 ölkə 2 milyarddan çox əhalisi (dünya əhalisinin dörddə biri), 10 trilyon ABŞ dolları həcmində iqtisadi buraxılışı və 5 trilyon dollara yaxın ticarət dövriyyəsi ilə qlobal iqtisadiyyatda nəhəng potensiala malikdir. Son 20 ildə təşkilata üzv ölkələr arasında daxili ticarət payı 6 faizdən 20 faizə yüksəlib. Türkiyənin İƏT ölkələri ilə ticarət dövriyyəsi isə 2013-cü ildəki 87,5 milyard dollardan ötən il təxminən 120 milyard dollara çatıb.

Sammitin əsas məqsədi dialoqu müqavilələrə, maneələri körpülərə və ortaq iddiaları davamlı iqtisadi tərəqqiyə çevirərək bu böyük potensialı real investisiyalara, keyfiyyətli məşğulluğa və yüksək rifaha inteqrasiya etməkdir. Tədbir panel iclaslarla davam etdirilib.

Sammitdə Azərbaycanın özəl sektorunun təmsilçiləri iştirak edirlər.

Qeyd edək ki, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası (ICCD) və Türkiyə Palatalar və Birjalar Birliyi (TOBB) tərəfindən yaradılan "B57+" platforması, İƏT-ə üzv 57 ölkə və tərəfdaş iqtisadiyyatlar arasında dövlət və özəl sektorları bir araya gətirən strateji bir körpü rolunu oynayır.

9 ayda qeyri-neft sektoru üzrə ixrac 20,5 faiz artıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın 2026-cı ilin oktyabr sayını təqdim edib. İcmala əsasən, bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,5 faiz artaraq 3,2 milyard dollar olub.



Təkcə sentyabr ayında bu göstərici 50,2 faiz artaraq 372,8 milyon dollara çatıb. Ümumilikdə bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 17,2, qeyri-yeyinti məhsullarının ixracı isə 47,8 faiz artıb.

Hesabat dövründə ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları ötən ilin müvafiq dövrünə nəzərən 2,4 dəfə, alüminium və ondan hazırlanan məmulatlar 41, qara metallardan hazırlanan məmulatlar 32,2, bitki və heyvan mənşəli piylər və yağlar 31,6, mis və ondan hazırlanan məmulatlar 21,7, pambıq 16,6, qəhvə və çay 13, yeməli meyvələr 12,5, tərəvəzlər 9,4, qara metallar isə 8,5 faizə qədər çoxalıb.

Yanvar-sentyabr aylarında aqrar məhsullar üzrə ixrac 16,5, aqrar-sənaye məhsulları üzrə 28,6 faiz artıb. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının ixracından 19,6 faiz artım qeydə alınıb.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, mis filizləri və konsentratları ikinci, tomat isə üçüncü olub. Sentyabr ayı ərzində isə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında yenə də qızıl birinci, mis filizləri və konsentratları ikinci yerdə qərarlaşıb. Üçüncü isə mineral və ya kimyəvi azot gübrələri olub.

9 ayda qeyri-monetar qızıl istisna olmaqla Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə və Ukraynaya ən çox qeyri-neft məhsulları ixrc edilib.

Hesabat dövrü üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda bu şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Prime Cotton" MMC, "Baku Steel Company" QSC, "Tabaterra" MMC, "Prime Export" MMC, "Vvest Stream" MMC və "Agrarco" MMC, "Silk Way Aviaşirkəti" MMC və "P-Aqro" MMC. İxrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-in "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi başçılıq edib. Daha sonra həmin siyahıda təmsil olunan şirkətlər bunlardır: "AzerGold" QSC, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Naxçıvan Enerji" MMC və "SOCAR Cape" MMC.

2026-cı ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 36 ölkəsindən olan 95-ə yaxın şirkətə ümumilikdə 19,6 milyon dollar dəyərində telekommunikasiya xidmətləri göstərilib. Bu dövr ərzində formalaşan ümumi gəlirlərin 61 faizini ixrac əməliyyatları təşkil edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan və Misir qərarlaşıb. Onu da vurğulayaq ki, yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

R.MÜTƏLLİBOV,
"Azərbaycan"

Petro ROMANOV: "Müharibədən sonra Azərbaycan şirkətləri Ukraynanın enerji infrastrukturunun bərpasında iştirak edə bilər"

"Müharibə bitdikdən sonra Ukraynada enerji infrastrukturunun genişmiqyaslı bərpası və modernləşdirilməsi həyata keçiriləcək. Bu, əhəmiyyətli investisiyalar, müasir avadanlıqlar, mühəndislik həlləri və beynəlxalq tərəfdaşların iştirakını tələb edəcək. Bərpa işləri Azərbaycan şirkətləri üçün energetika və elektrik avadanlıqlarının təchizatından tutmuş generator qurğularının, yarımstansiyaların, şəbəkə infrastrukturunun, bərpaolunan enerji qurğularının, enerji saxlama sistemlərinin tikintisi və modernləşdirilməsində iştirak etməyə qədər geniş imkanlar açır".

Bu barədə AZƏRTAC-a **Azərbaycan-Ukrayna Enerji Assosiasiyasının ukraynalı həmsədri Petro ROMANOV** bildirib.

O əlavə edib: "Fikrimcə, iki ölkənin mühəndislik, istehsal və investisiya imkanlarını birləşdirən birgə Ukrayna-Azərbaycan konsorsiumlarının yaradılması xüsusilə perspektivli ola bilər. Bu format təkcə avadanlıq təchizatı mərhələsində deyil, artıq hazırlıq və dizayn mərhələsində olan əsas infrastruktur layihələrində iştirak etməyə imkan verəcək".

P.Romanovun sözlərinə görə, Ukraynanın bərpası sadəcə zədələnmiş obyektlərin əvvəlki vəziyyətinə qaytarılması məsələsi deyil. Bu, daha müasir, dayanıqlı və texnoloji cəhətdən inkişaf etmiş enerji sistemi yaratmaq üçün fürsətdir. O, Ukrayna tərəfinin Azərbaycan şirkətlərinin bu prosesdə fəal iştirakçı olmasını istədiyini vurğulayıb.

"Bu gün biz əməkdaşlığa avadanlıq təchizatından və ya fərdi texnologiyaların tədarükündən daha geniş miqyasda baxırıq. Söhbət elmi potensialı, mühəndislik təcrübəsini və sənaye istehsalını birləşdirən tamhüquqlu texnoloji tərəfdaşlıqdan gedir. Bu format bizə hər iki ölkənin ixtisaslaşmış təşkilatlarını və müəssisələrini, zərurət yarandıqda isə beynəlxalq texnologiya tərəfdaşlarını cəlb etməklə konkret enerji layihələri üçün birgə kompleks həllər hazırlamağa imkan verir. Bu əməkdaşlığın Azərbaycan ilə Ukrayna arasında uzunmüddətli sənaye əməkdaşlığının inkişafına və birgə texnoloji həllərin yaradılmasına töhfə verməsi bizim üçün xüsusilə vacibdir", - deyə Petro Romanov bildirib.



Mədəniyyət



● Ədəbi simalar

"Mən ağ sular kimi axıb getmərəm..."

Ötən əsrin birinci yarısında Azərbaycan ədəbiyyatının tanınan simalarından biri də şair, dramaturq və tərcüməçi Məmməd Rahim olmuşdur.

Onun "Gördüm" adlı ilk şeiri 1926-cı ildə, ilk şeir kitabı "Arzular" isə 1930-cu ildə çap olunmuşdur. Tələbəlik illərindən başlayaraq, Məmməd Rahim həm də "Azərnəşr"də tərcüməçilik etmişdir. Bu zaman o, dövrün görkəmli şairləri Əhməd Cavad və Hüseyn Cavidin təşəbbüsü ilə Bakıda yaradılmış "Yaşıl yarpaqlar" dərnəyinin üzvü olmuş Mikayıl Müşfiq və Almas İldırımla dostluq etmişdir. Əbəs yerə deyildir ki, hər üç şair yaradıcılığa qədəm qoyduqları ilk vaxtlardan özlərini Əhməd Cavad ədəbi məktəbinin yetirməsi hesab edirdi.

Mən ağ sular kimi axıb getmərəm,
Şimşəyəm, havayı çaxıb getmərəm.
Dünyanı pəncərə sandı babalar,
Mən ondan mənasız baxıb getmərəm.

- deyən Məmməd Rahimin bu misralarını oxuculara xatırladan ustad tənqidçi, akademik Məmməd Arif yazır ki, o, 30 il əvvəl Səməd Vurğun, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Osman Sarıvəlli, Rəsul Rza kimi şairlərlə bir dövrdə ədəbiyyata gəlmiş və o zamandan bu cəbhədə fəal çalışmaqdadır.

1931-ci ildə institutu uğurla başa vuran gənc elə həmin il 1-ci Bakı beşillik sovet məktəbində pedaqoji fəaliyyətə başlamışdır. M.Rahim 1938-1940-cı illərdə Azərbaycan Yazıçılar İttifaqında şeir bölməsinin rəhbəri və təşkilat katibi, 1941-1946-cı illərdə müdafiə bölməsinin rəhbəri, habelə İranda xüsusi ezamiyyətdə olmuşdur. 1946-cı ildən geniş ədəbi yaradıcılıqla məşğul olduğuna görə işləməmişdir. Müəyyən fasilədən sonra - 1947-1950, 1951-1952-ci illərdə yenidən Yazıçılar İttifaqında poeziya bölməsinə rəhbərlik etmişdir. Türkiyə və Aralıq dənizində səfərdə olmuş şair xəstələndiyi vaxtadək yalnız yaradıcılıqla məşğul olmuşdur. 1955-ci ildə "Xaqani" mənzum dramını, 1956-cı ildə "Sayat Nova" , 1962-ci ildə "Natəvan" poemalarını yazmış, Ş.Petefi, Beranje, A.Tvardovski, A.Blok, Şiller, Nekrasov və digərlərindən tərcümələr etmişdir.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Məmməd Rahimin əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və bir sıra xarici dilə tərcümə olunmuşdur. Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri yüksək qiymətləndirilən şair 1940-cı ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi, 1949-cu ildə Stalin mükafatı laureatı adına layiq görülmüşdür. 1941-1945-ci illəri Məmməd Rahim yaradıcılığının ən məhsuldar dövrü hesab etmək olar. Həmin illərdə M.Rahimin poeziyası sərt və döyüşkən xarakter almışdır. Onun "Üç qardaş", "Müqəddəs kədər", "İkiqat cinayət", "Onu Don qucaqladı", "Aslanım partizandır", "Tək məzar", "Sənsiz" və bir çox başqa şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Böyük Vətən müharibəsinin qızğın çağlarında Səməd Vurğunun "Məmməd Rahimin yaradıcılığı haqqında" yazdığı məqalənin ilk cümləsi belə başlayır: "Məmməd Rahimin poeziyası xalqımız arasında böyük şöhrət qazanmışdır". Bu, doğrudan da belə idi. Bu şeirlər ilk növbədə, öz lirik səciyyəsi ilə seçilirdi. Ədəbiyyatşünasların fikrincə, şairin lirikası öz həzinliyi, kövrəkliyi ilə diqqəti cəlb edir.

Müharibə mövzusu Məmməd Rahimin yaradıcılığında müharibədən sonra da davam etmişdir. Müharibədən az sonra şair "Leninqrad göylərində" poemasını yazmışdır. Əsərin qəhrəmanı Hüseynbala Əliyevin döyüş yolu və onun qəhrəmanlığı vətənpərvərliyin poeziyada əbədi dəyər qazanması idi. Bu poemanı Məmməd Rahimin ən gözəl və ən dəyərli əsəri hesab etsək, yanılmarıq. Poema qısa müddətdə Azərbaycan poeziyasının uğuruna çevrilmiş, Dövlət mükafatına layiq görülmüşdür.

Məmməd Rahim yaradıcılığından söz açanda onun tərcüməçilik fəaliyyətindən də yan keçmək olmaz. Professor Vaqif Yusifli yazır: "Onun tərcüməçilik fəaliyyəti orijinal yaradıcılığı qədər dəyərlidir. Çünki Rahim tərcümə işinə barmaqarası baxmayıb, poetik istedadının gücü ilə Şərq və Qərb şairlərinin əsərlərini dilimizdə məharətlə səsləndirə bilib". O, dahi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasını farscadan dilimizə çevirmişdir. Hələlik bu əsərin ən yaxşı və uğurlu tərcüməsi Rahimə məxsusdur. Böyük gürcü klassiki Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin bir hissəsinin tərcüməsi də Rahimin qələmindən çıxmışdır. Puşkinin "Ruslan və Lyudmila" poeması və bir sıra digər şeirləri, Lermontovun bir çox şeir və poemaları, Blokun "On ikilər" poeması da M.Rahim tərcüməsində Azərbaycan oxucularına çatdırılmışdır. Onların bir çoxu indi də öz poetikliyini saxlayır.

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri yüksək qiymətləndirilən Məmməd Rahim 1964-cü ildə Azərbaycan SSR Xalq şairi fəxri adına layiq görülmüşdür. 1967-ci ildə "Lenin" ordeninə, 1965-ci ildə "Qırmızı Əmək bayrağı", 1977-ci ildə "Oktyabr inqilabı" ordenlərinə və medallara, habelə fəxri fərman və qiymətli hədiyyələrə layiq görülmüş şair 1977-ci il mayın 6-da vəfat etmişdir.



Rəhman SALMANLI,
"Azərbaycan"

● İncəsənət xadimlərimiz

Moskvada doğulub orada yaşasa da, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi kimi tanındı

Baxdığımız elə filmlər var ki, üstündən uzun illər keçsə də, onları heç vaxt unutmur, tez-tez xatırlayır və fürsət düşəndə yenidən seyr edirik. "Şərikli çörək", "Alma almaya bənzər", "Bizi bağışlayın", "Şir evdən getdi", "Var olun, qızlar", "Cırtdan", "Avtomobil, skripka və it", "Unudulmuş əşyalar", "Orada, naməlum cığırlarla…" kimi məşhur ekran əsərləri belə baxımlı, unudulmayan filmlərimizdəndir.

Başqa ekran əsərlərində olduğu kimi, indi də baxılan "Şərikli çörək" filminin də bəzi yaradıcıları kadr arxasında qalıb, necə deyərlər, gözə görsənməyib. Filmdə obrazları sənətkarlıqla canlandıran aktyorları yaxından tanısaq da, onlara bu rolu həvalə edən, qəhrəmanlara çevirən sənətkarların kimlər olduqlarını kifayət qədər bilmirik. Yəqin ki, bu gün də tamaşaçıları heyran edən həmin filmin ssenari müəllifinin Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar İncəsənət xadimi Alla Axundovanın olduğundan bəziləri məlumatsızdır. "Şərikli çörək" Alla xanımın ssenarist kimi kinoda ilk addımıdır, həm də uğurlu addım. Filmin uzun illərdən bəri sevilə-sevilə baxılması dediklərimizin həqiqət olduğunu bir daha sübut edir.

Onu da qeyd edək ki, Alla Axundova "Şərikli çörək" filminə görə Dövlət mükafatına layiq görülüb. Alla xanım filmlərə ssenari yazmaqla bərabər, həm folklorumuzun nümunələrini, həm də Azərbaycanın tanınmış şair və yazıçılarının əsərlərini rus dilinə çevirməklə milli mədəni irsimizin təbliğinə böyük töhfələr verib. Azərbaycan ədəbiyyat və incəsənətinin tanınmış simalarından, nüfuzlu insanlarından biri olan Alla Axundova illər uzunu yaşadığı Moskvada xalqımızın mədəniyyətini və mənəvi dəyərlərini layiqincə təmsil edən ziyalılarımızdan olub. O, 15 ekran əsərinin ssenarisini yazmaqla bərabər, həm də 50-yə yaxın tərcümə, 30-dan çox orijinal kitabın müəllifidir.



Bənzərsiz yaradıcılıq yolu keçmiş Alla Axundova 1939-cu il oktyabrın 27-də Moskvada dünyaya göz açıb. 1964-cü ildə Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyub. 1967-ci ildə isə Ali rejissorluq və ssenaristlər kursunun ssenari bölməsini bitirib. Ədəbiyyata şeirlə gələn Alla xanımın ilk qələm nümunələri 1957-ci ildə "Moskovski komsomolets" qəzetində dərc olunub. Bundan sonra onun imzası mətbuatda tez-tez görünüb, əsərləri oxucular tərəfindən sevilib, ədəbiyyat aləmində tanınmağa başlayıb, şair, nasir, dramaturq, tərcüməçi və ssenarist kimi tanınıb.

Alla Axundovanın "Hələ payız deyil" şeiri məşhur rus şairi Anna Axmatovanın diqqətini çəkib və onun rəğbətini qazanıb. Bu tanışlıq onun yaradıcılığında mühüm rol oynayıb. A.Axundovanın şeirləri yalnız tanınmışların deyil, sadə oxucuların da ürəyinə yatıb, qəlbini oxşayıb. Məhz elə buna görə də Alla xanımın şeirləri sonrakı illərdə dünya xalqlarının, o cümlədən ingilis, fransız, rumın, yapon və başqa dillərə tərcümə olunub. Alla Axundovanın "Ağ işıq", "Bazar günü bağı", "Pillələr", "Mənzərəli açıqcalar", "Şən atlar", "Baltasız odunçu", "Moskva panoraması", "Niyə belə olur?", "Həvvanın sözü", "Quş", "Karnaval" kimi şeir kitabları bu gün də maraqla oxunur.

Moskvada doğulmağına və rus dilində yazıb-yaratmasına baxmayaraq, Alla Axundovanın yaradıcılığının böyük hissəsi doğma vətəni ilə bağlı olub. O, kinomuzun yaddaqalan ekran əsərlərinin ssenaristi olmaqla yanaşı, həm də Azərbaycan ədəbiyyatını rusdilli oxuculara təqdim edən tərcüməçilərdən biri kimi də tanınıb və sevilib. Alla xanım Azərbaycanın görkəmli şairləri Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Rəsul Rza, Nigar Rəfibəyli, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Fikrət Qoca və başqalarının əsərlərini böyük sənətkarlıqla rus dilinə çevirib. Bütün bunlarla yanaşı, Alla xanım həmçinin Azərbaycan və ümumtürk ədəbi irsinin ən dəyərli abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanını rus dilinə tərcümə edib. Həmçinin türk, ərəb, gürcü, özbək, başqırd və digər xalqların ədəbiyyatından dəyərli nümunələri də dilimizə çevirib.

Görkəmli şair, nasir, dramaturq, ssenarist və tərcüməçi Alla Axundovanın mədəniyyətimizin, ədəbiyyatımızın inkişafındakı xidmətləri zaman-zaman layiqincə qiymətləndirilib. O, 1970-ci ildə Respublika Dövlət mükafatı alıb. 1988-ci ildə isə ona Əməkdar İncəsənət xadimi fəxri adı verilib. Alla Axundova həmçinin Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü olub.

Bu il sentyabrın 17-də Moskvadan gələn acı xəbər onu sevənləri, yaradıcılığına pərəstiş edənləri dərindən kədərləndirdi. 86 yaşlı Alla Axundova dünyasını dəyişmişdi. Onun ölümü ədəbiyyatımız və mədəniyyətimiz üçün ağır itki idi. O, Moskvadakı Vaqankovo qəbiristanlığında, qızı Məryəmin və qardaşı Fikrətin məzarlarının yanında dəfn olundu.

Alla Axundova yaradıcılığa başladığı ilk günlərdən ömrünün sonuna qədər sözə, kitaba, tarixə, ədəbiyyatımıza, mədəniyyətimizə və milli yaddaşımıza sadiq qaldı, ona xidmət etdi. Ömrü boyu bir-birindən maraqlı əsərlər yazan, tərcümələr edən Alla xanım özündən sonra zəngin mənəvi irs qoydu. Alla xanım yazdığı əsərlərdə və onu yaxşı tanıyan yaxınlarının, doğmalarının və sənət dostlarının xatirələrində yaşayacaq.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

● Tarixi şəxsiyyətlər

İtmiş xəzinə

63 övladı olan Bəhmən Mirzənin zəngin kitabxanası da vardı

Onun yaradıcılığı Azərbaycanın zəngin dövlətçilik və mədəniyyət tarixini özündə əks etdirir. Qacarlar sülaləsinin görkəmli nümayəndəsi Bəhmən Mirzə Abbas Mirzə oğlu Qacar Qovanlı dövlət xadimi olmaqla yanaşı, tarixə və ədəbiyyata marağı, təzkirəçilik fəaliyyəti, zəngin kitabxanası ilə tanınır. O, mürəkkəb, ziddiyyətli bir dövrün siyasi hadisələrini, elmi düşüncəsini və mədəni əlaqələrini əsərlərində təcəssüm etdirib.



Bəhmən Mirzə 1810-cu ilin oktyabrında Təbrizdə Qacarlar dövlətinin vəliəhdi Abbas Mirzənin ailəsində dünyaya gəlib. Fətəli şahın nəvəsi, Məhəmməd şahın qardaşı idi. O, kiçik yaşlarından mükəmməl təhsil almışdı. Klassik Şərq ədəbiyyatını, tarixi, fəlsəfəni dərindən öyrənməsi Bəhmən Mirzənin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdı.

Saray mühitində böyüməsi və ailəsinin siyasi mövqeyi onun erkən yaşlarından dövlət idarəçiliyi ilə tanış olmasına şərait yaratmışdı. Məhəmməd şahın hakimiyyəti dövründə Bəhmən Mirzə bir sıra vəzifələrdə çalışıb. O, Təbrizin valisi, Azərbaycanın hakimi olub. Bəhmən Mirzə həm də bacarıqlı sərkərdə idi. Bir müddət ordunun baş komandanı olmuşdu.

XIX əsrin birinci yarısında Qacarlar dövlətində saray çəkişmələri, hakimiyyət uğrunda rəqabət və əyalətlərin idarə olunması ilə bağlı çətinliklər Bəhmən Mirzənin də taleyinə təsir göstərib. Onu taxt-taca sahib olmuş qardaşı Məhəmməd şah Qaçarın gözündən salıblar. Hökmdarın qəzəbinin, kin-küdurətinin getdikcə artması Bəhmən Mirzəni çıxılmaz vəziyyətdə qoyub. Son çarəni sarayla həmişəlik vidalaşmaqda, çar imperiyasına pənah gətirməkdə görüb. Şahzadə çar hökuməti tərəfindən adına, nüfuzuna, şöhrətinə layiq şəkildə, ehtiram və dəbdəbə ilə qarşılanıb.

1848-ci ildə Bəhmən Mirzə yaşamaq üçün Tiflisi seçib. Bir neçə il həmin şəhərdə, sonra Naxçıvanda qalsa da, mənəvi rahatlığı Qarabağda tapacağını düşünüb. 1851-ci ildə çar hökuməti onun Şuşaya köçməsinə həm razılıq verib, həm də şərait yaradıb. Şahzadənin hələ Rusiya imperiyası ərazilərinə doğru yola çıxarkən böyük kitabxanasını, babası Fətəli şahın, eləcə də atası Abbas Mirzənin arxivini və digər qiymətli tarixi materialları doxsan beş dəvəyə yükləyərək gətirdiyi məlumdur. Haqqında yazılanlara görə, o, dəyərli məlumatlarla zəngin 38 mindən artıq kitabı həyatı boyu oxuyub öyrənərək tədqiqatlar aparıb. Onların əsasında yeni əsərlər qələmə alıb.

Şuşa XIX əsrdə Azərbaycanın mühüm siyasi, ədəbi və mədəni mərkəzlərindən biri idi. Şəhərdə formalaşmış ədəbi mühit, musiqi ənənələri, maarifçilik meyilləri Bəhmən Mirzənin sonrakı fəaliyyətinə də təsir göstərib. Eyni zamanda Baharlının yazdığına görə, səltənət naibi Abbas Mirzə Qacarın oğlu şahzadə Bəhmən Mirzə Qacarın Şuşa şəhərində məskunlaşması şəhərin ictimai həyatında mühüm rol oynayıb.

Sözü, sənəti yüksək dəyərləndirən Bəhmən Mirzə Qarabağda fəaliyyət göstərən ədəbi məclislərdə, xeyriyyə işlərində yaxından iştirak edib. Bəhmən Mirzənin 63 övladı - 31 oğlu və 32 qızı olub. O, uşaqlarının mükəmməl təhsil almasına səy göstərib. Bu barədə Baharlı "Qarabağnamələr"ində qeyd edib: "Bəhmən Mirzə Şuşada ailəsi üçün böyuk saray tikdirmiş, xanımları, övladları üçün otaqlar təşkil eləmişdi. Böyuk mətbəxi, hamam və müsafirxanası məşhur idi. Qız və oğlan uşaqlarının oxuması üçün müəllimlər tutmuş, dərsxana təşkil etmişdi. Bəhmən Mirzə Qacar 1884-cü ildə vəfat etdikdən sonra ailəsi Şuşa sarayını qoruyub saxlamadı, bütün mal və mülkləri satdılar. Saray 1905-ci ildə ermənilər tərəfindən tamamilə məhv edilmiş, yandırılmışdır".

Bəhmən Mirzə ömrünün axırınadək öz zəngin kitabxanasını böyük təəssübkeşliklə qorumuşdu. Kitablar arasında vaxt keçirməyi, mütaliə etməyi, araşdırmalar aparmağı çox sevib. Onun kitabxanası Azərbaycanın ən dəyərli milli sərvəti, qiymətli xəzinələrindən biri idi. Təəssüf ki, Bəhmən Mirzə dünyadan köçdükdən sonra həmin kitabxana qorunub saxlanılmadı. Həmidə xanım Cavanşir-Məmmədquluzadə "Xatirələrim"də bu barədə yazıb: "1918-ci il dekabrın ilk günlərində Mirzə Cəlil kənd təsərrüfatı işlərini bitirib dincəlmək üçün Şuşaya yanımıza gəldi. O, "Anamın kitabı" adlı yeni bir pyes yazmağa başlamışdır. Dedi ki, bu pyesi yazmaqdan ötrü ona müxtəlif lüğətlər lazımdır. Soraqlaşdım, dedilər ki, belə lüğətləri poçtalyon Rəsul bəy tapa bilər. Həmin poçtalyon vasitəsilə keçmiş İran şahzadəsi Bəhmən Mirzənin kitabxanasından çoxlu sayda müxtəlif lüğətlər və bir çox başqa kitablar aldım. Bu kitabları Bəhmən Mirzənin varisləri satırdılar. Mirzə Cəlil bu kitabları görəndə sevindi yindən başını itirdi və bütün fikri-xəyalı ilə onlara qapıldı".

Bəhmən Mirzə ömrünün sonunadək Şuşada və Bərdədə yaşayıb. Həmin illər siyasətdən həmişəlik əl çəkmişdi. Qalan ömrünü maarifin, mədəniyyətin inkişafına həsr etmişdi. Araşdırıcıları bu qənaətdədirlər ki, Bəhmən Mirzə "Təzkireyi-Məhəmməd şahi", "Şükürnameyi-şahənşahi" adlı tarixi-elmi əsərlərini də Şuşada, Bərdədə yaşadığı dövrdə qələmə alıb.

Bəhmən Mirzənin əsərləri onun yaşadığı dövrün hadisələrinə münasibətini öyrənmək baxımından əhəmiyyətlidir. Tarixi məlumatlarla yanaşı, ədəbi mənbələrə də müraciət etməsi onun maraq dairəsinin genişliyini göstərir. Əsərlərinin fars dilində yazılması həmin dövrdə elmi və tarixi ədəbiyyatda bu dilin mövqeyi ilə bağlıdır.

Tarixi salnamə olan "Şükürnameyi-şahənşahi" əsəri 1871-ci ildə Şuşa şəhərində fars dilində işıq üzü görüb. Əsərdə Rusiyanın işğalından sonra Azərbaycanda yaranmış ictimai, siyasi vəziyyətdən, o cümlədən iqtisadi və mədəni sahələrdə baş verən dəyişikliklərdən bəhs edilib.

"Təzkireyi-Məhəmməd Şahi" əsərinin Bəhmən Mirzə Qacar böyuk qardaşı Məhəmməd şah Qacarın xahişi ilə yazıldığı məlumdur. Üç hissədən ibarət olan mətnin birinci hissəsində muəllifdən əvvəl yaşamış 132 şair və yazar haqqında qısa bioqrafik məlumatlar və onların yaradıcılığından nümunələr verilib. İkinci hissəyə şah nəslindən olan 12 şair haqqında məlumatlar, onların yaradıcılığından nümunələr daxil edilib. Üçüncu hissə isə şairin muasirləri barədədir.

Bəhmən Mirzənin övladları da ad-san qazanıblar. Oğlanlarından 6-sı general, 6-sı isə polkovnik hərbi rütbələrinə yüksəlib. Bəhmən Mirzə Qacar nəslinin nümayəndələri regionun ictimai, siyasi, hərbi və mədəni həyatında mühüm rol oynayıblar.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"



Milli Kitabxana tərəfindən hazırlanmış metodik vəsait onlayn rejimdə istifadəçilərə təqdim olunub

Milli Kitabxana tərəfindən hazırlanmış "Kitabxana-informasiya fəaliyyətində süni intellektin imkanlarından istifadə" adlı metodik vəsait onlayn rejimdə istifadəçilərə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, kitabxana-informasiya sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulan metodik vəsaitin əsas məqsədi süni intellektin imkanlarını təqdim etmək, eləcə də kitabxana əməkdaşlarına bu texnologiyalardan praktik istifadə üzrə metodik dəstək göstərməkdir.

Vəsaitdə süni intellektin əsas anlayış və texnologiyaları, kitabxana fəaliyyətində tətbiq istiqamətləri, müxtəlif süni intellekt alətlərindən istifadə imkanları, onların üstünlükləri və məhdudiyyətləri haqqında məlumat verilir. Nəşrdə süni intellekt vasitəsilə yaradılan məlumatların yoxlanılması, istifadə olunan mənbələrin etibarlılığının qiymətləndirilməsi, müəlliflik hüququnun qorunması, şəxsi məlumatların təhlükəsizliyinin təmin edilməsi və informasiya təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirilir.

Metodik vəsait kitabxana əməkdaşlarının rəqəmsal bacarıqlarının inkişaf etdirilməsinə, süni intellekt texnologiyalarının kitabxana-informasiya proseslərinə səmərəli inteqrasiyasına və istifadəçilərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə töhfə vermək məqsədi daşıyır.

İstanbulda ABŞ-dən Türkiyəyə qaytarılan 100 sənət əsəri təqdim olunub

İstanbul Arxeologiya Muzeyində ABŞ-dən Türkiyəyə qaytarılan 100 sənət əsərinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy artefaktları təhvil vermək qərarına görə Amerika hakimiyyətinə təşəkkür edib.

Nazir xatırladıb ki, Anadoludan qaçaqmalçılıq yolu ilə aparılan antik əşyalar 2026-cı ilin may ayında ABŞ hərrac evi tərəfindən satışa çıxarılıb. Buna cavab olaraq, Türkiyə hakimiyyəti



Manhetten rayon prokurorluğuna və ABŞ Vətən Təhlükəsizliyi Təhqiqatlarına (HSI) qarşı iddia qaldırıb. Sənət əsərlərinin satışı dayandırılıb və onlar Türkiyəyə qaytarılıb.

Artefaktlardan 40 ədədi Tokat vilayətinin Erbaa rayonunda aparılan qanunsuz qazıntılar zamanı aşkar edilib. "Eramızdan əvvəl 2300-2000-ci illərə aid əsərlər təxminən 70 il əvvəl ölkəmizdən Qərbə qanunsuz olaraq aparılıb", - deyə M.N. Ersoy bildirib.

Nazir Ankaranın mədəni irsin qaçaqmalçılığına qarşı mübarizəni davam etdirəcəyinə əminlik ifadə edib.

Eyni zamanda Türkiyə metropolunda Burdur vilayətindəki qədim Bubo şəhərinin yerində aparılan qazıntılar zamanı aşkar edilmiş bürünc heykəllər və digər artefaktları nümayiş etdirən sərgi açılıb.

Şuşaya ilk Azərbaycan bayrağını sancan Vətən Müharibəsi Qəhrəmanı BMU tələbəsidir

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin baş giziri, Vətən Müharibəsi Qəhrəmanı Yaşar Hüseynov bu il Bakı Mühəndislik Universitetinin (BMU) tələbəsi adını qazanıb. O, universitetin Memarlıq və inşaat fakültəsində "Dizayn" ixtisası üzrə birinci kursda təhsil alır.







Bu barədə AZƏRTAC-a universitetdən məlumat verilib. Bildirilib ki, Ağdam rayonunun Abdal qəsəbəsində anadan olan Yaşar Hüseynov doğma yurdunun işğalından sonra ailəsi ilə birlikdə Bərdə rayonunda məskunlaşıb. Orta təhsilini 1999-cu ildə başa vuran qəhrəmanımız 2000-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. 2001-ci ilin martından xüsusi təyinatlı qüvvələrdə xidmətə başlayıb və sonrakı illərdə bir sıra mühüm döyüş əməliyyatlarında iştirak edib. 2014-cü ilin avqustunda Goranboy rayonunun Gülüstan qəsəbəsi yaxınlığında döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb. Səkkiz ay davam edən müalicədən sonra, 2015-ci ilin aprelində yenidən hərbi xidmətə qayıdıb. 2016-cı ilin Aprel döyüşlərində də iştirak edərək döyüş tapşırıqlarının icrasında fərqlənib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Cəbrayıl, Füzuli və Şuşa şəhərlərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən Yaşar Hüseynov oktyabrın 9-da Füzuli rayonunun Gorazıllı yaşayış məntəqəsinin azad olunması zamanı yaralanaraq xəstəxanaya yerləşdirilib. Müalicəsi tam başa çatmadan, oktyabrın 21-də yenidən döyüş bölgəsinə qayıdıb.

Şuşanın azad edilməsi uğrunda döyüşlərdə xüsusi şücaət göstərən Yaşar Hüseynov noyabrın 5-dən 6-na keçən gecə şəhərə daxil olan hərbçilərimizin sırasında olub. Noyabrın 6-da bölmə komandiri və digər hərbçilərlə birlikdə şəhərin düşmən işğalından azad edilməsi əməliyyatında iştirak edib. Noyabrın 7-də saat 13:45-də Şuşa şəhərində yerləşən duma binasının üzərindəki separatçı rejimin bayrağını çıxararaq yerinə Azərbaycan bayrağını sancıb. Bununla yanaşı, işğaldan sonra həmin binanın üzərində ilk dəfə azan səsləndirib.

Yaşar Hüseynov hərbi xidmətini sonrakı illərdə də davam etdirib. 2021-ci ildə Kəlbəcər rayonu ərazisində, Basarkeçər istiqamətində sərhədlə bağlı fəaliyyətlərdə, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı zamanı isə Xankəndi və ətraf yaşayış məntəqələrinin azad olunmasında iştirak edib.

Döyüşlərdə göstərdiyi şücaətə və hərbi xidmətindəki xüsusi xidmətlərinə görə Yaşar Hüseynov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. O, həmçinin "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hərbi xidmət dövründə müdafiə nazirlərinin müvafiq əmrləri ilə 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", 2-ci və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Şücaətə görə" medallarına, eləcə də Azərbaycan Silahlı Qüvvələrinin 10, 90, 95 illiyi və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarına layiq görülüb.

Yaşar Hüseynov bir oğul və bir qız atasıdır. Onun ailəsinin də Qarabağ müharibəsində xüsusi yeri var. Belə ki, Birinci Qarabağ müharibəsi zamanı üç qardaşı Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. Qardaşlarından Sadiq və Fərman Hüseynov müharibə veteranıdır. Digər qardaşı Füzuli Hüseynov isə 1994-cü il aprelin 16-da Ağdam rayonunun Yusifcanlı istiqamətində gedən döyüşlərdə şəhid olub.

Yaşar Hüseynovun vətən qarşısındakı xidmətləri dövlət səviyyəsində də yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin müxtəlif tədbirlərdə qəhrəman hərbçimizlə şəxsən görüşməsi və ona göstərdiyi diqqət bu ehtiramın ifadəsidir.

Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqla tarixə adını yazdıran Yaşar Hüseynovun ali təhsil almaq qərarı həyatında yeni mərhələnin başlanğıcıdır. Hərbi xidmətini davam etdirməklə yanaşı, bilik və bacarıqlarını artırmağa, yeni sahədə özünü inkişaf etdirməyə yönələn bu addım onun təhsilə verdiyi önəmi də nümayiş etdirir. Onun həyat yolu vətənə sədaqətin, fədakarlığın və ömür boyu öyrənmək əzminin nümunəsidir.

Qubadlıda Bərgüşad çayı üzərində ilk su-elektrik stansiyası tikilir





Qubadlı rayonunda Bərgüşad çayı üzərində 5,3 meqavat gücündə "Eyvazlı" Su-Elektrik Stansiyası tikilir. Dövlət başçısının tapşırığına uyğun olaraq, "Azərenerji" tərəfindən inşa edilən stansiya Qubadlı rayonunun tarixində yaradılan ilk su-elektrik stansiyası olacaq.



Stansiyanı dayanıqlı su ilə təmin etmək üçün Bərgüşad çayı üzərində ekoloji normalara uyğun baş suqəbuledici qurğu inşa edilib. Mürəkkəb relyef şəraitində uzunluğu 5,3 km məsafədə derivasiya boru xətti çəkilib, maşın zalının tikintisi başa çatdırılıb.

Hazırda stansiyada turbin və generatorların, eləcə də 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğuların montajı həyata keçirilir. İki ədəd Frensis tipli turbinlə təchiz olunacaq "Eyvazlı" SES-də tikinti-quraşdırma işlərinin yaxın vaxtlarda yekunlaşdırılması nəzərdə tutulur.

"Eyvazlı" SES "Azərenerji" tərəfindən 2021-ci ildə tikiləsi istismara verilmiş 110 kilovoltluq "Qubadlı" yarımstansiyası vasitəsilə ölkənin vahid enerjisisteminə qoşulacaq.

Yeni tikilən SES-in istismara verilməsi ilə Qubadlı rayonu da işğaldan azad edilmiş ərazilərdə "yaşıl hidroenerji" istehsal edən rayonların sırasına qoşulacaq. Stansiyada ildə 15,6 milyon kilovat-saat ekoloji cəhətdən təmiz "yaşıl enerji"nin istehsalı, 3,5 milyon kubmetr təbii qaza qənaət edilməsi və atmosferə atılan 6400 ton karbon qazı emissiyasının qarşısının alınması nəzərdə tutulur.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

BMT Qərbi Səhra sülh missiyasının fəaliyyətinə son qoydu

BMT-nin baş katibi Antonio Quterreş Qərbi Səhradakı sülhməramlı (MINURSO) missiyanın fəaliyyətinin başa çatdığını bildirib. Buna baxmayaraq, BMT bölgədə sülhün bərqərar olunması və xalqın öz müqəddəratını təyinetmə hüququnun təmin edilməsi üçün dəstəyini davam etdirəcək.



"The İndependent" nəşrinin məlumatına görə, 1991-ci ildən bəri fəaliyyət göstərən MINURSO missiyasının səlahiyyət müddəti şənbə günü gecəyarısı başa çatıb. Səbəbi BMT Təhlükəsizlik Şurasının missiyanın uzadılması ilə bağlı razılığa gələ bilməməsidir. Təhlükəsizlik Şurasına təqdim edilən qətnamə layihələrindən birinə veto qoyulub, digər alternativ mətn isə lazımi qədər səs toplamayıb.

Missiyanın fəaliyyəti dayandırılsa da, BMT baş katibinin xüsusi nümayəndəsi Staffan de Mistura vasitəsilə sülh danışıqları davam edəcək. Artıq bazar günündən etibarən missiyanın ləğvi və texniki avadanlıqların bölgədən çıxarılması mərhələsinə başlanılıb və A.Quterreş bütün tərəfləri təmkinli olmağa, gərginliyi artıracaq addımlardan çəkinməyə çağırıb.

Qızıl yenidən bahalaşmağa başlayıb

Son üç həftə ərzində ucuzlaşan qızıl qiymətləri yeni həftəyə artımla başlayıb. "CNN" telekanalının məlumatına görə, ötən həftənin cümə günü son bir ilin ən aşağı səviyyəsinə (3870 dollar) düşən qızılın dünya qiyməti, həftənin ilk əməliyyat günündə 0,73 faiz artaraq 3904 dollara yüksəlib.

Yaxın Şərqdə gərginliyi azaltmağa yönəlmiş diplomatik addımlar neft qiymətlərinin düşməsinə və inflyasiya narahatlıqlarının azalmasına səbəb olub. Eyni zamanda ABŞ dollarının və istiqraz faizlərinin geriləməsi, faiz gəliri gətirməyən qızılı investorlar üçün yenidən cəlbedici edib, baxmayaraq ki, bazarlar hazırda ABŞ Mərkəzi Bankının dekabr ayında faiz artıracağı ehtimalını yüksək qiymətləndirir.

ABŞ-də aralıq seçkiləri öncəsi rəy sorğuları nəyi göstərir?

ABŞ-də noyabrın 3-də keçiriləcək Konqresə seçkiləröncəsi ictimai rəy sorğularının nəticələri aydınlaşmağa başlayıb. Keçiriləcək seçkidə Nümayəndələr Palatasının 435, Senatın isə 35 yeri uğrunda mübarizə aparılacaq. Rəy sorğuları demokratların öndə olduğunu göstərsə də, nəticəni bərabər mübarizənin getdiyi bölgələr müəyyən edəcək.

"Real Clear Politics" platformasının məlumatına görə, Senatda 47 yerin demokratlara, 45 yerin isə respublikaçılara çatacağı, 8 ştatda isə gərgin mübarizənin davam etdiyi bildirilir. Respublikaçılar bu 8 yerdən ən azı 5-ni qazanarsa, 50-50 bərabərliyi əldə edə bilərlər ki, bu halda vitse-prezident Cey Di Vens həlledici səs hüququndan istifadə edərək üstünlüyü öz partiyasına qazandıra bilər.

Əksəriyyət üçün 218 yer tələb olunan Nümayəndələr Palatasında isə demokratların 227, respublikaçıların 182 yer qazanacağı gözlənilir. 26 yer üzrə gərginlik olsa da, demokratlar üstün görünürlər. Müqayisə üçün qeyd edək ki, hazırda Senatda respublikaçıların 53, demokratların 45 yeri (2 müstəqil üzv daxil olmaqla), Nümayəndələr Palatasında isə respublikaçıların 218, demokratların 214 və müstəqillərin 1 yeri var. 2 yer isə boşdur.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Ötən həftənin iqtisadi icmalı

Yeni tərəfdaşlıqlar, investisiyalar və iqtisadi inkişafın perspektivləri

Ötən həftənin diqqətçəkən yeniliklərindən biri Azərbaycanın rəqəmsal ticarət potensialına dair beynəlxalq qiymətləndirmə ilə bağlıdır. Dünya İqtisadi Forumu İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən 4SİM ilə əməkdaşlıq çərçivəsində "Azərbaycanın TradeTech potensialının reallaşdırılması" adlı hesabat dərc edib. Hesabata görə, Azərbaycanın rəqəmsal dövlət xidmətləri, inkişaf edən logistika infrastrukturu və Orta dəhlizdəki əlverişli coğrafi mövqeyi ölkənin regional rəqəmsal ticarət mərkəzinə çevrilməsi üçün geniş imkanlar yaradır.

* * *

Oktyabrın 27-də iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində daha bir addım atılıb. Bakıda İqtisadiyyat Nazirliyi ilə İspaniyanın IE Universiteti arasında İqtisadi Observatoriyanın yaradılması və inkişafına dair Çərçivə Əməkdaşlıq Sazişi imzalanıb.

Saziş iqtisadi şaxələndirmə, məhsuldarlığın artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi üzrə birgə tədqiqatları, iqtisadi təhlilləri, eləcə də dövlət, biznes və akademik dairələr arasında əməkdaşlığı nəzərdə tutur.

* * *

Enerji sektorunda isə ötən həftə regional əməkdaşlıq və investisiya imkanları İstanbulda Azərbaycanın da iştirak etdiyi 16-cı Türkiyə Enerji Sammitinin əsas müzakirə mövzularından olub. Türkiyənin Energetika və Təbii Sərvətlər Nazirliyinin himayəsi, SOCAR Türkiyə şirkətlər qrupunun əsas tərəfdaşlığı və sponsorluğu ilə təşkil olunan sammit "Avropa-Aralıq dənizi regionunda enerji təhlükəsizliyi və investisiya imkanları" mövzusuna həsr edilib. Tədbirdə enerji təhlükəsizliyi, təchizatın davamlılığı, bərpaolunan və nüvə enerjisi, mayeləşdirilmiş təbii qaz bazarındakı dəyişikliklər, eləcə də regional enerji bazarlarının inteqrasiyası müzakirə olunub.



* * *

Maliyyə sektorunda risklərin idarə olunması və böhranlara hazırlıq məsələləri Azərbaycanın beynəlxalq təlimdə iştirakı ilə həftənin gündəmində yer alıb. Beynəlxalq Valyuta Fondunun Birgə Vyana İnstitutu və Yel Universitetinin Maliyyə Sabitliyi Proqramı çərçivəsində təşkil olunan təlimdə bank sektorunda risklərin erkən aşkarlanması, əmanətlərin sığortalanması və transsərhəd böhranların idarə olunması üzrə beynəlxalq təcrübə nəzərdən keçirilib.

* * *

Həftə ərzində "AzerGold" QSC-nin beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində Özbəkistan və İndoneziya ilə müzakirələr aparılıb.

Daşkənddə keçirilən UIMF 2026 beynəlxalq forumunda isə şirkətin Özbəkistandakı törəmə müəssisəsi olan "Akba" qızıl yatağının birgə işlənməsi və digər perspektivli mineral sahələrdə geoloji kəşfiyyat imkanlarını təqdim edib. İndoneziya nümayəndə heyəti ilə görüşdə bu ölkədə mədən layihələrinə investisiya yatırılması, eləcə də Azərbaycandakı Daşkəsən dəmir filizi layihəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tərəflər birgə layihələr üzrə danışıqları davam etdirmək barədə razılığa gəliblər.

* * *

"Azərbaycan Hava Yolları" QSC (AZAL) və "Sea Breeze"in birgə təşkil etdiyi "Səma və Dəniz" lotereyasının əsas qalibi baş mükafat olaraq "Sea Breeze Resort" ərazisində yerləşən "Park Lane" yaşayış kompleksində mənzil qazanıb. Lotereya "AZAL Miles" loyallıq proqramının üzvləri arasında keçirilib.

Sentyabrın 28-də canlı yayımda keçirilən elektron tirajın nəticələrinə əsasən, ümumilikdə 100 iştirakçı qalib olub.

* * *

Qadınların sosial və iqtisadi imkanlarının genişləndirilməsi, mədəni irsin qorunması istiqamətində də təşəbbüs həyata keçirilib. "Azercell"in tərəfdaşlığı ilə "SHE - Gələcəyin toxuması" adlı tədbir təşkil olunub. Qurama sənətinin müasir yaradıcılıqda yaşadılmasına həsr olunan tədbirdə qadın sahibkarlığının, rəqəmsal bacarıqların inkişafı və sosial dəstək imkanlarının genişləndirilməsi məsələləri də diqqət mərkəzində olub.

* * *

Ötən həftə dünya bazarlarında neftin qiymətində artım qeydə alınıb. Londonun ICE birjasında "Brent" markalı neftin bir bareli 1,55 dollar bahalaşaraq 116,4 dollara, Nyu Yorkun NYMEX birjasında isə "Light" markalı neftin qiyməti 1,39 dollar artaraq 103,4 dollara çatıb.

Qiymətli metallar bazarında isə əks tendensiya müşahidə olunub. Həftə ərzində qızılın bir troya unsiyasının qiyməti 1,4 faiz azalaraq, 3937 dollaradək gerilədiyib. Gümüşün qiymətində isə daha kəskin eniş qeydə alınıb. O, həftə ərzində təxminən 8 faiz ucuzlaşaraq bir unsiya üçün 50 dollar həddindən aşağı düşüb.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları İlqar Yusifova atası
SÖHRAB YUSİFOVUN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Fərhad Hümbətova anası
ƏNTİQƏ HÜMBƏTOVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3276
Sifariş 1466
Qiyməti 60 qəpik